# Azadlığın məşəli – Azərbaycan bayrağı!


Xalq qəzeti

Xalqın qəzeti!

№ 246 (30362) 9 noyabr 2023-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az


# Xankəndi, gözün aydın – mübarəkdir paradın!

## Şəhərdə Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi parad

**Noyabrın 8-də Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi parad keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev paradda iştirak ediblər.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevə raport verdi.

Dövlətimizin başçısı şəxsi heyəti salamladı.

Xalqımızın Ümummilli lideri Heydər Əliyevin, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Hərbi orkestr Azərbaycan Respublikasının Dövlət Himnini ifa etdi.

Dövlətimizin başçısı paradda çıxış etdi.

*(ardı 2-ci səhifədə)*



## Qarabağ Zəfəri Türkiyənin qürur mənbəyidir

**Cənab Prezident, Əziz Qardaşım!**

Onilliklər boyu işğal altında qalmış əzəli Azərbaycan torpaqlarının ana Vətənə geri qaytarıldığı Zəfər Gününün üçüncü ildönümü münasibətilə başda Zati-aliniz olmaqla bütün can azərbaycanlı qardaş və bacılarımı Türk milləti adından və şəxsən öz adımdan ürəkdən təbrik edirəm.



Cümhuriyyətimizin yaranmasının və xatirəsini ehtiramla yad etdiyimiz Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünün qeyd olunduğu 2023-cü ildə bu mübarək Zəfər Gününü qeyd etməkdən böyük qürur duyuram.

Cari ilin sentyabr ayında Qarabağda dəqiqliklə həyata keçirdiyiniz antiterror əməliyyatı Ali Baş Komandanlığınızla böyük zəhmət və fədakarlıq hesabına əldə edilmiş bu bənzərsiz qələbəni taclandırdı. Zati-alinizin şəxsən ucaltdığı şanlı Azərbaycan Bayrağının indi bütün Vətən səmalarında dalğalanması Türkiyə Respublikası və bütün Türk dünyası üçün böyük sevinc və fərəh mənbəyi olmuşdur.

Vətən uğrunda şəhid olan bütün azərbaycanlı qardaşlarıma Uca Allahdan rəhmət diləyir, əziz xatirələrini ehtiramla yad edir, qazilərimizə minnətdarlığımı bildirirəm.

İşğaldan azad edilmiş bölgələrdə apardığınız bərpa və yenidənqurma işlərini təqdirlə izlədiyimi və Türkiyə olaraq bütün məsələlərdə olduğu kimi, bu məsələdə də hər zaman yanınızda olmağa davam edəcəyimizi vurğulamaq istəyirəm.

"Bir millət, iki dövlət" şüarı ilə təcəssüm olunan, "Sevincdə və kədərdə birlik" anlayışı ilə yoğurulan və Zati-alinizlə imzaladığımız Şuşa Bəyannaməsi ilə taclanan sarsılmaz qardaşlıq və müttəfiqlik bağlarımızdan aldığımız güclə, ölkələrimizin əmin-amanlığı və rifahı ilə Cənubi Qafqazda davamlı sülh və sabitliyin bərqərar olması istiqamətində bütün addımları bu günə qədər olduğu kimi, bundan sonra da birlikdə atacağıq.

Əziz Qardaşım, fürsətdən istifadə edərək, Zati-alinizin cansağlığı və xoşbəxtliyi, can Azərbaycan xalqının rifahı ilə bağlı ən xoş arzularımı bir daha çatdırıram.

**Zəfərimiz mübarək, birliyimiz əbədi olsun!**

***Rəcəb Tayyib ƏRDOĞAN,***
***Türkiyə Respublikasının Prezidenti***

## Qarabağ Zəfərinə aparan iqtisadi qüdrət



**Vətən müharibəsində Azərbaycanın əldə etdiyi tarixi Zəfəri şərtləndirən əsas səbəblərdən biri də ölkəmizin güclü iqtisadiyyata malik olması idi.**

Bu məqsədə nail olmaq üçün respublikamızın təlatümlü bir vaxtında–1993-cü ildə Azərbaycan rəhbərliyinə yenidən qayıdan ulu öndər Heydər Əliyev daxili çəkişmələrə son qoymaqla, xaosu, özbaşınalığı aradan qadırmaqla, sabitliyin, əmin-amanlığın qorunmasını, möhkəmlənməsini, ordu quruculuğunu diqqətdə saxlamaqla bərabər iqtisadiyyatı da dirçəltməyi qarşıya mühüm vəzifə kimi qoydu.

*(ardı 7-ci səhifədə)*

## "Demokratiya" maskasının arxasından boy verənlər



**Bu maraqlar Qərbin və Ağ evin demokratiya pərdəsi altında bütün dünyaya sırımağa çalışdıqları zərərli ideya və məkrli niyyətlər toplusudur. Getdikcə daha aşkar görünən mənzərə ondan ibarətdir ki, ABŞ-Qərb koalisiyası (burada Fransa və Almaniyanı xüsusi qeyd etmək lazımdır) türkdilli dövlətlərin son illərdə güclənən mövqelərinin və ortaya qoyduqları siyasi əzmin fərqindədir.**

Xüsusilə də Türkiyə–Azərbaycan tandeminin beynəlxalq platformalarda nüfuzunun artması, hər hansı qütbləşməyə dəstək verməməsi, tam müstəqil dövlətlər kimi bölgənin gələcəyi ilə bağlı təşəbbüs və planlar irəli sürməsi Avropada və okeanın o tayındakı bəzi aktorlarda qıcıq yaratmaqdadır. Əslində, hazırda birləşmiş koalisiya formatında anti-Türkiyə və anti-Azərbaycan siyasəti aparan və bu "ocağı" durmadan körükləndirən güclərdən ötrü Hayastan və onun maraqları mövsümi alətdən savayı bir şey deyil. Onlar üçün ermənilərin "pozulmuş hüquqlarının müdafiəsi", "qaçqınlara humanitar yardım" kimi məsələlər az maraqlıdır. Əsas hədəf nəhəng meqalayihələrin reallaşdırıldığı və böyük kapitalın dövr edəcəyi Qafqazda söz sahibi olmaq, bölgə ölkələrini nüfuz dairəsinə salmaqdır.

*(ardı 4-cü səhifədə)*

## "Qriqoryanlıq", yaxud erməni siyasi təfəkküründəki növbəti anti-Rusiya təzahürü

**Ermənistan hər ötən gün Rusiya ilə bağlarını qırmaqla məşğuldur. Özü də ölkə bunu çox nümayişkaranə şəkildə edir. Belə ki, bütün günü Avropadan və Amerikadan yığışmayan Ermənistanın təhlükəsizlik şurasının katibi Armen Qriqoryan Moskvaya MDB ölkələri təhlükəsizlik şuraları katiblərinin növbəti iclasında iştirakdan imtina edib.**



Qriqoryanın Rusiyanın paytaxtına getməmək qərarı heç nə ilə əsaslandırılmır. Sadəcə, getməyəcək, vəssalam. Əvvələr erməni rəsmilər hansısa bəhanə, növbətçi səbəblər uydururdularsa, görünür, indi buna da ehtiyac duyulmur. Deməli, Rusiyaya münasibətdə tam hörmətsiz davranmaq yolu tutulur. Məsələyə başqa cür yanaşmaq mümkünsüzdür.

*(ardı 4-cü səhifədə)*

## Müstəqil dövlətin manifesti

Səhifə ⇨ 6

## Döyüşən sözün Zəfər öyüncü



Səhifə ⇨ 8

## Dəniz xəzinəsinə qapı açıldığı gün

Səhifə ⇨ 7

# Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi parad

## Prezident İlham Əliyevin çıxışı





*(əvvəli 1-ci səhifədə)*

– Əziz hərbçilər, mən sizi və bütün Azərbaycan xalqını Zəfər Günü münasibətilə təbrik edirəm.

**Hərbçilər:** Sağ ol.

**Prezident İlham Əliyev:** Üç il bundan əvvəl Qarabağın tacı olan Şuşa şəhəri işğalçılardan azad edildi. Ondan bir gün sonra düşmən ordusu təslim oldu və ağ bayraq qaldırdı. Beləliklə, İkinci Qarabağ müharibəsi Azərbaycan dövlətinin tam Zəfəri ilə nəticələndi. Bu, tarixi hadisədir.

Azərbaycan xalqı uzun illər ərzində işğal dövründə bir nöqtəyə vururdu ki, tezliklə bizim torpaqlarımız işğalçılardan azad edilsin. Biz bu müqəddəs günü hər gün, hər saat öz əməyimizlə, işimizlə yaxınlaşdırırdıq.

Birinci dəfə Azərbaycan xalqı mənə böyük etimad göstərəndə, 20 il bundan əvvəl Prezident kimi əziz xalqıma söz vermişdim: əlimdən gələni edəcəyəm ki, biz ərazi bütövlüyümüzü bərpa edək. Həm seçkilər ərəfəsində, həm andiçmə mərasimində doğma xalqıma söz vermişdim ki, gün gələcək biz Azərbaycanın Dövlət Bayrağını işğal altında olan torpaqların hər bir guşəsində qaldıracağıq. Xatırlayıram, beş il bundan əvvəl - 2018-ci ilin sentyabrında Bakının Azadlıq meydanında keçirilmiş hərbi paradda çıxış edərkən demişdim ki, gün gələcək Azərbaycan Bayrağı bu gün hələ də işğal altında olan bütün torpaqlarda qaldırılacaqdır və bu gün gəldi.

Bu günü bizə bəxş edən müzəffər Silahlı Qüvvələrimiz döyüş meydanında cəsarət, qəhrəmanlıq, fədakarlıq göstərərək düşməni bizim əzəli torpaqlarımızdan qovmuşdur. Bu, böyük tarixi hadisədir. Azərbaycan xalqının çoxəsrlik tarixində buna bənzər parlaq Qələbə olmamışdır. Şuşa əməliyyatı, 44 gün ərzində apardığımız bütün digər hərbi əməliyyatlar, hərbçilərimizin şücaəti bir qəhrəmanlıq dastanıdır. Qırx dörd gün ərzində döyüş meydanında düşməni məğlub edərək, şəhər və kəndlərimizi azad edərək Azərbaycan əsgər və zabiti əsl qəhrəmanlıq göstərmişdir. Hər gün biz irəli gedirdik, bir gün belə geriyə addım atmamışdıq. Düşmən ordusu Azərbaycan Ordusunun, Silahlı Qüvvələrin peşəkarlığını, fədakarlığını görərək daha da böyük təşvişə düşürdü və onların özlərinin etirafına görə, 44 günlük müharibə zamanı Ermənistan ordusunda 12 min fərari olmuşdur. Azərbaycan Silahlı Qüvvələrinin bir nəfər də olsun hərbçisi döyüş meydanını tərk etməmişdir. Bu, Azərbaycan xalqının əyilməz ruhunu və yüksək mənəvi keyfiyyətlərini bir daha bütün dünyaya nümayiş etdirdi.

Şuşa əməliyyatı, təbii ki, 44 günlük Vətən müharibəsi dövründə xüsusi yerə malikdir. Çünki çox çətin coğrafi vəziyyətdə yerləşən, alınmaz qala sayılan Şuşanı yüngül silahlarla, bir çox hallarda əlbəyaxa döyüşlər nəticəsində azad etmək böyük güc, peşəkarlıq və fədakarlıq tələb edirdi. Azərbaycan övladları bunu göstərmişlər.

İyirmi il bundan əvvəl Prezident kimi öz fəaliyyətimə başlayanda əziz xalqıma bildirmişdim ki, biz torpaqlarımızı müharibə yolu ilə azad etməyə hazır olmalıyıq. O vaxt hələ sülh danışıqlarına müəyyən ümidlər var idi. Ancaq illər keçdikcə bu ümidlər tükənirdi. Ermənistan öz xoşu ilə bizim torpaqlarımızdan çıxmaq istəmirdi. Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması ilə məşğul olmuş vasitəçilər faktiki olaraq vəziyyəti dondurmağa çalışırdılar, hesab edirdilər ki, Azərbaycan xalqı bu vəziyyətlə barışacaq. Ancaq Azərbaycan xalqı heç vaxt bu vəziyyətlə barışmaq fikrində deyildi və mən dəfələrlə bunu müxtəlif kürsülərdən bəyan etmişdim ki, biz bu vəziyyətlə barışmayacağıq. Azərbaycan torpağında ikinci erməni dövlətinin yaradılmasına icazə verməyəcəyik, danışıqlar nəticəsiz başa çatsa, güc tətbiq edərək beynəlxalq hüquq əsasında öz doğma torpaqlarımızı döyüş meydanında işğalçılardan azad edəcəyik. Əgər Ermənistan rəhbərliyi və onun arxasında o vaxt və bu gün duran bəzi xarici qüvvələr mənim sözlərimə qulaq assaydılar, İkinci Qarabağ müharibəsinə ehtiyac qalmazdı. Mən dəfələrlə deyirdim, Ermənistan rəhbərliyinə müraciət edərək deyirdim ki, əgər siz bizim torpağımızdan çıxmasanız, döyüş meydanında bizimlə üzüzə gələcəksiniz və sizin arxanızda kim istəyirsə dursun, bu, bizi haqq yolumuzdan döndərə bilməz. 44 günlük Vətən müharibəsi bunu bir daha göstərdi.

Qırx dörd gün ərzində Azərbaycana müxtəlif yerlərdən, müxtəlif paytaxtlardan təzyiqlər göstərilirdi, təhdidlər səsləndirilirdi. Ancaq bizi haqq yolumuzdan heç kim göndərə bilməzdi və mən Vətən müharibəsi dövründə Azərbaycan xalqına müraciət edərək demişdim ki, düşmən bizə torpaqlarımızın azad olunmasının tarixini versin, o zaman biz müharibəni dayandırmağa hazırıq və belə də oldu. Şuşa Zəfərindən sonra düşmən faktiki olaraq kapitulyasiyaya hazır idi və bir gün sonra kapitulyasiya aktına imza atdı, biz də müharibəni dayandırdıq. O vaxt bizim Silahlı Qüvvələrimiz Xankəndinin bir addımlığında idi. Müharibənin o vaxt dayandırılması bizim şüurlu seçimimiz idi və bu gün bizim, bax, burada - Xankəndi şəhərinin mərkəzi meydanında hərbi paradı keçirməyimiz bir daha onu göstərir ki, nə qədər düzgün, müdrik addım idi.

O vaxt mən heç şübhə etmirdim ki, gün gələcək və burada - Xankəndi şəhərində Azərbaycan Bayrağı qaldırılacaqdır. 44 günlük müharibənin 10 noyabr 2020-ci il tarixində dayandırılması imkan verdi ki, Ağdam, Kəlbəcər və Laçın rayonları bir güllə atılmadan bizə qaytarıldı. Bu, Ermənistanın imzaladığı kapitulyasiya aktının tərkib hissəsi idi və bizim tələbimiz idi. Ermənistan bu tələbi yerinə yetirməyə məcbur olmuşdu. Çünki döyüş meydanında Azərbaycan Silahlı Qüvvələrinin gücünü və Azərbaycan siyasi rəhbərliyinin siyasi müstəvidə iradəsini görmüşdür. Ağdam, Laçın, Kəlbəcər rayonlarının bir güllə atılmadan azad edilməsi minlərlə gəncimizin həyatını xilas etdi. Biz onsuz da o bölgələri də döyüş meydanında azad edəcəkdik. Ancaq şəhidlərimizin sayı daha çox ola bilərdi.

İkinci Qarabağ müharibəsindən sonra biz bir gün dayanmadan ordu quruculuğu prosesini sürətləndirirdik və bunu gizlətmirdik. Dərhal Qarabağ bölgəsində bütün vacib olan məntəqələrə yerləşdik. Eyni zamanda, uzun illər ərzində işğal altında qalmış Azərbaycan-Ermənistan sərhədini nəzarətə götürdük. Sərhəddə mövqelərimizi tədricən yaxşılaşdırdıq və müxtəlif tədbirlər nəticəsində Azərbaycan-Ermənistan sərhədinin böyük hissəsində ən əlverişli mövqelərə malik olduq. Nə üçün biz bunu edirdik? Çünki biz bilirdik ki, Ermənistanda revanşist qüvvələr baş qaldırır. Biz bilirdik ki, Ermənistanın arxasında dayanan və onları bizə qarşı hərəkətə təhrik edən xarici qüvvələr onlara yenə də təxribatçı siqnallar verəcəklər. Ona görə biz öz sərhədimizi qorumalı idik və keçirilmiş bir neçə hərbi əməliyyat nəticəsində bu gün Azərbaycan-Ermənistan sərhədində vəziyyət bizim nəzarətimizdədir. Bununla bərabər, Qarabağ bölgəsində həyata keçirilmiş bir neçə hərbi əməliyyat bu bölgədə də əlverişli yüksəkliklərə sahib olmaq üçün bizə şərait yaratdı. Eyni zamanda, bu əməliyyatlar Ermənistan siyasi rəhbərliyinə də bir siqnal idi ki, siz kapitulyasiya aktında təsbit edilmiş bütün müddəaları icra etməlisiniz və ilk növbədə, öz silahlı qüvvələrinizi Qarabağdan çıxarmalısınız, bu, sizin öhdəliyinizdir. Amma həyatda biz bunun əksini gördük, nəinki Ermənistan silahlı qüvvələri çıxarılmadı, əksinə, daha çox qüvvə göndərilmişdi. O vaxt Laçın-Xankəndi yolu hələ bizim nəzarətimizdə deyildi, silah-sursat, minalar gətirilmişdi və Ermənistanın siyasi rəhbərliyi Qarabağdan öz silahlı qüvvələrini çıxarmaq istəmirdi.

Son üç il ərzində keçirilmiş hərbi əməliyyatlar, o cümlədən Fərrux əməliyyatı, Sarıbaba-Qırxqız əməliyyatı və digər hərbi əməliyyatlar həm bizim strateji mövqelərimizi böyük dərəcədə yaxşılaşdırmışdır. Eyni zamanda, Ermənistana göndərilmiş bir mesaj idi ki, bizi heç kim və heç nə dayandıra bilməz, Qarabağ Azərbaycan torpağıdır və burada vəziyyəti biz diktə edirik və siz dərhal silahlı qüvvələrinizi bizim torpaqlarımızdan çıxarmalısınız. Əgər o vaxt mənim sözümə baxsaydılar, sentyabr ayında keçirilmiş antiterror əməliyyatına ehtiyac qalmazdı. Onların bütün bəlalarının səbəbkarları elə onların özləridir. Onların bəlaları təkcə üç il bundan əvvəl başlamayıb, hələ 1990-cı illərin əvvəlində başlayıb. O vaxt Azərbaycanın çörəyini yemiş, Azərbaycanın suyunu içmiş nankor kütlə Azərbaycana qarşı, bax, bu meydanda ərazi iddiası qaldırmışdır. Bax, bu binada - Azərbaycan dövləti tərəfindən vaxtilə inşa edilmiş binada Azərbaycana qarşı məkrli planlar hazırlanırdı. Erməni xalqının bəlalarının səbəbkarları Ermənistana rəhbərlik etmiş bütün şəxslərdir. Onlar hesab edirdilər ki, bizim torpaqlarımızı əbədi işğal altında saxlayacaqlar. Özləri buna o qədər inanmışdılar, xarici tərəfdaşları da inandırmağa çalışırdılar ki, onların güclü orduları var, onların güclü potensialı var, güclü himayədarları var və Azərbaycan heç vaxt torpaqları hərbi yolla azad etməyə cürət etməyəcək. Onların dəyirmanına su tökənlər, bu gün də onların arxasında dayanmış bəzi ölkələr bu məsuliyyəti onlarla 100 faiz bölüşürlər.

Biz isə deyirdik ki, heç vaxt bu vəziyyətlə barışmayacağıq və bunu gizlətmirdik. Bizə nə qədər deyilmişdi ki, Ermənistan-Azərbaycan münaqişəsinin hərbi həlli yoxdur. Mən isə deyirdim ki, sülh yolu ilə bu məsələ həll olunmasa, bizim başqa çarəmiz qalmayacaq və 44 gün ərzində göstərdiyimiz qəhrəmanlıq, peşəkarlıq, əfsuslar olsun ki, Ermənistan rəhbərliyinə dərs olmadı.

Sentyabr ayında keçirilmiş antiterror əməliyyatı cəmi bir gün, ondan da az çəkdi. Azərbaycan Ordusu peşəkarlıq və qəhrəmanlıq göstərərək, bütün strateji yerlərə çıxaraq, qısa müddət ərzində o əməliyyatın taleyini həll etdi və düşmən ordusu təslim olmağa məcbur oldu. Nəinki təslim oldu, hətta 30 il bundan əvvəl bizim torpağımızda yaratdıqları qondarma rejimə də xitam verildi, o rejim də süqut etdi, halbuki bu, qanunsuz rejim idi. Beləliklə, biz tarixi ədaləti bərpa etdik. 20 sentyabr 2023-cü il bizim tariximizdə qalacaq, necə ki, 8 Noyabr. Noyabrın 8-də Şuşa əməliyyatından sonra düşmən ordusunun beli qırıldı və bir gün sonra kapitulyasiya aktına imza atdı. Bu il aprelin 23-də biz Laçın istiqamətində Azərbaycan-Ermənistan sərhədini nəzarətə alaraq ərazi bütövlüyümüzü tam bərpa etdik və sentyabrın 20-də dövlət suverenliyini tam bərpa etdik. Bununla separatçıların kitabı bağlandı. Artıq Azərbaycanda separatçılığa yer olmayacaq. Azərbaycan dövləti bu gün bütün əraziyə nəzarət edir və bunun səbəbkarları bu gün, bax, bu meydanda dayanan bizim igidlərimizdir və on minlərlə Azərbaycan hərbçiləridir. Onların qanı-canı bahasına biz bu Qələbəni əldə etmişdik.

Mən bir daha demək istəyirəm ki, biz 20 il ərzində bu günə doğru gedirdik, hazırlıq işləri gedirdi, beynəlxalq hüquq müstəvisində Azərbaycan mövqeləri möhkəmləndirilirdi. Siyasi müstəvidə apardığımız uğurlu fəaliyyət nəticəsində bütün dünya artıq bilməyə başlamışdır ki, haqlı tərəf bizik. İqtisadi sahədə apardığımız islahatlar imkan verdi ki, müstəqil iqtisadiyyat quraq, heç kimdən asılı olmayaq, öz həyatımızı özümüz quraq. Güclü siyasi iradə imkan verdi ki, müstəqil xarici siyasət aparaq, daxili siyasət aparaq, imkan verməyək kimsə bizim işimizə müdaxilə etsin. Halbuki belə cəhdlər tarixdə çox olmuşdur. Dövlətimizi, milli ləyaqətimizi, həyat tərzimizi, ənənələrimizi qorumuşuq ki, heç kim bizim işlərimizə burnunu soxmasın.

Əlbəttə ki, ordu quruculuğu birinci nömrəli vəzifə idi. Maddi-texniki təchizat, silah-sursatla təchizat, ordumuzun döyüş qabiliyyətinin qaldırılması və ilk növbədə, gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə edilməsi - budur, qələbəyə aparan əsas amillər. Nə qədər sənin silahın, sursatın olsa belə, nə qədər müasir hərbi texnologiyalardan istifadə etsən belə, qələbəni əldə edən əlində silah əsgərdir, zabitdir. O, sinəsini qabağa verir, o, ölümə getməyə hazırdır və biz bunu göstərmişik. Ən çətin, əlverişsiz coğrafi vəziyyətdə altı müdafiə zolağını yararaq, döşənmiş bir milyondan artıq minanın üzərindən keçərək, təpələrdə yerləşmiş düşmən mövqelərini məhv edərək, Azərbaycan əsgər və zabiti əsl qəhrəmanlıq və şücaət göstərmişdir. Əziz şəhidlərimizin xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaq və biz bütün dünyaya Azərbaycan xalqının gücünü, iradəsini, əyilməz ruhunu göstərmişdik. Yəni, hazırlıq işləri apararkən, bax, biz bu günü gözləyirdik. Mən bu 20 il ərzində heç vaxt şübhə etmirdim ki, bu gün gələcək və Xankəndi şəhərində Azərbaycan Bayrağı altında hərbi parad keçiriləcək.

Qırx dörd günlük müharibə zamanı çoxlu xarici media nümayəndələrinə müsahibələr verərək, təbii ki, bizim planlarımız haqqında mən danışa bilməzdim. Halbuki suallar demək olar ki, təkrarlanırdı. Bir dəfə demişdim ki, Şuşasız bizim işimiz yarımçıq olacaq. Ancaq hələ o vaxt mən bilirdim ki, Xankəndisiz, Xocalısız bizim işimiz yarımçıq qalacaq. Üç il bundan əvvəl mən əmr verərək Azərbaycan Ordusunu dayandırdım və bir daha demək istəyirəm, tarix göstərdi ki, nə qədər düzgün addım idi. Ancaq o gündən, bax, bu günə qədər - sentyabr ayına qədər hər gün biz işləyirdik, çalışırdıq ki, Azərbaycanın suverenliyi tam şəkildə bərpa edilsin. Oktyabrın 15-də Ağdərədə, Əsgəranda, Xocavənddə, Xocalıda və Xankəndidə mən Azərbaycan Bayrağını qaldırdım. Bundan böyük xoşbəxtlik ola bilməz - həm mənim üçün, həm sizin üçün, həm Azərbaycan xalqı üçün, həm də bütün dünya azərbaycanlıları üçün.

Dörd il bundan əvvəl, bax, qarşıdakı Xankəndi şəhər stadionunda Ermənistanın baş naziri çıxış edərkən təkəbbürlə demişdi: “Qarabağ Ermənistandır və nöqtə”. Biz ona, onun kimilərinə və onların arxasında duranlara döyüş meydanında qan tökərək, şəhidlər verərək göstərdik ki, o, səhv yolda idi. Biz göstərdik ki, Qarabağ Azərbaycandır, döyüşərək, vuruşaraq, heç nəyə baxmayaraq və bu gün hər kəs bilməlidir ki, bizimlə bundan sonra heç kim zarafat etməsin. Ermənistan rəhbərliyi əgər revanşist fikirlərlə yaşayırsa, Ermənistanın arxasında dayanan manipulyasiyaya öyrəşmiş ölkələr əgər yenə də Azərbaycan üçün hansısa məkrli plan qurursa, o, bugünkü parada bir nəzər yetirsin. Bilsin ki, burada mindən çox igidimiz düzülübdür və bizim 100 mindən çox onlar kimi igidlərimiz var və heç bir qüvvə bizi təhdid edə bilməz. Biz istənilən müstəvidə döyüşə hazırıq, siyasi, lazım olarsa, hərbi meydanda bunu göstərmişik. XXI əsrdə heç bir ordu bizim qədər peşəkarlıq, fədakarlıq göstərməmişdir. Heç bir xalq öz doğma torpağını bu qədər əziz tutub uğrunda ölümə getməyə hazır olmamışdır. Bunu biz hamımız yaxşı bilirik, bunu dünya da bilsin.

Bizə yeni müharibə lazım deyil. Biz istədiyimizə nail olduq, beynəlxalq hüququ bərpa etdik, tarixi ədaləti bərpa etdik, milli ləyaqətimizi bərpa etdik, düşmənə onun yerini göstərdik. Düşmən bizim qabağımızda diz çökdü və bu gün mən burada müzəffər Silahlı Qüvvələrin qarşısında çıxış edirəm. Yəni, biz bütün vəzifələri icra etmişik, ancaq bununla bərabər, bundan sonra da ordu quruculuğu məsələləri bizim üçün prioritet məsələlərdən biri olacaq. Bunu hamı bilsin və heç kim bunu unutmasın.

Mən bir daha, əziz hərbçilər, sizi və bütün Azərbaycan xalqını Zəfər Günü münasibətilə ürəkdən təbrik edirəm.

**Hərbçilər:** Sağ ol.

**Prezident İlham Əliyev:** Eşq olsun Azərbaycan Silahlı Qüvvələrinə! Qarabağ Azərbaycandır!

**Hərbçilər:** Qarabağ Azərbaycandır!

* * *

Azərbaycan Prezidentinin çıxışından sonra Silahlı Qüvvələrin parad heyətlərinin hərbi orkestrin müşayiəti ilə təntənəli keçidi başlayıb.

Parada müdafiə nazirinin birinci müavini – Azərbaycan Ordusunun Baş Qərargah rəisi, “Zəfər” və “Qarabağ” ordenli general-polkovnik Kərim Vəliyev komandanlıq edib.

Silahlı Qüvvələrin parad heyətləri Azərbaycan Respublikasının Dövlət Bayrağını və Şuşa şəhərinə sancılan – Qələbənin rəmzinə çevrilən Zəfər Bayrağı altında tribunaya doğru irəliləyiblər.

Ardınca Azərbaycan Ordusunun və qoşun növlərinin, lokal xarakterli antiterror tədbirlərində iştirak etmiş hərbi birləşmələrin döyüş bayraqları Xankəndi şəhərinin mərkəzi meydanına gətirilib.

*(ardı 3-cü səhifədə)*

# Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi parad

*(əvvəli 2-ci səhifədə)*



Sonra Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin parad heyətinin keçidi oldu. Parad heyətinə Vətən Müharibəsi Qəhrəmanı general-leytenant Hikmət Mirzəyev başçılıq edib.

"Azərbaycan Bayrağı" və "Rəşadət" ordenli general-mayor Bilal Çompuzovun başçılığı ilə 1-ci Ordu Korpusunun, "Qarabağ" və "Rəşadət" ordenli general-leytenant Mayis Bərxudarovun rəhbərliyi ilə 2-ci Ordu Korpusunun, "Rəşadət" və "Vətənə xidmətə görə" ordenli polkovnik Oruc Abdullayevin başçılığı ilə 3-cü Ordu Korpusunun, "Azərbaycan Bayrağı" və "Rəşadət" ordenli general-mayor Münasib Babayevin rəhbərliyi ilə 4-cü Ordu Korpusunun, Vətən Müharibəsi Qəhrəmanı, "Rəşadət" ordenli general-mayor Kənan



Seyidovun başçılığı ilə 5-ci Ordu Korpusunun və "Azərbaycan Bayrağı" ordenli general-mayor Məhəmməd Həsənovun rəhbərliyi ilə Əlahiddə Ümumqoşun Ordunun parad heyətləri tribuna önündən mətin addımlarla irəlilədilər.

Hərbi Dəniz Qüvvələrinin dəniz piyadalarının parad heyətinə Vətən Müharibəsi Qəhrəmanı polkovnik-leytenant Xalid İbrahimov başçılıq edib.

Daha sonra Vətən Müharibəsi Qəhrəmanı general-mayor Namiq İslamzadənin rəhbərliyi ilə Hərbi Hava Qüvvələrinin parad heyətinin keçidi olub.

Dövlət Təhlükəsizliyi Xidmətinin "Qartal" xüsusi təyinatlılarının parad heyəti "Qarabağ" ordenli polkovnik Cabir Cəfərovun başçılığı ilə tribuna önündən keçib.

Sonra Xarici Kəşfiyyat Xidmətinin "Yarasa" xüsusi təyinatlılarının parad heyətinin keçidi olub.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının xüsusi təyinatlılarının parad heyəti "Vətənə xidmətə görə" ordenli general-mayor Tofiq Hüseynovun başçılığı ilə Xankəndi şəhərinin mərkəzi meydanında irəliləyib.

Dövlət Sərhəd Xidmətinin parad heyətinə Vətən Müharibəsi Qəhrəmanı, "Vətənə xidmətə görə" ordenli general-mayor Babək Ələkbərov başçılıq edib.

Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin Milli Qvardiyasının hərbi qulluqçularından ibarət parad heyəti polkovnik-leytenant Eldar Quliyevin başçılığı ilə tribuna önündən keçib.

Parad heyətlərinin keçidindən sonra antiterror tədbirləri zamanı müsadirə olunan hərbi texnikaların kiçik bir qismi qoşqular üzərində Xankəndi şəhərinin mərkəzi meydanına gətirilib. Müsadirə edilmiş hərbi texnikaların və nəqliyyat vasitələrinin nömrə nişanlarından hazırlanan və üzərində "Zəfər" sözü həkk edilən lövhə nümayiş olunub.

İkinci Qarabağ müharibəsində tarixi Zəfərin üçüncü ildönümü münasibətilə Xankəndi şəhərində təşkil edilən, Vətən müharibəsinin iştirakçısı, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbaninin aparıcısı olduğu hərbi parad "Qələbə" marşının ifası ilə başa çatıb.

# Prezident İlham Əliyev Füzuli rayonunda Qarğabazar kəndinin təməlini qoyub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 8-də Füzuli rayonunda Qarğabazar kəndinin təməlini qoyub.**



Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov kənddə görüləcək işlər barədə dövlətimizin başçısına məlumat verdi.

Bildirildi ki, Füzuli Beynəlxalq Hava Limanından 10 kilometr məsafədə, rayonun cənub-qərbində yerləşən kəndin inzibati ərazisinə Yal-Pirəhmədi və Sərdarlı kəndləri də daxildir. Qarğabazar kəndinin layihələndirilən ümumi ərazisi 152,6 hektardır. Kəndə 2 min nəfərin köçürülməsi planlaşdırılır. Burada ümumilikdə 527 fərdi ev tikiləcək. Kəndin inşasının birinci mərhələsində 181 fərdi evin tikilməsi üçün 35,5 hektar torpaq sahəsi ayrılıb. Bu mərhələdə kəndə 181 ailənin - 629 nəfərin köçürülməsi planlaşdırılır.

Qeyd edildi ki, kənddə çoxfunksiyalı inzibati binanın, Bayraq meydanının, mədəniyyət evinin, kafe-restoranın, mərasim evinin, aptekin, idman klubunun, ailə sağlamlıq mərkəzinin, 384 şagird yerlik orta məktəbin, 128 yerlik uşaq bağçasının, istirahət və yaşıllıq zonalarının, bazar kompleksinin, kitabxananın, ticarət obyektinin, qonaq evinin, məscidin və digər zəruri obyektlərin tikilməsi planlaşdırılıb. Kənd tarixi ənənələri qorumaqla müasir üslubda layihələndirilib. Enerjiyə qənaət etmək məqsədilə alternativ enerjidən istifadə və istilik tutumlu evlərin inşası nəzərdə tutulub.

Prezident İlham Əliyev Qarğabazar kəndinin təməlini qoydu.

Məlumat verildi ki, kənddə tarixi memarlıq abidələri – Şah Abbas karvansarası və Şah Abbas məscidi də bərpa olunacaq. Qarğabazar kəndi Şəki-Qarabağ-Hindistan ipək ticarəti yolu üzərində yerləşdiyindən bu yoldan istifadə edən tacirlər uzun yolun yorğunluğunu çıxarmaq üçün Qarğabazar karvansarasında gecələyirdilər. Qarabağın ən qədim məscidlərindən olan, 1684-cü ildə inşa edilən Şah Abbas məscidi el arasında Hacı Qiyasəddin məscidi kimi də tanınır.

# Səudiyyə Ərəbistanının dostluq təbriki

**Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səud Azərbaycan Prezidenti İlham Əliyevə Zəfər Günü və Bayraq Günü münasibətilə təbrik məktubu göndərib.**

Səudiyyə Ərəbistanı Kralı İlham Əliyevə möhkəm cansağlığı və xoşbəxtlik, Azərbaycan hökumətinə və xalqına davamlı tərəqqi və firavanlıq arzulayıb.

Vəliəhd şahzadə və Baş nazir Məhəmməd bin Salman Al Səud da Zəfər Günü və Bayraq Günü münasibətilə Prezident İlham Əliyevə təbrik məktubu göndərib. O, İlham Əliyevə möhkəm cansağlığı və xoşbəxtlik, Azərbaycan hökumətinə və xalqına isə davamlı tərəqqi və firavanlıq arzulayıb.

***XQ***

# Bakıda Zəfər atəşfəşanlığı

**8 Noyabr – Zəfər Günü münasibətilə Bakıda Dənizkənarı Milli Parkda təşkil edilən konsert proqramı möhtəşəm atəşfəşanlıqla yekunlaşıb.**

Dənizkənarı Milli Parkın ərazisindəki Saat qülləsinin yanında təşkil olunmuş konsert tamaşaçılar tərəfindən böyük coşqu ilə qarşılanıb.

Paytaxtımızın minlərlə sakininin və qonaqlarının maraqla izlədiyi konsertdən sonra möhtəşəm atəşfəşanlıq olub, paytaxtın qaranlıq gecəsi al-əlvan rənglərə boyanıb.






# Azərbaycan Prezidenti İlham Əliyev Özbəkistana səfərə gəlib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının 16-cı Zirvə toplantısında iştirak etmək üçün noyabrın 8-də Özbəkistana səfərə gəlib.**

Daşkənd Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidentini Özbəkistanın Baş naziri Abdulla Aripov və digər rəsmi şəxslər qarşıladılar.

***AZƏRTAC***

# Birinci vitse-prezident Zəfər Günü ilə bağlı paylaşım edib



**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram hesabında Zəfər Günü ilə bağlı paylaşım edib.**

Paylaşımda deyilir: "Milli qürurumuzun təntənəsinə çevrilən Zəfər Günü münasibətilə hər kəsi təbrik edirəm! Allah bütün şəhidlərimizə rəhmət eləsin! Uca Tanrı xalqımızı və Vətənimizi qorusun!"

# Türkiyə Prezidentinin Zəfər Günü ilə bağlı paylaşımı




**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan 8 Noyabr – Zəfər Günü münasibətilə sosial şəbəkədə paylaşım edib.**

**Türkiyə Prezidenti yazıb:** "Qardaş Azərbaycanın 8 Noyabr – Zəfər Gününü ürəkdən təbrik edir, Qarabağın azadlığı uğrunda 44 gün boyunca qəhrəmancasına döyüşmüş qazilərimizi hörmətlə, şəhidlərimizi ehtiramla yad edirəm. Qarabağ Azərbaycan torpağıdır və inşallah, qiyamətə qədər də belə qalacaq".

# Şuşada möhtəşəm atəşfəşanlıq




8 Noyabr – Zəfər Günü münasibətilə Şuşa şəhərində möhtəşəm atəşfəşanlıq olub. Bayram atəşfəşanlığı Qarabağın, qədim Şuşanın səmasını al-əlvan rənglərə boyayıb.

# "Demokratiya" maskasının arxasından boy verənlər



## "Səlibçilər"in ikili standartlara, dini, irqi ayrı-seçkiliyə söykənən maraqları

(əvvəli 1-ci səhifədə)

Sözdə ermənipərəst, əməldə isə "eqoperəst" olan həmin Qərb–ABŞ dueti Rusiyanı Cənubi Qafqazdan çıxarmaqdan ötrü çeşidli üsul və taktikalardan yararlanmaqdadır. Bu duetin siyasi arsenalındakı "sınaqdan çıxmış" üsullardan biri də "demokratiya" və "insan hüquqları" kimi bəşəri dəyərlərin üçüncü dünya ölkələrinə "ixracıdır". Ən yüksək tribunalarda sülh, demokratiya və insan hüquqlarından danışan həmin Qərb Fransanın timsalında başqa etnik və dini qruplara qərəzli yanaşmanın, onlara qarşı assimilyasiya siyasətinin "nümunəsini" göstərir. Bu siyasət özünü xristian olmayan dini qruplara, xüsusilə, müsəlmanlara qarşı diskriminasiyada təzahür etdirir.

**XATIRLATMA:** 2018-ci ildə Fransanın cənubundakı Boker (Beaucaire) bölgəsinin bələdiyyəsi məktəblərdə müsəlman və yəhudilər üçün nəzərdə tutulan menyuları ləğv etdi. 2022-ci ildə seçki kampaniyasında prezidentliyə namizədlərdən biri, ultrasağçı Marin Le Pen müsəlman qadınların hicab geyinmələrini qadağan edəcəyini dedi. Seçki kampaniyasını "gəlmələrə" və "qeyri-xristianlara nifrət üzərində quran Le Penin 17 faizə yaxın səs toplaması bu ölkədə ksenofob və islamofob ideyaların sürətlə yayılmasının təzahürü idi.

Görün fələyin təkəri tərsinə necə fırlanır ki, dünyanın supergüclü ölkələri "demokratik" və "qeyri-demokratik" düşərgələrə bölməyi özünə rəva bilir. 2021-ci ilin dekabrında ABŞ Prezidenti Co Baydenin təşəbbüsü ilə "Demokratiya zirvəsi" keçirildi. Həmin "zirvə" ətrafında gedən müzakirə və diskussiyalar isə özünün epogeyinə çatmışdı. Bu zaman əsas vurğu ənənəvi sammitin məqsədlərindən daha çox dəvət olunan iştirakçılar seçilərkən tətbiq olunan meyarların üzərinə yönəldilmişdi. Həqiqətən də, adından göründüyü kimi, məramı dünyada demokratik prinsiplərin tənzimləyicisi kimi göstərilən zirvənin daha çox korporativ maraqlara xidmət etdiyi göz qabağında idi. Vaşinqton özünün "özəl zonası"nda məhz ona xidmət göstərəcək potensial namizədləri görməyə vərdiş edib. Oxucuların diqqətinə "Demokratiya zirvəsi"nə dəvətlilərin, daha doğrusu, ABŞ-ın daxili "zonasına" düşmüş ölkələrin siyahısını çatdıraq: Anqola, Botsvana, Namibiya, Zambiya, Fici, Marşal adaları, Vanuatu, Kipr, Moldova, İraq, Nepal, Barbados, Panama, Surinam və …Ermənistan. Yəqin ki, sadaladığımız ölkələrdən hansısa biri "demokratiya adası" sayıla bilməz. Əksinə, bunlardan bəzilərinin demokratiya anlayışına ləkə gətirdiyini demək mümkündür. Yadfikirliyə dözümsüzlüyün, siyasi təqib və həbslərin baş alıb getdiyi Ermənistanın "demokratların" siyahısında yer alması isə ABŞ kimi dövlətdən ötrü ideoloji fiaskodur. Bəli, burada məlum koalisiyanın ikili standartlardan çıxış etməsi, Ermənistan kimi marginal "demokratik ölkələrdə" etnik və dini zəmində baş verən münaqişələri görməməsi göz qabağındadır. "ABŞ demokratiyası"nın astar üzü bundan ibarətdir. Qaradərili vətəndaşların küçədə polis tərəfindən sorğu-sualsız güllələndiyi ABŞ özəl maraqları naminə Avropada, Asiyada, Afrikada ölkələri alətə çevirmək niyyətini gizlətmir. Aydın məsələdir ki, müstəqil xarici siyasət yürütmək, təhdid və təzyiqlərə qarşı dik durmaq, səhnə arxasında qurulan məxfi birlik və alyanslara qoşulmamaq beynəlxalq miqyasda müsbət sayılsa da, bir çox hallarda Vaşinqtonun planları ilə ziddiyyət təşkil edir. Bu mənada dünyanın supergücü üçün demokratiya, insan hüquqları öz hegemonluğunu ayaqda saxlamaq strategiyasının tərkib hissələridir. Ağ evin əlində bayraq etdiyi bu prinsiplərin zorən "ixracının" nümunəsini və fəsadlarını Əfqanıstan, İraq, Suriya və ümumilikdə, "ərəb baharı"nı yaşamış ölkələrin acınacaqlı taleyində, eləcə də Ukraynada, Qəzzada gördük. Bəs bu "ixracın" bəhrəsi nə oldu? – Xaos və milyonlarla insanın faciəsi!

***

İndi həmin Birləşmiş Ştatlar, yaxud "köhnə qitə" tolerantlığın, multikultural dəyərlərin milli doktrinaya çevrildiyi, çoxsaylı dini konfessiyaların yanaşı və mehriban şəkildə fəaliyyət göstərdiyi Azərbaycana "demokratiya dərsi"mi keçəcək? Bəlkə, Ağ evi əvvəlcə forpostları hesab etdiyi Avropa İttifaqına üzv dövlətlərin dini-mənəvi durumuna bir nəzər yetirsin? O zaman Vaşinqton istəblişmentinə aydın olar ki, hazırda Fransa əhalisinin 10 faizə qədərinin müsəlman olmasına baxmayaraq, hələ də onlar diskriminasiyaya məruz qalırlar. Parisdə fəaliyyət göstərən İslamofobiya üzrə Milli Müşahidə Təşkilatının sədri Abdullah Zəkrinin verdiyi məlumata əsasən, 2022-ci ildə sözügedən ölkədə islamofob hücumların sayı 53 faiz artıb. Və təəssüf ki, belə halların sayı ildən-ilə artır. Makron hakimiyyəti isə bu cür neqativ, dövlət və millət adına üzqarası sayılan hallarla mübarizə aparmaq əvəzinə, islamofobiyanı daha da artırmağa yönəlik addımlar atmağa meyillidir. 2020-ci ildə prezident Emmanuel Makronun "İslam bütün dünyada böhran dövrünü yaşayan bir dindir" sözləri bütövlükdə hökumətin İslama və müsəlmanlara qarşı sərgilədiyi həqiqi münasibətinin əyani sübutudur.

Onu da qeyd edək ki, son illər Makron hökumətinin maliyyə dəstəyi verdiyi "Fransa İslamı" layihəsi də müsəlmanların assimilyasiyasına hesablanıb. 2023-cü ilin yazında və yayında Fransanın böyük şəhərlərini etiraz dalğası bürüyəndə bu kütləvi izdihamın arxasında Makron diktaturasının Afrika xalqlarına qarşı istismarçı siyasətin nəticələrinin dayandığını yazmışdıq. Məhz Emmanuel Makron hakimiyyətə gələndən sonra özünə yaxın çevrənin – biznes dairələrinin maraqlarının təmin etmək üçün Afrika ölkələrindən ucuz işçi qüvvəsinin gətirilməsini təşviq etdi. Məqsəd iri sənaye müəssisələrində qaradərililəri işlədərək, şirkətlərin xərcini azaltmaq idi. Nəticədə, yüksək maaş almağa öyrəncəli yerli əhali ilə miqrantlar arasında düşmənçilik münasibəti yarandı. Bu zəmində baş verən küçə toqquşmaları zamanı Fransa polisi miqrantları insan yerinə belə qoymur, onlara odlu silahdan atəş açırdı. Onda bəzi ekspertlər keçən əsrdə Afrikada törədilmiş irqi soyqırımların hazırda müasir Fransa ərazisində təkrarlandığını deyirdilər. Bütün bunları nəzərə alaraq, hesab etmək olar ki, Makron diktaturası yalnız Fransada deyil, ümumiyyətlə, Avropa Birliyi məkanında demokratiya və insan haqları anlayışını sıradan çıxartmağa başlayıb. Hər şeydən göründüyü kimi, rəsmi Parisə indən belə demokratiya və insan hüquqları gərək deyil. Qərb institutları nə qədər cəhd etsələr də, ikili standartlardan çıxış etdiklərini heç cür gizlədə bilmirlər. Onların özəl maraqlarını təmin etməkdən ötrü rahat şəkildə rüşvətə bulaşdıqlarını söyləyənlər getdikcə artmaqdadır. Məgər həmin konqresmenlər, senatorlar erməni lobbisinin pulunun cazibəsi qarşısında sınmırlarmı? XXI əsrin dünyası ikiüzlü, riyakar demokratiya çarçıları ilə üz-üzə qalıb. Yuxarıda dediyimiz kimi, demokratiya, insan hüquqları barədə siyasi mühazirələr və tövsiyələr ABŞ–Qərb alyansından ötrü özünün çirkin siyasətini gizlətdirmək üsuludur. Amma həmin Qərbin, əslində, demokratiya pərdəsi altında yütürməyə çalışdığı siyasətin kökündə həm də xristian təəssübkeşliyinin dayandığını diplomatiyadan başı çıxmayanlar da anlayırlar.

*İmran BƏDİRXANLI*
*XQ*

# Naxçıvanda "Tarix yazan qəhrəmanlar"a ehtiram



**Noyabrın 8-də, Zəfər Günündə Babək rayonunda şəhidlər abidə-memorial kompleksinin açılışı olub.**

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, dövlət və hökumət nümayəndələri, rayon ictimaiyyətinin, şəhid ailələri və qazilər əvvəlcə kompleksin ərazisindəki "Tarix yazan qəhrəmanlar" guşəsi ilə tanış olublar.

Mərasimdə çıxış edən nümayəndə Fuad Nəcəfli 8 noyabrı müasir Azərbaycan tarixinə qızıl hərflərlə yazılmış şanlı Zəfər günü kimi dəyərləndirib. O vurğulayıb ki, Heydər Əliyev yolunun layiqli davamçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev Ulu öndər Heydər Əliyevin yaratdığı əsaslar üzərində Xalq–Ordu–Lider birliyini dəmir yumruğa çevirərək Qarabağı düşmən tapdağından xilas etdi, xalqımıza böyük Zəfər qazandırdı.

Fuad Nəcəfli muxtar respublika əhalisini Zəfər Günü münasibətilə təbrik edib, şəhidlərə Allahdan rəhmət, qazilərə cansağlığı arzulayıb. Sonra o, şəhid ailələri və qazilərlə görüşüb, onlarla səmimi söhbət edib, qayğı və ehtiyacları ilə maraqlanıb.

*S.HƏSƏNOV*
*XQ*

# Zakir Həsənov şəxsi heyəti təbrik edib

**Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, bu fikirlər müdafiə naziri general-polkovnik Zakir Həsənovun 8 Noyabr – Zəfər Günü münasibətilə Azərbaycan Ordusunun şəxsi heyətinə təbrikində yer alıb.**

**Təbrikdə deyilir:**

"Cənab zabitlər, yoldaş gizirlər, miçmanlar, kursantlar, çavuşlar, əsgərlər, matroslar və mülki işçilər!

Sizi hərb tariximizin ən şanlı səhifəsi sayılan 8 Noyabr – Zəfər Günü münasibətilə səmimi-qəlbdən təbrik edir, Azərbaycanın müdafiə qüdrətinin daha da artırılması naminə müqəddəs və şərəfli xidmətinizdə hər birinizə uğurlar arzulayıram.

Ölkəmizin suverenliyinin, müstəqilliyinin, müdafiə və təhlükəsizliyinin təminatçısı olan Azərbaycan Ordusunda vahid komandanlığın yaradılması, ordumuzun nizami ordu kimi formalaşması və hərbi quruculuq məsələlərinin prioritet məsələ kimi önə çəkilməsi xalqımızın Ümummilli lideri Heydər Əliyevin bu istiqamətdə atdığı cəsarətli addımlarının nəticəsidir.

Respublikamızın müdafiə qüdrətinin artması istiqamətində qazanılan böyük nailiyyətlər, eyni zamanda, orduda aparılan genişmiqyaslı islahatlar, keçirilən təlimlər, düşmənin təxribatlarına qarşı aparılan uğurlu irimiqyaslı əks-hücum əməliyyatları şəxsi heyətin qələbə əzmini daha da möhkəmləndirərək 2020-ci il Azərbaycan Ordusunun tarixinə Zəfər ili kimi daxil edildi.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında Ermənistan silahlı birləşmələrinin təxribatlarına qarşı başlayan əks-hücum əməliyyatlarında – 44 günlük Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusu 30 ilə yaxın müddətdə düşmən işğalında qalmış tarixi torpaqlarımızı azad etdi. Ali Baş Komandanın müdrik və uzaqgörən siyasəti, Ordumuzun gücü sayəsində Azərbaycanın ərazi bütövlüyü bərpa olundu.

Ötən il 12–14 sentyabr tarixlərində Ermənistan silahlı birləşmələrinin yenidən sərhəddə törətdiyi genişmiqyaslı təxribatlarının qarşısı Azərbaycan Ordusunun həyata keçirdiyi qətiyyətli cavab tədbirləri ilə alındı. Qarabağ bölgəsində qanunsuz yerləşdirilmiş Ermənistan silahlı qüvvələrinin birləşmələrinə və qeyri-qanuni erməni silahlı dəstələrinə qarşı bu il sentyabrın 19–20-də Azərbaycan Ordusunun keçirdiyi lokal xarakterli antiterror tədbirləri uğurla nəticələndi. Respublikamızın ərazi bütövlüyünə və suveren hüquqlarına qarşı təhdid yaradan separatçı qüvvələrin silahlı birləşmələri Ordumuzun bölmələri tərəfindən məhv edildi.

Bir daha 8 Noyabr – Zəfər Günü münasibətilə hər birinizi ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti, Vətənə, müstəqil Azərbaycan dövlətinə şərəfli xidmətinizdə uğurlar arzulayıram".

Replika

# "Qriqoryanlıq", yaxud erməni siyasi təfəkküründəki növbəti anti-Rusiya təzahürü



(əvvəli 1-ci səhifədə)

Yada salaq ki, bir müddət əvvəl Ermənistanın baş naziri Nikol Paşinyan da Bişkekə MDB Dövlət Başçıları Şurasının iclasından iştirakdan boyun qaçırmışdı. Ondan əvvəl isə ölkənin xarici işlər naziri Ararat Mirzoyan da azərbaycanlı həmkarı Ceyhun Bayramovla Moskva görüşündən imtina etmişdi. Hələ Ermənistanın Rusiyanın hakim rol oynadığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının İrəvanda nəzərdə tutulan təlimini keçirməkdən imtinası da var. Bir sözlə, Ermənistan Rusiya ilə bağlı məsələlərdə imtinanı imtinaya calamaqdadır.

Bəs, səbəb nədir? Çox düşünməyə ehtiyac yoxdur. Üzünü tamamilə Qərbə çevirmiş İrəvan ABŞ-dan və Avropadan gələn direktivlərlə hərəkət edir. Görünür, əmr Rusiya ilə heç bir kontakta girməmək şəklində verilib.

Digər tərəfdən, əslində, Ermənistan rəhbərliyinin davranışları Rusiyanın nüfuzuna zərbə vurmaq cəhdi kimi də qiymətləndirilməkdədir. İstər Qriqoryan, istər Paşinyan, istərsə də digər erməni rəsmiləri hər imkandaca Moskvanın lazımsızlığına və əhəmiyyətsizliyinə eyham vururlar. Artıq buna eyham da demək olmur. Çünki ortada açıq ittihamlar var. Bu yerdə Ermənistan parlamentinin spikeri Alen Simonyanın "Rusiya üçtərəfli bəyanatla Qarabağı Azərbaycana verdi" deməsini xatırlayaq. Oxşar və siyasi etikadan tam kənar ifadələr kifayət qədər çox olduğundan, onların hamısına yer vermək niyyətində deyilik.

Amma üzərində dayanmaq istədiyimiz bir məqam var. Sual yaranır: Olmazmı ki, Ermənistan rusmeyilli saydığı bütün platformalardan çəkildiyini açıq şəkildə bəyan etsin? Deyəsən, olmur. Nikolun komandası bunu dilə gətirəcək cəsarətdə deyil. Necə də olsun? Bu komandanın işi-peşəsi yarımçıq diplomatiya ilə məşğul olmaqdır. Nə qətiyyətləri var, nə prinsipləri. Bacardıqları, belə demək mümkünsə, məkrli davranışdır. Əslində, Qriqoryanın Moskvaya getmək istəməməsi məkrin nəticəsidir.

Bəli, Ermənistan hakimiyyəti böyük və təhlükəli oyunun içərisindədir. Bu oyunda Rusiyaya qarşı çıxmaqla yanaşı, Azərbaycana münasibətdə avantürist mövqe tutmaq meyli də əsasdır. Qriqoryan və digər erməni rəsmilərinin məqsədi Qərbin nəzərində Rusiyanı Azərbaycanla müttəfiq kimi göstərib Qarabağ ambisiyasında xal qazanmaqdır. Bu başıpozuqlar üçün müstəqillik, dövlətlərin öz maraqları naminə normal əməkdaşlıq məsələləri yaddır. Belələri yalnız kiminsə yedəyində gedirlər. Mütləq hansısa dövlətin himayəsində olmağa üstünlük verirlər. Mövcud anlamda Paşinyan administrasiyasını özündən əvvəlki Koçaryan–Sarkisyan xuntasından heç nə fərqləndirmir. Hər ikisi boyunduruq altında idi. İkincilər ölkəni Rusiyanın marionetinə çevirmişdilərsə, birincilər Qərbin əmrinə müntəzirdilər.

*Ə.RÜSTƏMOV*
*XQ*

# DTX-nin Laçın Rayon Şöbəsi yeni binada

**8 Noyabr – Zəfər Günündə Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Laçın Rayon Şöbəsinin inzibati binası istifadəyə verilib.**



Bu barədə DTX-nin mətbuat xidmətindən məlumat verilib.

Mərasimdə Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov, DTX-nin rəhbər əməkdaşları, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri iştirak ediblər.

Əvvəlcə iştirakçılar binanın foyesində Ulu öndər Heydər Əliyev və Azərbaycan Prezidenti İlham Əliyevin siyasi fəaliyyətlərinin müxtəlif dövrlərini özündə əks etdirən fotostendə baxıblar. Daha sonra müasir standartlara uyğun şəkildə yenidən rekonstruksiya edilmiş binada əməkdaşların öz xidmətlərini səmərəli təşkil etmələri və əməliyyat imkanlarını daima genişləndirə bilmələri üçün yaradılan hərtərəfli şəraitlə yaxından tanış olublar.

Belə bir inzibati binanın istifadəyə verilməsinin Müzəffər Ali Baş Komandan İlham Əliyevin təhlükəsizlik orqanlarına göstərdiyi diqqət və qayğının növbəti təzahürü olduğu vurğulanıb, Xidmətin şəxsi heyəti adından dövlətimizin başçısına minnətdarlıq ifadə edilib.

*XQ*

# Hərbi qulluqçular mükafatlandırılıb

**Müdafiə naziri, general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən, 8 Noyabr – Zəfər Gününün üçüncü ildönümü ilə əlaqədar Azərbaycan Ordusunun qoşun növləri, Əlahiddə Ümumqoşun Ordu, hərbi birlik və birləşmə, eləcə də xüsusi təyinatlı təhsil müəssisələrində şəxsi heyətə vətənpərvərlik nümunələrinin təbliği, onların mənəvi-psixoloji və döyüş ruhunun daha da yüksəldilməsi məqsədilə silsilə tədbirlər keçirilib.**

Tədbirlər çərçivəsində ictimai-siyasi hazırlıq dərsləri, dəyirmi masalar, konfranslar təşkil olunub, Vətən müharibəsinə həsr olunan sənədli filmlər və videoçarxlar nümayiş etdirilib, viktorinalar, mədəni-kütləvi, vətənpərvərlik tədbirləri və idman yarışları keçirilib.

Həmçinin hərbi qulluqçularımız müxtəlif bölgələrdə şəhidlərimizin xatirəsinə ağaclar əkib, abadlıq işləri aparıblar.

Sonda xidmətdə fərqlənən, yüksək nizam-intizamı ilə seçilən hərbi qulluqçular fəxri fərman və qiymətli hədiyyələrlə mükafatlandırılıb.



*XQ*

# Azərbaycanın Qarabağ Zəfəri dünyanı dolaşır

**Düz üç il əvvəl Ali Baş Komandan İlham Əliyevin müdrik liderliyi ilə Azərbaycan xalqı Qarabağı erməni işğalçılarından azad edərək şanlı qələbə qazanmışdır. Bu tarixi hadisə hazırda dünyanın harasında yaşamalarından asılı olmayaraq, bütün soydaşlarımızda böyük ruh yüksəkliyi və coşqu yaratmışdır. Bu günlərdə planetin, demək olar ki, əksər ölkələrində xalqımızın Zəfər bayramı təntənəli şəkildə qeyd olunur. Bu tədbirlər barədə topladığımız bəzi məlumatları oxucuların diqqətinə çatdırırıq.**



## Ukrayna

**Kiyevdəki Səməd Vurğun adına kitabxanada Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinin və görkəmli şuşalıların Ukrayna-Azərbaycan münasibətlərinin inkişafında roluna həsr olunmuş tədbir keçirilib.**

Azərbaycanın Ukraynadakı fövqəladə və səlahiyyətli səfiri Seymur Mərdəliyev Şuşanın Azərbaycan xalqı üçün əhəmiyyətindən, bu şəhərin qədim tarixindən, həmçinin onun şöhrətinin mənbəyi olan mədəniyyətindən ətraflı bəhs edib.

## Belarus

**8 Noyabr Zəfər Günü münasibətilə Minsk şəhərində rəsmi qəbul təşkil edilib.**

Səfir Ülvi Baxşəliyev çıxış edərək Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin 44 günlük Vətən müharibəsində əldə etdiyi Qələbənin tariximizə qızıl hərflərlə yazıldığını və hər il 8 noyabr tarixinin ölkəmizdə Zəfər Günü kimi qeyd olunduğunu bildirib. Üç il əvvəl Azərbaycanın BMT Nizamnaməsi iləhər bir ölkəyə verilən hüquqdan – özünümüdafiə hüququndan istifadə edərək 30 ilə yaxın pozulmuş ərazi bütövlüyünü, cəmi iki ay bundan əvvəl isə ölkənin bütün ərazisi üzərində suverenliyini tamamilə bərpa etdiyini tədbir iştirakçılarının diqqətinə çatdırıb.



## Türkiyə

**İstanbul Türkiyə–Azərbaycan Dərnəyinin (İSTAD) sədri Səfər Qaraqoyunlu Qarabağ Zəfərinin üçüncü ildönümü münasibətilə Azərbaycan xalqı, dövləti və Ordusunu təbrik edərək bildirib:**

"Bu şanlı Qələbə Azərbaycanla yanaşı, Türkiyə və bütün Türk dünyası üçün böyük əhəmiyyət kəsb edən tarixi hadisədir. Gələcək əməkdaşlıqlara və həmrəyliyə təkan verən, Şuşa Bəyannaməsi ilə taclandırılan bu Zəfər bütün Türk dünyası üçün böyük nailiyyətdir. Bundan sonra gələcəyə istiqamət verməklə sabitliyin və sülhün təmin edilməsi region üçün qaçılmaz reallıqdır. Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan Vətən müharibəsində qəhrəmanlıq göstərərək şəhid olan qardaşlarımızı rəhmətlə yad edir, qazilərimizə sağlam gələcək həyat arzulayıram. Zəfərin mübarək can Azərbaycan".

## Özbəkistan

**Azərbaycanın Özbəkistandakı səfirliyi və Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi (AMM) "Wyndham Tashkent" otelində xalqımızın Zəfər Günü ilə bağlı tədbir keçirib.**

Azərbaycanın və Özbəkistanın Dövlət himnləri səsləndikdən sonra ölkəmizin Özbəkistandakı səfiri Hüseyn Quliyev Azərbaycanın 44 günlük Vətən müharibəsi və Zəfər Günü haqqında məlumat verib, bu qələbə nəticəsində torpaqlarımızın Ermənistan işğalından azad edilməsi, ərazi bütövlüyümüzün bərpa olunmasından danışıb.

## Gürcüstan




**Azərbaycanın Gürcüstandakı səfirliyinin təşkilatçılığı ilə Tbilisidə Zəfər Günü münasibətilə məlumatlandırma aksiyası keçirilib.**

Səhər saatlarından başlayan aksiya çərçivəsində üzərində "Xarıbülbül"ün, Şuşanın, Xənkəndinin fotoları, eləcə də, 8 Noyabr, Zəfər Günü, Şuşada atəşfəşanlığı əks etdirən LED ekranlı yük avtomobili Azadlıq Meydanından hərəkətə başlayıb. Avtomobil paytaxt Tbilisinin mərkəzi küçə və prospektlərindən keçib.

Azərbaycanın Qələbə Gününü özündə əks etdirən aksiya paytaxt sakinləri və şəhərin qonaqları tərəfindən maraqla qarşılanıb.

***

Gürcüstan Azərbaycanlıları Konqresinin 8 Noyabr Zəfər Günü münasibətilə dünya azərbaycanlılarına təbrikində xalqımız üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Qarabağın tacı olan Şuşa şəhərinin uzun həsrətdən sonra 2020-ci il noyabrın 8-də işğaldan azad edildiyi bildirilib.

## Misir

**Azərbaycan Respublikasının Misir Ərəb Respublikasındakı səfirliyində 8 Noyabr Zəfər Günü və 9 Noyabr – Dövlət Bayrağı Günü münasibətilə tədbir keçirilib.**

Azərbaycanın Misirdəki səfiri Elxan Poluxov Azərbaycanın 2020-ci il sentyabrın 27-də Ermənistanın hərbi təxribatlarına cavab olaraq əks hücuma keçdiyini, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuzun 44 günlük Vətən müharibəsində torpaqlarımızı işğaldan azad etdiyini söyləyib, nəticədə imzalanmış üçtərəfli Bəyanatla işğalçı dövlətin kapitulyasiya aktına imza atdığını vurğulayıb.

## İordaniya

**8 Noyabr Zəfər Günü ilə əlaqədar olaraq Azərbaycan Respublikasının İordaniya Haşimilər Krallığındakı səfirliyinin binasında yerli ictimaiyyət nümayəndələri, iş adamları, eləcə də İordaniyadakı Azərbaycan icmasının üzvlərinin iştirakı ilə tədbir keçirilib.**

Tədbiri giriş sözü ilə açan ölkəmizin İordaniya Haşimilər Krallığındakı səfiri Eldar Səlimov 8 Noyabr – Zəfər Gününün Azərbaycanın tarixindəki müstəsna əhəmiyyətindən söz açaraq, bu Zəfər Gününə aparan məşəqqətli siyasi və diplomatik yollar haqqında, tarixi Qələbənin xalqımızın milli qürur bayramı, dövlətimizin qüdrətinin təntənəsi olduğunu deyib.

## Rusiya




**Azərbaycanın Moskvadakı səfirliyində Qarabağda böyük Qələbənin üçüncü ildönümü – Zəfər Günü münasibətilə bayram tədbiri keçirilib.**

Səfir Polad Bülbüloğlu bildirib ki, 8 Noyabr – Zəfər Günü tarixi ədalətin bərqərar olmasının, beynəlxalq hüququn təntənəsinin və Azərbaycanın ərazi bütövlüyünün bərpasının rəmzidir. Bu gün ölkəmizin mədəni paytaxtı Şuşa azad edilib. Səfir bu şanlı qələbənin xalqımızın birliyi və mübariz ruh yüksəkliyinin, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli ordumuzun məharətinin nəticəsi olduğunu söyləyib, Qələbə naminə canlarından keçmiş Azərbaycanın cəsarətli oğul və qızlarının əziz xatirəsinin daim qəlbimizdə yaşayacağını bildirib.

***

Azərbaycanın Sankt-Peterburqdakı Baş konsulluğunun və Azərbaycan Milli-Mədəni Muxtariyyətinin təşkilatçılığı ilə 8 Noyabr Zəfər Gününə həsr olunmuş tədbir keçirilib.

Diaspor sədri Vaqif Məmişev və baş konsul Sultan Qasımov 44 günlük Vətən müharibəsi nəticəsində xalqımızın qazandığı Qələbənin tarixi hadisə olduğunu vurğulayıblar. Diqqətə çatdırılıb ki, Zəfər Günü Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi düşünülmüş xarici və daxili siyasətin, ərazi bütövlüyümüzün bərpası məsələsində nümayiş etdirdiyi qətiyyətli mövqeyinin, xalqımızın və ordumuzun mübarizəsinin bəhrəsidir.

## Moldova

**Ölkəmizin Moldovadakı səfirliyinin önündəki "Qələbə" bağçasında Azərbaycanın Zəfər Günü qeyd edilib. "Qələbə" bağçasında XVIII əsrin məşhur Azərbaycan şairi və ictimai xadim, Qarabağ xanının veziri Molla Pənah Vaqifin barelyefinin açılışı olub.**

Səfir Qüdsi Osmanov əvvəlcə xalqımıza bu Qələbəni bəxş edən, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi yolunda canlarından keçən şəhidlərimizin əziz xatirəsini yad edib. Səfir bu gün Xankəndidə keçirilən hərbi paradı qeyd edərək, xalqımızın qürur mənbəyi olan Qələbəni tarixi ədalətin bərpası və beynəlxalq hüququn təntənəsi adlandırıb. Diplomat Ermənistanın ölkəmizə qarşı destruktiv və işğalçılıq siyasətinə baxmayaraq, Azərbaycanın sülh gündəliyinə sadiq olduğunu bildirib.

## Fransa

**Fransanın Strasburq şəhərində 8 Noyabr Zəfər Günü təntənə ilə qeyd olunub.**

Azərbaycanın Avropa Şurası yanında daimi nümayəndəliyinin Zəfər Günü münasibətilə təşkil etdiyi tədbirdə şəhərin azərbaycanlı icmasının üzvləri və ölkəmizin dostları iştirak ediblər.

Milli Məclisin deputatı və ölkəmizin Avropa Şurası Parlament Assambleyasında nümayəndə heyətinin rəhbərinin müavini Kamal Cəfərov iştirakçılara Zəfər Günü və Ulu öndər Heydər Əliyevin 100 illiyi münasibətilə təbriklərini çatdırıb.

## Niderland

**Niderland Krallığında fəaliyyət göstərən Benilüks Azərbaycanlıları Konqresinin və Qarabağ İdman Klubunun qərargahında Zəfər Bayramı qeyd edilib.**

Benilüks Azərbaycanlıları Konqresinin sədri Elsevər Məmmədov Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Ordumuzun rəşadətindən, xalqımızın Vətən müharibəsi günlərdə nümayiş etdirdiyi şücaət və birlikdən, Qarabağa qovuşmaqdan, İrəvana Qayıdış Konsepsiyasından söz açıb. O, bu istiqamətdə qarşıda duran məqsədlərdən, dinc yolla Qərbi Azərbaycana qayıdış perspektivindən danışıb.



Tədbir iştirakçıları vətənimizi və ölkədən kənarda yaşayan soydaşlarımızı 8 Noyabr- Zəfər Günü münasibətilə təbrik ediblər.

***Materialları təqdim etdilər:***
***Tahir AYDINOĞLU,***
***Məsaim HACIXANLI,***
***Qulu KƏNGƏRLİ***
***XQ***



# Bakıda hərbçilərin Zəfər yürüşləri

**Paytaxtın müxtəlif küçə və prospektlərində hərbi orkestrlərin müşayiəti ilə noyabrın 8-də hərbçilərin yürüşləri olub.**

Hərbi orkestrlərin müşayiəti ilə dörd marşrut üzrə - Heydər Əliyev Sarayı, Bülbül prospekti, Nizami Kino Mərkəzi, Neftçilər prospekti, Azadlıq meydanı, "AMAY" Ticarət Mərkəzi, Şəhidlər xiyabanı, "Alov Qüllələri" Kompleksi, "İçərişəhər" metrosu, İstiqlaliyyət küçəsi, Azneft dairəsi, Bəhram Gur heykəli, Q.Musabəyov parkı, Əbdürrəhim Bəy Haqverdiyev küçəsi, Hüseyn Cavid prospekti, Hüseyn Cavid parkı, Parlament prospekti, "Olimpik Star" İdman və Əyləncə Mərkəzi, Səməd Vurğun küçəsi, Zabitlər parkı, Bakı Dövlət Sirki, Heydər Əliyev Sarayı, İmadəddin Nəsimi heykəli, Neftçilər prospekti istiqamətləri üzrə hərbçilərin yürüşləri təşkil olunub. Orkestrlər hərbi vətənpərvərlik mahnıları, marşlar səsləndiriblər.



Hərbi orkestrlərin nümunəvi çıxışları şəhər sakinlərində və qonaqlarda yüksək əhvali-ruhiyyə yaradıb.

Yürüşlər saat 12:00-dək davam edib.

Qeyd edək ki, həmçinin Gəncə, Bərdə, Füzuli, Laçın şəhərlərində və Zəngilan rayonunda müəyyənləşdirilən marşrutlar üzrə hərbi orkestrlərin müşayiəti ilə hərbi qulluqçuların yürüşləri keçirilib.

**XQ**



# Nur şəhərinin bayram ovqatı

**Ulu öndərin anadan olmasının 100 illiyi münasibətilə Mingəçevir Şəhər İcra Hakimiyyətinin tədbirlər planına müvafiq olaraq şəhərdəki Heydər Əliyev Mərkəzində "Tarixi zəfərimiz Heydər Əliyev siyasətinin təntənəsidir" mövzusunda elmi-nəzəri konfrans keçirilib.**



Konfransın əvvəlində eyni adlı sənədli film nümayiş etdirilib. Sonra çıxış edən şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılov bildirib ki, Dağlıq Qarabağ münaqişəsi nəticəsində Azərbaycanın 20 faizə qədər ərazisini erməni qəsbkarları işğal etmişdi. 1993-cü ildə ölkə rəhbərliyinə qayıdan ümummilli lider ölkəmizin iqtisadiyyatının, ordumuzun güclənməsi üçün ciddi tədbirlər həyata keçirdi. 2003-cü ildə İlham Əliyevin hakimiyyətə gəlişindən sonra bu inkişaf davam etdirildi. Az müddətdə ordu quruculuğu sahəsində xeyli nailiyyət əldə edildi. Azərbaycan öz gücünə haqqı, ədaləti bərpa etdi. Artıq işğaldan azad olunmuş ərazilərdə geniş bərpa-quruculuq işləri görülür, şəhər və kəndlər məskunlaşdırılır. 3-cü ildir ki, ölkə rəhbərinin imzaladığı sərəncamla respublikamızda Dövlət Bayrağı Günü təntənə ilə qeyd olunur.

Konfransda Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının birinci prorektoru, fəlsəfə elmləri doktoru, professor Əlikram Abdullayev, Milli Məclisin deputatı Aydın Mirzəzadə, həmçinin Mingəçevir Dövlət Universitetinin müəllimləri – tarix üzrə fəlsəfə doktoru Nizami Zeynalov və filologiya üzrə fəlsəfə doktoru Ayna Babazadə məruzələrlə çıxış ediblər.

**İ.MUSAOĞLU**
**XQ**

# Böyük siyasətin Zəfər zirvəsi

**Azərbaycanın Vətən müharibəsindəki qələbəsi xalqımızın tarixinin ən parlaq səhifəsidir. Bu qələbə Ümummilli liderimiz Heydər Əliyevin təməlini qoyduğu və Prezident İlham Əliyevin şərəflə davam etdirdiyi böyük siyasətin məntiqi nəticəsidir.**




Azərbaycan 1991-ci ildə müstəqilliyini bərpa etsə də daxili və xarici təsirlər ölkənin inkişafına, müstəqil dövlətin beynəlxalq münasibətlər sisteminə daxil olmasına ciddi maneələr yaradırdı. Ölkədə xalqın maraqlarını ifadə edən, insanları ətrafında birləşdirən və gələcəyə inandıran mərkəzi hakimiyyət yox idi. Mövcud hakimiyyətlə xalq arasındakı uçurum gündən-günə dərinləşirdi.

Ermənistan və onun havadarları bundan hiyləgərliklə istifadə edir, əzəli torpaqlarımızın – Qarabağın və ətraf rayonların işğalını istədiyi kimi həyata keçirirdi. Təcavüzkar ölkə bir tərəfdən hər vəchlə Azərbaycanın güclənməsinə qarşı olan güc mərkəzlərinin və dövlətlərin hərtərəfli dəstəyini alır, digər tərəfdən isə erməni diasporasının geniş imkanlarından istifadə edirdi.

Bütün bunların fonunda ölkədə mərkəzi hakimiyyətin zəifliyi, silahlı qüvvələrin vahid komandanlıq altında olmaması, xarici izolyasiya, beynəlxalq tərəfdaşların və müttəfiqlərinin olmaması Azərbaycanın vəziyyətini daha da ağırlaşdırırdı. Bizim haqq işimizi isə yalnız qardaş Türkiyə dəstəkləyirdi. Amma Türkiyənin də həmin dövrlərdəki problemləri, xüsusilə PKK terror təşkilatı ilə apardığı mübarizə bu dəstəyin tam gücü ilə ifadəsinə mane olurdu. Buna baxmayaraq, Türkiyənin Azərbaycana verdiyi diplomatik dəstək, ən mühümü Ermənistanla sərhədlərini bağlaması düşmənə təsirli zərbə oldu.

Ermənistan xarici dəstək və cəzasızlıq mühitində getdikcə təcavüzkarlığı və əsassız iddialarını artırırdı. Belə bir şəraitdə Azərbaycanın güclü bir siyasi liderə, daha doğrusu, xilaskara ehtiyacı yaranmışdı. Bu xilaskarlıq missiyasını isə yalnız Ümummilli lider, Naxçıvanda müstəqil dövlətçiliyin özüllərini yaradan Heydər Əliyev həyata keçirə bilərdi.

1993-cü ilin iyununda ölkədə kəskin hərbi-siyasi böhran yaşananda xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə gələn dünya şöhrətli siyasətçi və dövlət xadimi Heydər Əliyev bütün potensialını ortaya qoyaraq ölkəni böhrandan çıxarmaq və tərəqqi yolu ilə irəli aparmaq üçün tarixi xilaskarlıq missiyasını gerçəkləşdirməyə başladı. Ulu öndər Heydər Əliyev zəngin təcrübəsindən və ilk növbədə, siyasi dühasından, Tanrının bəxş etdiyi fenomenal bacarıqlarından istifadə edərək Azərbaycanın dirçəlməsi, güclənməsi naminə strateji planlarını ustalıqla, məharətlə gerçəkləşdirməyə başladı.

Bu məqamda onu da vurğulamaq lazımdır ki, bütünlüklə müasir Azərbaycanın, eləcə də ordumuzun, elm və təhsilimizin, sənaye sahələrinin möhkəm təməlləri hələ sovet dövründə, məhz Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdu. Həmin dövrdə Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin açılması üçün respublika rəhbəri Heydər Əliyev gərgin mübarizə aparmış, bu ali məqsədinə özünün sarsılmaz iradəsi sayəsində nail ola bilmişdir. Məhz həmin məktəbin məzunları sonralar Azərbaycan Ordusunun zabit heyətinin əsasını təşkil etdilər, Birinci Qarabağ müharibəsində və tarixi Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsində döyüşçüləri qələbəyə aparmaqda həlledici rol oynadılar.

Hakimiyyətə qayıtdıqdan sonra vahid ordu quruculuğu siyasətini uğurla həyata keçirən Ümummilli lider müasir güclü və qalib Azərbaycan Ordusunun sarsılmaz təməllərini formalaşdırdı. Prezident Heydər Əliyevin inkişafımızın iqtisadi təminatı rolunu oynayan neft strategiyası isə Azərbaycan iqtisadiyyatının tərəqqisində bünövrə, məhək daşı oldu. İqtisadiyyatımızın güclənməsi, maliyyə imkanlarımızın artması hərbi mütəxəssislərimizin daha yaxşı təhsil almasına, ordumuzun maddi-texniki bazasının gücləndirilməsinə, silahlı qüvvələrin ən müasir silahlarla təmin olunmasına böyük imkanlar yaratdı. Məhz Ulu öndərin titanik səyləri nəticəsində silahlı qüvvələrimiz əks-hücum əməliyyatları ilə Ermənistan quldur birləşmələrini məğlubiyyətə uğratdı və qarşı tərəf atəşkəs sazişini imzalamağa məcbur edildi.

Xalqına və Azərbaycan Ordusuna güvənən dövlət başçısı Heydər Əliyev bütün çıxışlarında bildirirdi ki, biz nəyin bahasına olursa-olsun, öz tarixi torpaqlarımıza qayıdacağıq. Onun bu çıxışları xalqda gələcəyə böyük inam formalaşdırır, bütün çətinliklərə rəğmən tarixi qələbənin əvvəl-axır gerçəkləşəcəyinə möhkəm zəmin yaradırdı. Bu siyasəti peşəkarlıqla, inamla, səbir və təmkinlə davam və inkişaf etdirən Prezident, Ali Baş Komandan İlham Əliyev illərlə arzusunda olduğumuz tarixi qələbəyə imza atdı, Ulu öndərin Ata vəsiyyətini şərəflə yerinə yetirdi.

Prezident İlham Əliyevin ölkəmizin rifahı üçün neft-qaz amilindən istifadə etməsi, müdrik və gələcəyə hesablanan geosiyasi gedişləri, balanslı siyasət yürütməsi Azərbaycanın hərtərəfli qüdrətlənməsini şərtləndirdi. Azərbaycan əldə etdiyi gəlirlərlə ordusunu müasir silahlarla təmin etdi, eyni zamanda iqtisadiyyatın şaxələndirilməsi istiqamətində mühüm addımlar atdı. Bütün bunlar qələbəyə gedən yolumuzu günbəgün yaxınlaşdırdı.

Azərbaycanın düşmən üzərində tarixi qələbəsində, əlbəttə, qardaş Türkiyə ilə dostluq, qardaşlıq münasibətlərinin ən yüksək səviyyəyə çatdırılması, Prezident İlham Əliyevlə Prezident Rəcəb Tayyib Ərdoğanın səyləri ilə dövlətlərarası müttəfiqlik münasibətlərinin dayanmadan inkişaf etdirilməsi mühüm rol oynadı. Xüsusilə, Qarabağın xilası uğrunda Vətən müharibəsi günlərində qardaş Türkiyənin ölkəmizə verdiyi mənəvi-siyasi dəstəyi xalqımız hər zaman sonsuz ehtiramla, minnətdarlıqla xatırlayacaqdır.

Azərbaycan Ordusunun Türkiyə təcrübəsi əsasında müasir strandartlarla formalaşdırılması, zabitlərimizin Türkiyə hərbi məktəblərində təhsil alması silahlı qüvvələrimizə yeni anlayışlar, döyüş taktikası, innovativ yanaşmalar gətirdi. “Bayraktar” PUA-larının ordumuzun arsenalına daxil edilməsi silahlı qüvvələrimizin imkanlarını daha da gücləndirdi.

Vətən müharibəsi günlərində Prezident İlham Əliyevin Türkiyə mediası vasitəsi ilə dünyaya xitab etməsi isə informasiya blokadasının yarılmasında önəmli rol oynadı, Azərbaycanın haqq səsinin, ədalətli mövqeyinin yüksək səslə bəyan edilməsinə şərait yaratdı. Bu tarixi qələbəni qazanmaqla Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyev Ulu öndər Heydər Əliyevin layiqli siyasi varisi, müdrik rəhbərin təməllərini qoyduğu yolun şərəfli davamçısı olduğunu bir daha sübut etdi.

Müharibənin tarixi qələbə ilə və eyni zamanda, qısa müddətdə bitməsində Prezident İlham Əliyevin müdrikliyə, idraka, mərdlik və cəsarətə söykənən qərarları əsas rol oynadı. Burada region və dünya ölkələri ilə münasibətlərin düzgün idarə edilməsi də xüsusi vurğulanmalıdır. İstər region, istərsə də dünya ölkələrinin, bəzi beynəlxalq təşkilatların Azərbaycana təsir etmək cəhdləri ölkə rəhbəri İlham Əliyevin atdığı kompleks addımlarla məharətlə zərərsizləşdirildi. Azərbaycan sistemli bir fəaliyyətlə özünün haqq etdiyi tarixi qələbəsini gerçəkləşdirdi.

Müharibə zamanı ölkə daxilində informasiya siyasətinin düzgün qurulması da vacib amil kimi diqqətdə saxlanıldı. İnformasiya siyasəti elə peşəkarlıqla idarə edildi ki, insanlarımızın əhval-ruhiyyəsi, qələbə əzmi və ovqatı ən yüksək səviyyəyə çatdırıldı. Bu ovqatdan doğan sarsılmaz xalq–ordu birliyi ön xətdə əsgər və zabitlərimizin cəsurluğunu daha da artırdı.

Müharibə günlərində müzəffər Ali Baş Komandan, yenilməz sərkərdə İlham Əliyevin Azərbaycanın əsgər və zabitlərinin cəbhədəki uğurlarını daim vurğulaması, yaralılarla mütəmadi görüşləri silahlı qüvvələrimizin bütün şəxsi heyətini ruhlandırır, onları inamlı qələbəyə səsləyirdi. Şəhid ailələrinə ali hörmət, qazilərə sonsuz ehtiram ordumuzu daim irəli aparır, xalqın gücü ilə ordunun gücü arasında möcuzəvi bir harmoniya yaradırdı.

Belə bir şəraitdə hər gün cəbhədən xoş xəbərlər gəlir, bir-birinin ardınca yeni ərazilər azad edilir və bütün bunların fonunda Azərbaycanın hərbi qüdrəti ilə yanaşı siyasi mövqeyi də güclənir, bölgədə yalnız və yalnız qalib Azərbaycanın haqlı şərtləri və ədalətli mövqeyi diqtə olunurdu. Düşmən isə bütün bunlardan məyus olur, Ermənistan ordusunda özbaşınalıq, fərarilik idarəolunmaz həddə gəlib çıxırdı.

Azərbaycan Ordusunun sınanmış döyüş taktikası, şəxsi heyət arasındakı ruh yüksəkliyi və təchizat baxımından düşməndən dəfələrlə üstün olması tarixi qələbəni hər an yaxınlaşdırırdı. 2016-cı ilin Aprel döyüşləri, 2020-ci ilin İyul döyüşləri ordumuzda və xalqımızda qələbəyə sarsılmaz inam yaratmışdı. Bu inamla silahlanan xalqımız Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Qarabağımızı işğaldan azad etdi. Ermənistanın kapitulyasiya aktını imzalamaqdan başqa çarəsi qalmadı.

Müharibədən sonra ermənilərin öz mənfur niyyətlərini davam etdirməsi, sülh danışıqlarından məqsədli şəkildə yayınması, davamlı terror aktları həyata keçirməsi Azərbaycanın bu ilin sentyabr ayında suveren ərazilərimizdə antiterror tədbiləri keçirməsini qaçılmaz etdi. 24 saatdan da az çəkmiş peşəkar antiterror tədbirləri Qarabağda separatçıların son qalıqlarını məhv etdi. Azərbaycan Respublikasının Konstutusiya quruluşu və suveren hüquqlarımız bütün ərazilərimizdə bərpa olundu. Əli Azərbaycan xalqının qanına batmış müharibə cinayətkarları xüsusi xidmət orqanlarımızın əməkdaşları tərəfindən həbs olunaraq Azərbaycanın ədalət mühakiməsinə təslim edildi.

Bu il oktyabrın 15-də Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin Xankəndidə, Xocalıda, Ağdərədə, Xocavənddə, Əsgəranda, Sərsəng su anbarının ərazisində Azərbaycanın Dövlət Bayrağını ucaltması tarixi Qələbəmizin, Zəfərimizin zirvə nöqtəsi oldu.

Artıq Azərbaycanın həyatında yeni bir geosiyasi və eyni zamanda mühüm tarixi bir mərhələ başlamışdır. Bu, Şərqi Zəngəzur dəhlizinin açılması və Qərbi Azərbaycandan olan soydaşlarımızın əzəli yurdlarına qayıdışı mərhələsidir.

Azərbaycanın 2020–2023-cü illər ərzində əldə etdiyi hərbi-siyasi qələbələr nəinki regionda, hətta dünyada bir sıra reallıqların dəyişməsinə gətirib çıxardı. Bu gün Azərbaycan dünya enerji təhlükəsizlik sisteminin önəmli hissələrindən birini təşkil edir. Eyni zamanda Azərbaycan Cənubi Qafqazda ən güclü ordusuya və iqtisadiyyata malik olan ölkədir.

Tarixi Zəfərlə başa çatan müqədəs Vətən müharibəsi bu gün dünyanın beyin mərkəzlərində, hərbi akademiyalarda araşdırılır, öyrənilir. Azərbaycan Ordusunun qələbəsi, xüsusilə Şuşanın azad edilməsi əməliyyatı dünyanın hərbi məktəblərində tədris olunur.

Azərbaycanın Vətən müharibəsindəki Qələbəsi uzun bir yolun məntiqi nəticəsidir. Bu yolun təməlində Ümummilli lider Heydər Əliyevin dövlət quruculuğu siyasəti dayanır. Ulu öndərin layiqli davamçısı cənab İlham Əliyev möhkəm təməllər üzərində qurulan siyasəti inkişaf etdirərək Azərbaycana bugünkü xoşbəxt günləri bəxş etdi. Əminik ki, Azərbaycanın xoşbəxt günləri, aydın sabahları bundan sonra da davam edəcək, qüdrətli, qalib ölkəmiz Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün hədəflərinə çatacaqdır.

***Elçin BABAYEV,***
***Bakı Dövlət Universitetinin rektoru***

---

**12 Noyabr Azərbaycan Respublikasının Konstitusiyası Günüdür**

# Müstəqil dövlətin manifesti

**Bəri başdan deyək ki, Azərbaycan Konstitusiyasının layihəsini ulu öndər Heydər Əliyev öz əli ilə işləyib hazırlamış və ölkə ictimaiyyətinin müzakirəsinə vermişdir. Ona görə də bir çox siyasətçi və hüquqşünaslar bizim Əsas Qanunumuzu “Heydər Əliyev Konstitusiyası” adlandırırlar. Xatırladaq ki, ötən əsrin 70-ci illərində qəbul edilmiş anoloji sənədimizə də “Heydər Əliyev Konstitusiyası” deyirdilər. Bu barədə bir az sonra ...**

Azərbaycanın ilk Konstitusiyasının qəbul edilməsi barədə qərar 1921-ci il mayın 6-da Ümum-Azərbaycan Sovetlər Qurultayında qəbul edilmişdir. 15 günlük müzakirələrdən sonra məhz qurultay nümayəndələri tərəfindən qəbul edilmiş ilk Konstitusiyamız 5 bölmə, 15 fəsil və 104 maddədən ibarət idi. O dövrün siyasi quruluşu və hakimiyyətin təşkili qaydası, seçkilərin keçirilməsi, dövlət rəmzləri (gerb və bayraq) və bir çox məsələlərin öz əksini tapdığı ilk qeyd edilməli məqamlar ondan ibarətdir ki, bu əsas qanunumuz parlamentin qərarı ilə deyil, xalqın referendumda verdiyi səslə qəbul edilmişdi. Daha bir önəmli məqam Əsas Qanunda Azərbaycanın dövlət quruculuğunun əsasları müəyyən edilmiş, respublikamız demokratik, hüquqi, dünyəvi bir dövlət kimi ilk dəfə olaraq insan hüquqlarının prioritet olduğu və hakimiyyət bölgüsünü özünün gələcək inkişaf yolu kimi seçməsi idi. 1978-ci il Konstitusiyasından fərqli olaraq yeni Konstitusiyada qanunvericilik hüququ ancaq Milli Məclisə verilir. Bir palatalı parlament olan Milli Məclisin əsas funksiyası qanun yaradıcılığı ilə məşğul olmaqdır. Müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbul olunduğu gün — noyabrın 12-si hər il Azərbaycan Respublikasının Konstitusiyası Günü kimi qeyd olunur.




Konstitusiyamız insanların bərabərlik hüququnu təsbit etsə də, bəzi kateqoriyadan olan şəxsləri seçki hüququndan məhrum edirdi. Bu isə tam təbii idi. Çünki Azərbaycan da digər ölkələr kimi, çar üsul-idarəsindən yenicə azad olmuşdu və üstəlik, bu ölkədə demokratik dövlət qurulub dağıdılmışdı. Ona görə də birbaşa hamıya səsvermə hüququnun verilməsi o dövr üçün yolverilməz hesab olunurdu.

1927-ci il martın 26-da Beşinci Ümum-Azərbaycan Sovetlər Qurultayında ikinci Konstitusiya qəbul edildi. Bunun üçün mühüm zərurət yaranmışdı. Çünki ötən 6 il ərzində həm SSRİ, həm də ZSFSR (Zaqafqaziya Sovet Federativ Sosialist Respublikası) yaranmış, Azərbaycan bu qurumlara daxil olmuş, ölkə ərazisində Naxçıvan Muxtar Sovet Sosialist Respublikası və Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil edilmişdi ki, bu amillər Əsas Qanunda öz əksini tapmalı idi. Üstəlik, dövlət strukturunun inzibati-ərazi bölgüsündə bir sıra dəyişikliklər edilmişdi. Doğrudur 1925-ci ilin martında Azərbaycan Konstitusiyasına bir sıra dəyişiklik və əlavələr edilmişdi. Ancaq zaman yeni Konstitusiyanın qəbulunu tələb edirdi.

1937-ci ildə qəbul edilmiş üçüncü Konstitusiya əvvəlki analoji sənədlərdən bir neçə cəhət ilə fərqlənirdi. Burada “İctimai quruluş”, “Vətəndaşların əsas hüquq və vəzifələri”, “Naxçıvan MSSR-in ali dövlət hakimiyyəti orqanları”, “DQMB-nin dövlət hakimiyyəti orqanları”, “Məhkəmə və prokurorluq” adlı fəsillər yer almışdı. Ən başlıcası, bu sənədlərin hamısı məhz qurultaylar vasitəsilə qəbul edilirdi.

Bu qəbildən olan sənədlərin layihəsinin ümumxalq müzakirəsinə verilməsinin təməlini isə ümummilli liderimiz Heydər Əliyev qoydu. Ötən əsrin 70-ci illərin ortalarında “inkişaf etmiş sosializm” cəmiyyəti üçün Əsas Qanunun işlənib hazırlanması zərurəti ortaya çıxmışdı. Uzun sürən müzakirələrdən sonra SSRİ-nin üçüncü Konstitusiyası 1977-ci il oktyabrın 7-də qəbul edildi. 1978-ci il aprelin 21-də Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar yeddinci sessiyasında isə respublikamızın sayca dördüncü Konstitusiyası qəbul edildi. İlk dəfə idi ki, Konstitusiyada insanların sağlamlığının mühafizəsi, mənzil hüququ, mədəniyyət nailiyyətlərindən istifadə etmək hüququ, yaradıcılıq azadlığı təsbit edilirdi. Ən başlıcası, həmin Konstitusiyada Azərbaycan Respublikasının dövlət dilinin Azərbaycan dili olduğu göstərilirdi.

İlk bəndi “Dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır” müddəası ilə başlanan 1995-ci il Konstitusiyamız barədə danışarkən xüsusilə

1995-ci il noyabrın 27-dən qüvvəyə minmiş həmin Konstitusiyaya 2002-ci il avqustun 24-də , 2009-cu il martın 18-də və 2016-cı il sentyabrın 26-da keçirilmiş ümumxalq səsverməsində (referendumda) bəzi dəyişikliklər edildi. Bu dəyişikliklər barədə. Ulu öndər hələ 1995-ci ilin yayında demişdi ki, gənc müstəqil Azərbaycan dövlətinin həyatında baş verən proseslərin yaradacağı yeni çağırışlara cavab olaraq, Konstitusiyamızda ümumxalq səsverməsi ilə dəyişikliklər edilə bilər.

Bu sənədin preambulasında deyilir ki, yeni Əsas Qanun bizim qarşımızda Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, xalqın iradəsinin ifadəsi kimi, qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq, hamının layiqli həyat səviyyəsini təmin etmək və nəhayət, ümumbəşəri dəyərlərə sadiq dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək vəzifələrini qoyur.

Bütün soydaşlarımız kimi, biz də Əsas Qanunumuzun Birinci fəslinin birinci bəndi ilə fəxr edirik: “Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır”.

Beynəlxalq aləmdəki dostlarımız Azərbaycan haqqında danışarkən fəxrlə yada salırlar ki, bu dövlətin Konstitusiyasının 47 maddəsi əsas insan hüquq və azadlıqlarının qorunmasını tələb edir. Bu isə ədalətli cəmiyyətin, obyektiv idarəetmənin və demokratik quruluşun təzahürüdür.

Məhz bu keyfiyyətlərinə görə, Azərbaycan Konstitusiyası bizi uğurlardan uğurlara aparır. Fikrimcə, bizim otuz il davam edən işğala son qoya bilməyimiz də məhz ədalətli cəmiyyətin, obyektiv idarəetmənin və demokratik quruluşun mövcudluğunun nəticəsi idi. Həmin dəyərlər mövcud olmasaydı, xalq–iqtidar birliyi də yaranmazdı, xalq–ordu vəhdəti də. Həmin birliyin sayəsində biz ölkəmizin ərazi bütövlüyünü də bərpa etdik, bütün torpaqlar üzərində suverenliyimizi də.

***İttifaq MİRZƏBƏYLİ***
***XQ***

# Qarabağ Zəfərinə aparan iqtisadi qüdrət



(əvvəli 1-ci səhifədə)

Dahi şəxsiyyətin rəhbərliyi ilə həyata keçirilən makroiqtisadi sabitləşmə tədbirləri nəticəsində 1997-2003-cü illərdə ümumi daxili məhsul (ÜDM) 74,8 faiz, sənaye 30,8 faiz, kənd təsərrüfat 58 faiz, əsaslı vəsait qoyuluşu isə 4,7 dəfədən çox artdı. Respublikada adambaşına düşən ÜDM-in həcmi 1993-cü ildə 180 dollar, 1995-ci ildə isə 319 dollar olduğu halda, bu rəqəm 2003-cü ildə 1995-ci ilə nisbətən 4,9 dəfədən çox artaraq 880 dollara, xarici ticarət dövriyyəsinin həcmi 4 dəfə artaraq 5,3 milyard dollara yüksəldi, habelə ticarət dövriyyəsinin ümumi strukturunda idxal 3,9 dəfə, ixrac isə 4,1 dəfə artdı.

Ölkəmizin müasir iqtisadi inkişaf modelinin müəllifi Ulu öndərin təşəbbüsü və rəhbərliyi ilə 1994-cü il sentyabrın 20-də Azərbaycan dünyanın aparıcı neft şirkətləri ilə "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının dərin hissəsinin birgə kəşfiyyatı, həmçinin işlənməsi üzrə "Əsrin müqaviləsi" adlandırılan saziş bağladı. Bu sazişin icrası nəticəsində 1994-2000-ci illər arasında Azərbaycan iqtisadiyyatına 11,4 milyard dollar həcmində investisiya qoyuldu.

Beləliklə, Ulu öndər yenidən hakimiyyətə qayıtmaqla Azərbaycanın parçalanmasının qarşısını aldı, siyasi hərc-mərcliyə son qoydu, daxili sabitliyi, əmin-amanlığı gücləndirməklə ölkəni yeni dinamik inkişaf yoluna çıxardı, nizami ordunun yaradılmasının əsasını yaratdı.

Həmin dövrdən ötən 20 il ərzində isə Prezident İlham Əliyevin apardığı uğurlu daxili və xarici siyasət nəticəsində ölkəmiz bu gün beynəlxalq aləmdə qüdrətli dövlət kimi tanınır. Dünyada gedən ağır iqtisadi proseslərə və hökm sürən dərin böhrana baxmayaraq Azərbaycan iqtisadiyyatında son 20 ildə ÜDM-in nominal həcminin 22 dəfə artaraq 133,8 milyard manata yüksəlməsi, əhalinin gəlirlərinin 13,7 dəfə, strateji valyuta ehtiyatlarının isə 41 dəfədən çox artaraq 1,6 milyard dollardan 65,9 milyard dollara çatması, Azərbaycana 300 milyard dollardan çox sərmayə yatırılması, həmin göstəricinin 140 milyard dollardan çox hissəsinin xarici investisiya olması bunun bariz ifadəsidir.

Son 20 ildə iqtisadiyyatın dinamik inkişafı əhalinin sosial rifahının yaxşılaşdırılması istiqamətində atılan addımların əhatə dairəsini də genişləndirib. Başqa sözlə, iqtisadiyyatın getdikcə güclənməsi sosial siyasətin davamlı şəkildə yürüdülməsinə əlverişli şərait yaradıb. Belə ki, son illərdə əmək haqları, pensiyalar və müavinətlər dəfələrlə artıb. Bununla yanaşı, indiyədək 300 minə yaxın keçmiş məcburi köçkünün mənzil şəraitinin yaxşılaşdırılması, Vətən müharibəsindən ötən müddətdə isə erməni faşizminin darmadağın etdiyi şəhər və kəndlərimizin heç bir xarici dəstək olmadan yenidən qurulması, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışı prosesi gerçəkləşib.

Yeri gəlmişkən, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin 2022-2026-cı illər üzrə bərpası və dayanıqlı inkişafı Dövlət Proqramı"na əsasən, ilkin mərhələdə 100 yaşayış məntəqəsinin (8 şəhər, 8 qəsəbə və 84 kənd) bərpa edilməsi nəzərdə tutulub. Prezident İlham Əliyev tərəfindən 29 yaşayış məntəqəsinin təməli qoyulub. Ümumilikdə, Vətən savaşından dərhal sonra başlanan bərpa-quruculuq layihələri çərçivəsində dövlətimizin başçısı tərəfindən 105 layihənin təməli qoyulub, 63 müxtəlif təyinatlı tikinti obyektinin açılışı olub.

Düşməndən təmizlənən ərazilərdə çoxsaylı sosial infrastruktur yenidən qurulub, iki hava limanı, avtomobil yolları, dəmir yolu, su elektrik stansiyaları, su anbarları, məktəblər, xəstəxanalar və digər obyektlər tikilərək istifadəyə verilib. Ötən ilin iyul ayından etibarən ilkin olaraq 2 şəhərə (Laçın və Füzuli) və 3 kəndə (Zəngilan rayonunun Ağalı, Tərtər rayonunun Talış və Laçın rayonunun Zabux kəndləri) keçmiş məcburi köçkünlərin qayıdışı reallaşdırılıb.

Azərbaycanın "2022–2026-cı illər Böyük Qayıdış" proqramı çərçivəsində Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarına 40 mindən çox məcburi köçkünün şəhərlərə və qəsəbələrə köçürülməsi nəzərdə tutulub.

2003-cü ildən etibarən düşünülmüş uzunmüddətli strategiya əsasında Azərbaycan Avropa üçün çox önəmli ölkəyə çevrilib. Avropa İttifaqına üzv ölkələrin üçdəbiri – doqquz ölkə ilə strateji tərəfdaşlıq sənədi imzalanıb. Bu, respublikamızın beynəlxalq mövqelərinin kifayət qədər güclənməsini şərtləndirib. Yaxud xarici borc probleminin həlli uğurla reallaşdırılıb.

Son 10 ildə iqtisadiyyat iki qlobal maliyyə böhranından uğurla çıxıb, ölkə iqtisadiyyatı xarici təsirlərə davamlılığı ilə diqqət çəkib. 2014–2015-ci illərdə qlobal əmtəə bazarında neftin qiymətinin 3 dəfəyə qədər azalmasına, 2020-ci ilin əvvəllərindən başlayan və davam etməkdə olan pandemiya böhranı ölkədə makroiqtisadi sabitlik üçün ciddi təhdidlər yaratmasına baxmayaraq, çevik və səmərəli iqtisadi idarəetmə hesabına makroiqtisadi sabitlik, həmçinin əhalinin rifahı və sağlamlığı qorunub. Srateji valyuta ehtiyatları 66,4 milyard manata çatıb. Mərkəzi Bankın valyuta ehtiyatları isə on ayda 16,8 faiz artaraq 10,5 milyard manata yüksəlib.

Respublikamız bu gün 2022–2030-cu illəri əhatə edən strateji inkişaf mərhələsini yaşayır. Bu strateji dövrdə yeni nəsil struktur və institusional islahatlar vasitəsilə iqtisadi artımın müasir və dayanıqlı mənbələrinin hərəkətə gətirilməsi, milli iqtisadiyyatın innovasiya yönümünün və maliyyə dayanıqlığının daha da gücləndirilməsi, ölkə iqtisadiyyatının qlobal dəyər zəncirinə səmərəli inteqrasiya yolu ilə Azərbaycan dövləti öz qüdrətini daha da artırmaq, yüksək rifah cəmiyyətinin qurulması istiqamətində yeni hədəfləri gerçəkləşdirmək əzmindədir.

Bütün bu vəzifələr isə "Azərbaycan–2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə söykənən "2022–2026-cı illərdə sosial–iqtisadi inkişaf Strategiyası"nda öz aydın ifadəsini tapıb. Məsələn, sənəddə 2026-cı ilin sonuna kimi iqtisadi artımın tamamilə yeni keyfiyyət amilləri bazasında formalaşdırılması, xüsusilə prioritet sahələrdə artım templərinin sürətləndirilməsi, iqtisadiyyatın və məşğulluğun dayanıqlığının daha da gücləndirilməsi mühüm məqsədlər sırasında yer alıb.

Qarşıya qoyulan vəzifələrin yüksək səviyyədə həyata keçirilməsinə isə son 10 ildə gerçəkləşdirilən genişmiqyaslı islahatların uğurlu nəticələri əsaslı təsir göstərib. Belə ki, bu müddətdə ölkə iqtisadiyyatında makroiqtisadi sabitlik və dayanıqlıq təmin edilib, sosial rifahı dəstəkləyən iqtisadi artıma nail olunub. Milli iqtisadiyyatın aparıcı sahələrində müasir texnologiyaların geniş tətbiqi və keyfiyyətli insan kapitalının cəlbi sayəsində məhsuldarlıq xeyli artıb, iqtisadiyyat sürətlə şaxələnib və daxili istehsal qlobal dəyər zəncirinə effektiv inteqrasiya edib. Azərbaycan 4-cü Sənaye İnqilabının aktiv mərkəzlərindən biri olmaqla xarici investorlar üçün böyük fürsətlər məkanına çevrilib. Bu dövrdə milli iqtisadiyyat 15 faiz böyüyüb, qeyri-neft-qaz ümumi daxili məhsul (ÜDM) isə 1,4 dəfə artıb. 2011-ci illə müqayisədə qeyri-neft-qaz ixracının 78,3 faiz yüksəlməsinə nail olunub.

**Vaqif BAYRAMOV**
**XQ**

# Azərbaycanın qeyri-neft ixracı 11 faiz artıb

**2023-cü ilin yanvar-oktyabr aylarında ölkəmizdən xaricə 29,3 milyard ABŞ dolları məbləğində məhsul ixrac olunub. Hesabat dövründə qeyri-neft sektoru üzrə ixrac isə əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 11 faiz artaraq 2,7 milyard ABŞ dolları təşkil edib.**



Bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin hazırladığı "İxrac icmalı"nın noyabr sayında məlumat verilib. Nəşrin yazdığına görə, cari ilin 10 ayında aqrar və aqrar-sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri 9,2 faiz artaraq 733,8 milyon ABŞ dolları təşkil edib. Qeyri-neft-qaz ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar-sənaye məhsullarının yaratdığı dəyər ötən ilin müvafiq dövrü ilə müqayisədə 12,9 faiz artaraq 162,7 milyon ABŞ dolları olub.

Cari ilin oktyabr ayında isə qeyri-neft ixracı 15,4 faiz artaraq 278,2 milyon ABŞ dolları olub. Yeyinti məhsulları üzrə ixrac 24,1 faiz artımla 90,6 milyon ABŞ dolları, qeyri-yeyinti məhsulları üzrə ixrac isə 11,6 faiz artımla 187,7 milyon ABŞ dolları təşkil edib.

# Ölkəmiz qazlaşdırmada dünya üzrə öndədir

**Rusiya baş nazirinin müavini Aleksandr Novakın mətbuata verdiyi məlumata görə, ölkəsində qazlaşdırmanın səviyyəsi 70 faizdən çoxdur, qonşu şimal dövlətlərində isə bu göstərici 3 faiz təşkil edir. Onun sözlərinə görə, qazlaşdırma Avropa ölkələrində, məsələn, Almaniyada 47 faiz, Fransada 38 faiz, İspaniyada 32 faiz, Norveç, İsveç kimi ölkələrdə 3 faiz səviyyəsindədir.**



Azərbaycanda qazlaşma səviyyəsi isə 96,3 faiz təşkil edir. Beləliklə, ölkəmiz bu göstərici üzrə Rusiyanı 23,3 faiz qabaqlayır.

**XQ**



# Asiya nəhəngi ölkəmizin "yaşıl inkişaf" layihəsini dəstəkləyir

***Baş nazirin müavini, Azərbaycan–Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri Şahin Mustafayev 6-cı Çin Beynəlxalq İdxal Sərgisi çərçivəsində təşkil olunan Hongqiao Beynəlxalq İqtisadi Forumunda çıxış edərək son illər Azərbaycanın bu ölkə ilə iqtisadi əməkdaşlığının genişlənərək bütün sahələrdə nəzərəçarpacaq inkişafa səbəb olduğunu bildirib. Ş. Mustafayev daha sonra respublikamızın Çinlə əlaqələrini gücləndirən və müxtəlif sahələrdə yeni əməkdaşlıq imkanları yaradan "Bir kəmər, bir yol" təşəbbüsünün əsas istiqamətlərindən biri olan "yaşıl inkişaf"ın təşviqini dəstəklədiyini vurğulayıb.***

Xatırladaq ki, Prezident İlham Əliyevin və ÇXR Sədri Si Cinpinin birgə səyləri sayəsində iki ölkə arasında siyasi dialoq və ənənəvi dostluq getdikcə möhkəmlənir, dövlətlərarası münasibətlər inkişaf edir, qarşılıqlı faydalı iqtisadi əməkdaşlıq yüksək dinamik göstəricilərlə nəzərə çarpır.

"Yaşıl transformasiya" prosesinə öz töhfəsini verən Azərbaycan zəngin təbii resurslara, coğrafi mövqeyinə görə nadir məkanda yerləşir. Respublikamızın Avropa ilə Asiya arasında körpü rolu oynaması isə ölkəmizə "yaşıl ticarət"i inkişaf etdirməyə imkan verir.

Azərbaycanda 2030-cu ilədək alternativ və bərpaolunan mənbələrdən əldə edilən enerjinin həcminin 30 faizə çatdırılması prioritet istiqamət olaraq diqqət mərkəzində saxlanılır. Hazırda Prezident İlham Əliyevin tapşırığı ilə işğaldan azad olunan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları "Yaşıl enerji zonası" konsepsiyası formatında bərpa olunur, həmin ərazilərdə ən müasir texnologiya əsasında "ağıllı kənd", "ağıllı şəhər", "ağıllı kənd təsərrüfatı" və "yaşıl enerji" layihələri uğurla yerinə yetirilir.

Ölkəmizin alternativ və bərpaolunan enerji potensialı artıq xarici investisiyaların əsas mənbəyinə çevrilib. Bu potensialın reallaşdırılmasında, "yaşıl enerji" layihələrinin icrasında Çin şirkətləri ilə də uğurla əməkdaşlıq qurulub.

**XQ**

# Dəniz xəzinəsinə qapı açıldığı gün

## *"Çıraq" platformasının istismara verilməsindən 26 il ötür*

**Bugünlərdə Azərbaycan neft-qaz sənayesi üçün son dərəcə əlamətdar olan daha bir möhtəşəm hadisənin ildönümüdür. Noyabrın 12-də "Əsrin müqaviləsi" çərçivəsində ilkin neftin hasil edildiyi "Çıraq" platformasının istismara verilməsinin 26-cı ili tamam olur.**



"Azəri-Çıraq-Günəşli" yataqlar blokunda hasilatın başlanması, həm də Azərbaycanın yeni neft strategiyasının uğurlarının başlanğıcı idi. Təsadüfi deyil ki, bu əlamətdar hadisə ölkəmizin neft sənayesinin tarixinə möcüzənin reallığa çevrildiyi gün kimi düşüb. "Əsrin müqaviləsi"nin imzalanmasından keçən üç il ərzində Azərbaycan Dövlət Neft Şirkəti, qəhrəman neftçilərimizin xarici tərəfdaşları ilə birlikdə həyata keçirdikləri nəhəng tikinti-quraşdırma işləri, həqiqətən, möcüzəyə bərabər idi. Mütəxəssislərin qənaətinə görə, belə bir qısa zaman kəsiyində dənizdə və quruda hərtərəfli infrastruktur yaratmaqla çətin dəniz şəraitində neft hasilatına başlamaq heç də asan deyil. Bu möhtəşəm uğur Azərbaycanın yeni neft strategiyasının həqiqiliyinin əsl təntənəsi idi.

"Çıraq" platformasından ilk neft 1997-ci il noyabrın 7-də hasil edilsə də, bu mühüm hadisə ümummilli lider Heydər Əliyevin həmin il oktyabrın 27-də imzaladığı fərmana əsasən noyabrın 12-də dövlət səviyyəsində qeyd olundu. Həmin gün ölkəmizin rəsmi dövlət və hökumət üzvlərinin, Azərbaycan Beynəlxal Əməliyyat Şirkətinin nümayəndələrinin, eləcə də xarici ölkələrdən gəlmiş qonaqların iştirakı ilə "Çıraq" platformasında təntənəli mərasim keçirildi. Tədbirdə bu möhtəşəm tarixin yaradıcısı ulu öndər Heydər Əliyevin şəxsən iştirak etməsi isə olduqca qürurverici idi.

Azərbaycanın yeni neft strategiyasının möhtəşəm uğurunun müjdəsini xalqımıza çatdıran ümummilli lider Heydər Əliyev həmin təntənəli mərasimdə çıxış edərək bu əlamətdar tarixi hadisənin, əldə edilən nailiyyətlərin Azərbaycanın dövlət müstəqilliyinin qazanılmasından sonra mümkün olduğunu söyləyərək demişdir: "Çıraq" neft yatağında üç il müddətində yaradılmış platforma möcüzədir. İnsanı, həqiqətən, təəccübləndirir. Çünki bu, Xəzər dənizində olan başqa platformalardan, estakadalardan öz müasir texnikası, texnologiyası ilə fərqlənir. Bu platformanı görən adam heyran olur. Çünki bu, böyük bir kombinatdır, zavoddur. Demək olar ki, böyük bir şəhərdir. Burada insanlar yaşayır da, işləyir də. Burada insanlar neft çıxarmağa başlayıblar".

Xatırladaq ki, suyun 120 metr dərinliyində quraşdırılmış "Çıraq-1" platforması Azərbaycan neftçilərinin gücü ilə ötən əsrin 80-ci illərinin sonlarında inşa olunub. Lakin SSRİ-nin dağılması ilə əlaqədar burada işlər yarımçıq dayandırılıb. Yalnız "Əsrin müqaviləsi"nin ilkin neft layihəsi çərçivəsində platforma dünya standartlarına uyğun yenidən modernləşdirildikdən sonra burada neftin və səmt qazının hasilatına başlamaq mümkün olub. İstismar quyularının sayının artması isə platformada illik neft hasilatını 6 milyon tona çatdırmağa imkan yaradıb.

"Əsrin müqaviləsi"nin ilkin neft layihəsi çərçivəsində, həmçinin "Çıraq"dan çıxarılan neft sahilə nəql etmək məqsədilə 176 kilometrlik və səmt qazını Neft Daşlarındakı kompressor stansiyasına çatdırmaq üçün 48 kilometrlik sualtı boru kəmərləri çəkilib. Xam nefti qəbul edib onu texnoloji prosesdən keçirərək ixraca yönəltmək məqsədilə dünyanın ən nəhəng qurğularından sayılan Səngəçal terminalı da ilkin neft layihəsi çərçivəsində inşa olunmuş mühüm infrastruktur obyektidir. 1997-ci il noyabr ayının 12-də ulu öndər Heydər Əliyevin iştirakı ilə Səngəçal terminalının da təntənəli açılış mərasimi keçirilib. Beləliklə, Azərbaycan nefti Bakı–Novorossiysk ixrac boru kəməri ilə Şimal istiqamətinə axmağa başlayıb.

"Çıraq" platforması həmin vaxtdan indiyədək, təmir və profilaktika üçün ayrılmış işlər istisna olmaqla, fasiləsiz işləyib. Ötən müddətdə burada 16 hasilat və 6 injektor quyusu qazılıb. Hazırda istismar quyularının 12-dən neft çıxarılır. 23 il ərzində "Çıraq" yatağından 774 milyon barel və ya 105 milyon ton neft hasil olunub. Bu da AÇG-nin ümumi hasilatının beşdə birindən bir qədər çoxdur. Yeri gəlmişkən, AÇG-nin operatoru olan BP şirkəti o vaxtdan bəri bu yataqlarda 5 əlavə hasilat platforması inşa edib. Həmin platformalardan isə indiyədək 567,3 milyon ton neft çıxarılıb.

**Mirbağır YAQUBZADƏ**
**XQ**

### Ekspert rəyi



**İlham ŞABAN,**
**Neft Araşdırmaları Mərkəzinin rəhbəri**

"Çıraq" strukturu Azərbaycan geofizikləri tərəfindən 1959-cu ildə seysmik kəşfiyyatın "əks olunmuş dalğa üsulu" ilə aşkar edilib. Burada ilk axtarış-kəşfiyyat quyusunun qazılmasına 1984-cü il yanvarın 17-də "Xəzərdənizneftqazsənaye" Ümumittifaq İstehsalat Birliyi tərəfindən başlanılıb. Qazma işləri "Şelf-2" yarımdalma üzən qazma qurğusu vasitəsilə həyata keçirilib. 2 min 930 metr dərinlikdə məhsuldar laylar uğurla aşkar olunub, gündəlik debit göstəriciləri 222 ton neft və 20 min kubmetr qaz təşkil edib.

Beləliklə, 1985-ci ildə Xəzərin Azərbaycan sektorunun dərin hissəsində yeni neft və qaz yatağı kəşf olunub. Açılan yatağın özəlliyi ondan ibarət idi ki, Azərbaycan neftçiləri onu ilk quyu ilə kəşf etməyə nail olmuşdular. Bu, neft kəşfiyyatı sahəsində nadir hadisələrdən biri kimi qiymətləndirilir.

Sovet dövründə açılan bu yataq "Koverоçkin" adlandırılıb. Müstəqillik dövründə isə yatağa "Çıraq" adı verilib. "Əsrin müqaviləsi" çərçivəsində "Çıraq-1" platformasından qazılmış A-01 quyusu 1997-ci il noyabrın 12-də Fasilə lay dəstəsindən 1648 ton gündəlik hasilatla istismara qəbul edilib.

Bəs "Əsrin müqaviləsi" üzrə hasilatın başlanması Azərbaycana nə verdi? İlk növbədə, xarici investorlarda dünya bazarına birbaşa çıxışı olmayan Azərbaycanın neft və qaz sənayesinə gələcək yatırımlar üçün bir inam yarandı. Nəticədə, bu müqavilədən sonrakı illərdə SOCAR-la xarici neft şirkətləri arasında daha 36 müqavilə imzalandı və ümumilikdə, Azərbaycanın neft-qaz sektoruna 101 milyard dollar xarici sərmayə qoyulmasına gətirib çıxardı.

İkincisi, Azərbaycan dövləti indiyədək AÇG-dən 170 milyard dollara yaxın qazanc əldə edib.

Üçüncüsü, AÇG-dəki uğur əldə edilməsəydi, "Şahdəniz" yatağında hasil edilmiş qazın regional bazarlardan kənara çıxması çox mürəkkəb bir iş olardı. Çünki məhz Azərbaycanın əsas ixrac boru kəmərinin çəkilməsi vaxtı ilə "Şahdəniz-1" layihəsi üzrə Türkiyəyə qədər ilk qaz ixrac kəmərinin inşa edilməsi üçün zəmin yarandı və daha sonra Cənub Qaz Dəhlizi reallaşdı.

Dördüncüsü, Azərbaycanın məhz AÇG-dən əldə etdiyi gəlirlər onun iqtisadi müstəqilliyi üçün möhkəm əsas yaratdı və bu uğur tendensiya hazırda da davam edir.

Beşincisi, AÇG-dən gələn gəlirlərin effektiv xərclənməsi nəticəsində Azərbaycan iqtisadi, siyasi və hərbi gücünü artırmağa, xarici iqtisadi əlaqələrini genişləndirməyə nail oldu. Daha sonra isə ölkəmiz siyasi nüfuzunu artıraraq beynəlxalq aləmdə hörmətlə yanaşılan bir dövlətə çevrildi. Nəhayət, regionun sabit inkişaf edən ölkəsinə çevrilməsi Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam şəkildə bərpasına gətirib çıxardı.

“Xalq” TV-nin qonaqları

# Döyüşən sözün Zəfər öyüncü



**Bu gün Xalq TV-nin qonağı Milli Məclisin deputatı, tanınmış yazıçı-publisist Aqil Abbasdır. Hesab edirəm ki, Aqil müəllimi təmtəraqlı təqdim etməyə ehtiyac yoxdur. Çünki hər kəs onun necə vətənpərvər bir şəxsiyyət olduğunu yaxşı bilir. O, Qarabağ yolunda sözlə döyüşən ən öncül ziyalılarımızdan biri kimi tanınır. Qazandığı populyarlıq və üzərinə götürdüyü missiya onu Milli Məclisin deputatı səviyyəsinə yüksəldib. Söhbətimizin mövzusu isə çox həssas bir məsələdir: Tarixi Zəferimizə döyüşən sözün dəstəyi.**

**– Aqil müəllim, mövzunun adı qısa olsa da məzmunu, ehtiva dairəsi çox genişdir. Haradan, nədən, necə başlayaq?**

– Əvvəla, xoş gördük. Bəli, mən Qarabağ uğrunda döyüşən insanlardan olmuşam. Ancaq təkcə qələmlə, sözlə yox, həm də Birinci Qarabağ müharibəsi dövründə atəşkəsədək cəbhənin ön xəttində olmuşam. Yəni təkcə sözlə döyüşməmişəm. O çətin günlərdə Azərbaycan əsgərinin paltar, yemək və digər zəruri tələbat malları ilə təmin olunması işində öz şəxsi əlaqələrim sayəsində müəyyən yardımlara nail olmuşam. İndi bunları haradan, necə etmişik, onu bir o qədər açıqlamağa da ehtiyac duymuram. O vaxt cəbhədə silah-sursat çatışmazlığı da yaranmışdı. Elə olub ki, Ağcabədi, Bərdə və ətraf rayonlardan ov tüfəngləri toplayaraq cəbhə bölgəsinə çatdırmışıq.

O vaxt demək olar ki, mən gündə-günaşırı cəbhə bölgəsində olurdum. Bizim üçün həddən çox çətin və ağır günlər idi. Xatırladığım çox məqamlar var. Biri də odur ki, o vaxtı atam Ağdam alınan günü Şıxbabalıda işdə olmuşdu. Mən dəfələrlə atama demişdim ki, gəl çıx buradan. O isə bildirirdi ki, sən hər gün qəzetdə Vətənin bu çətin günündə cəbhədən, el-obasını tərk edib qaçanları söyürsən. Onda bizə nə deyərlər? Ona görə də o kəndindən, el-obasından çıxmırdı. Sağ olsun vətənpərvər və cəsur döyüşçülərimizi, mühasirəni yarmış, atamgili çıxarmışdılar. İndi bunları düşündükcə və danışdıqca, sanki ,yenidən o günlər kino lenti kimi gözümün önündən keçir.

**– Birinci Qarabağ müharibəsində bütün əsgərləri və sizin kimi ziyalıları bir araya toplamaqla İrəvanadək getmək olardı. Lakin bu, olmadı. Niyə olmadı? Bütün bunları bilirik. Lakin siz “Dolu” romanı və filmi ilə cəmiyyətdə yaranmış bir ruh düşkünlüyü vardı ki, onu aradan qaldırmağa da kömək elədiniz. Zəfərə inam elə zəfərin özü deməkdir.**

– Təkcə mən yox, çox adamlar vətənpərvərlik ruhunda yaradıcılıqla məşğul oldu bu illər ərzində. Lakin mən bütün yaradıcılığımı bu amala sərf elədim. Hər kəs kimi, mən də bu inamı yaşatmağa çalışdım. Bir çox yazıçılar, şairlər bu inamı yaşatmağa çalışırdılar. Lakin mən daha çox yazırdım bu barədə. Bu isə mənim borcum idi. İstiqlal şairi Məmməd Arazın bir misrası var: “Elə ki, qələmi aldım əlimə , Araz gəlir dilimə”. Mən də əlimə qələm alıb nəsə yazmaq istəyəndə Qarabağ mövzusu, Vətən mövzusu hakim kəsilirdi düşüncələrimə. Beləcə yarandı “Dolu” romanı da.

Düşünürəm ki, Birinci Qarabağ savaşında ən böyük çatışmazlıq orduya vahid rəhbərliyin, baş komandanlığın olmaması idi. Birinci Qarabağ müharibəsindəki uğursuzluqlar könüllü batalyonların mərkəzi idarəçiliyinin olmaması idi. Mən həmişə demişəm ki, könüllü əsgər olar, lakin könüllü batalyon olmaz. Bu barədə dəfələrlə qəzetdə də yazmışam.

Düzdür, biz o vaxt Ağdərəni azad etməklə ermənilərə böyük zərbə vurmuşduq. Lakin buna baxmayaraq sonradan həmin vahid idarəetmənin olmadığı könüllü batalyonlarının xaotik mübarizəsi nəticəsində yenidən Ağdərəni və ətraf bölgələri itirdik. O vaxt bütün erməni daşnakları, ASALA və digər muzdlular həmin əraziyə toplaşmışdılar.

**– Vətən müharibəsindən sonra da dinc durmayan erməni hərbi birləşmələri və terroristləri yenə həmin ərazilərdə təxribat törədirdilər. Elə bu son antiterror əməliyyatı da məhz həmin ərazilərdə keçirildi və düşmən torpaqlarımızı tamamilə tərk etdi.**

– Qarabağın beşdəiki hissəsi Ağdərədən ibarətdir. Qarabağın qapısı Ağdərə sayılır. Bilirsiniz, oranın azad edilməsi və terrorçulardan təmizlənməsi elə bir növ Qarabağda təhlükəsizliyin tam təminatı demək idi. Ümumiyyətlə, strateji baxımdan məsələyə yanaşdıqda Qarabağda iki rayon əsas götürülür. Ağdərə və Əsgəran. Bu əraziləri nəzarətə götürdükdən sonra Xankəndidə separatçıların qalması qeyri-mümkün idi. Yaxşı bilirik ki, Əsgəran qalası Qarabağın qapısı rolunu oynayır. Biz ilk şəhidimizi də elə o vaxtı orada vermişik.

Onu da xüsusi qeyd edim ki, bu son antiterror əməliyyatı ilə cənab Ali Baş Komandan İlham Əliyev həmin sözügedən ərazilərin nəinki işğaldan azad edilməsini, həm də terrorçulardan, separatçı tör-töküntülərdən təmizlənməsini təmin etdi.

Ümumiyyətlə, xatırladım ki, Prezident İlham Əliyev 2020-ci il Vətən müharibəsi dövründə hər gün yerli və xarici mətbuata verdiyi müsahibələrlə həm dünya ilə döyüşürdü, həm də ermənipərəst qüvvələrlə. Müzəffər Azərbaycan Ordusu isə hər gün yeni bir bölgəni azad edirdi.

Yəqin ki, gedib görmüsünüz Şuşaya necə qalxıblar. O sıldırım qayaları necə dırmaşıblar. Bu özü möcüzədir ki, insan sıldırım qayalara necə qalxa bilər. Şəhərin o cür yalın əllə azad edilməsi böyük şücaətdir. Orada əsgərlərimizin yalnız tapançası, ən yaxşı halda avtomat silahı olub. Bizim əsgərlərimiz orada əlbəyaxa vuruşaraq düşmənə qalib gəliblər.

**– Ali Baş Komandan İlham Əliyev deyir ki, Qarabağı yeni nəsil aldı. Qarabağın azadlığının itirilməsindən sonra yaranan nəsil Qarabağı bizə geri qaytardı. O nəsilə isə Qarabağı söz tanıtdı. Siz yazmışdınız ki, çadırda Üzeyir Hacıbəyli doğulmaz. Bax o qınaqlar yeni nəsildə bir qeyrət, bir eşq oyatdı və qeyrət formalaşdırdı.**

– Bir dəfə mənə televiziya verilişlərindən birinin efirində belə sual verdilər ki, yazmısınız ki, çadırda Üzeyir Hacıbəyli doğula bilməz. Ancaq Çingiz xan, Əmir Teymur çadırda doğulub. Dedim ki, Əmir Teymur dünyanın o başında Çukot adasında çadırda dünyaya gəlməyib. Və yaxud Çingiz xan da çadırda doğulmayıb. Onlar gəlib Moskvanı alıblar, ipək çadırlarda doğulan şəxslər olublar. Azərbaycanın ərazilərini azad edən yeni nəslə gəldikdə isə o nəslin yetişməsi də elə məhz möhtərəm Prezidentimizin adı ilə bağlıdır.

Bir dəfə Bərdədə cənab Prezidentlə görüş zamanı Zahid Oruc müraciət etmişdi ki, orada universitet açılsın. Mən isə parlamentdə çıxış edərkən bildirdim ki, Bərdədə yox, Ağcabədidə Universitet filialı fəaliyyət göstərir, bu təhsil ocağını müstəqil universitet etmək olar. O məsələ xeyli səssiz-səmirsiz qaldı. Zəfərdən sonra Prezident Universitetin Ağdamda açılması ilə bağlı qərar verib. Bu, nəyi, nə vaxt, necə etməklə bağlı İlham Əliyevin müdrikliyinin daha bir təsdiqidir.

Bundan başqa, möhtərəm Prezident Müdafiə Sənayesi Nazirliyini yaratmaqla, ordunun silah-sursatla təchizatı problemini də aradan qaldırmış oldu. Bilirsiniz, ola bilərdi ki, müharibə xeyli tez başlayardı. Bizə qarşı embarqolar tətbiq edilərdi və heç kəs bizə nəinki, bir avtomat, hətta bir güllə belə verməzdi. Onda çox çətin vəziyyətdə qalardıq. Bunu əvvəlcədən düşünən Azərbaycan Prezidenti Müdafiə Sənayesi Nazirliyini yaratmaqla ölkəni bu çətinlikdən də sığortalamışdı.

**– Aqil müəllim, 3 il əvvəl sizinlə belə sakit danışmaq olmazdı. Əvvəllər müharibə mövzusu sanki sizi əsəbləşdirirdi. Hətta studiyanı hansısa naşı suala görə tərk edib getdiyiniz də olub. Lakin bu gün çox rahat və məmnun görünürsünüz.**

– Bəli, dedikləriniz həqiqətdir. Çünki Xankəndi azad olundu, Füzuliyə, Zəngilana, Laçına və digər ərazilərə insanlar köçürülür. Şuşa abadlaşdırılır, Füzuli, Ağdam, Cəbrayıl, Zəngilan, Qubadlı yenidən tikilir. Mən də Ağdamda–ata yurdumda gözə bir ev tikəcəyəm. Ağdamda Qaraağacı deyilən qəbiristanlığa anamla qardaşımın qəbrini ziyarət etməyəgetmişdim. Təəssüflər olsun ki, onların məzarını tapa bilmədik. Çünki ermənilər həmin məzarlığı şumlayıblar. Onu heç vaxt ermənilərə bağışlamayacağam.

Amma Goranboyda bir kənd var. Orada erməni qəbiristanlığı hələ də necə qoyub gediblərsə, elə də qalır. Mən həmin qəbiristanlıq barədə qəzetdə də yazı yazmışam. Axırıncı erməni qəbiri 1988-ci ildə salınıb orada. Həmin məzar bu gün də olduğu kimi qalır. Heç bir azərbaycanlı ölkədəki erməni qəbirlərinə toxunmayıb. Çünki biz anlayırıq ki, insan öləndə onun milləti olmur.

**– Özgə bədbəxtliyi üzərində xoşbəxtlik qurula bilməz. Onlar səlib dünyasının alətinə çevrilib Qarabağa gələndə, üstümüzə qısqırdılanda bu günü görməli idilər. Aqil müəllim, siz ustad söz adamısınız, Zəfərimiz ədbiyyatda öz əksini necə tapır?**

– Bilirsiniz, bu gün ədəbiyyatda bu barədə çox yazırlar. Lakin iki cür yazılanlar var. Biri var ürəkdən yazılanlar, biri də var üzəvari yazılanlar. Təəssüflər olsun ki, bəsit, təsirsiz kitablar çoxdur. Çünki həqiqəti dərindən əks etdirmir. Bir dəfə İctimai Televiziyada bir verilişdə idim. 20 yaşlı bir qız uşağı bildirdi ki, mən də roman yazmışam. Məlum oldu ki, roman Ağdamdan və müharibədən bəhs edir. Öyrəndim ki, bu qız Ağdam işğal olunandan sonra dünyaya gəlib. Nəinki müharibəni, heç Ağdamı görməyib. İndi özünüz fikirləşin: o, od-alov və qan-qada barəsində o nə yaza bilərdi? Bəzən bu mövzunun şitini çıxarırlar. Kim nə istəyir yazır, çap etdirir. Bu isə bir qədər qazanılan Zəfəri ucuzlaşdıra bilər. Yəni əsər mənfəət, şöhrət üçün yox, Vətən naminə yazılsa, uğurlu və təsirli olar.

**– Doğru deyirlər ki, dağın ətəyində olanda onun əzəməti o qədər də görünmür. Ancaq uzaqdan baxanda isə bütöv mənzərə alınır. Sonda oxucularımıza nə demək istərdiniz.**

– Sonda bildirmək istərdim ki, mənim Aqil Abbas olaraq ən böyük arzum qaçqınların və məcburi köçkünlərin yurd-yuvalarına qayıtmasıdır. Və bir söz də deyim ki, burada bir inzibatçılıq da olmalıdır. Məcbur etməlidirlər ki, get öz doğma yurduna. Parlamentdə bir söz dedim, təəssüf ki, onu qəribçiliyə saldılar. Ancaq yenə deyirəm ki, indi sovet dövründəki kimi, tələbə-inşaat dəstələri yaradılmalıdır. Onlar gedib Qarabağı tikməyə kömək etməlidirlər. Onlara müəyyən imtiyazlar da verilməlidir. Belə ki, institutu bitirdikdən sonra gedib həmin rayonlarda işləmək kimi, növbəsiz ev almaq kimi üstünlüklər bura daxil olmalıdır.

Xalqımızı 30 il həsrətində olduğu qələbənin təqvimdə əbədiləşdiyi Zəfər Günü münasibətilə qəlbimin bütün hərarəti ilə təbrik edirəm, ona bir daha belə dəhşətli sınaqla üzləşməməsini arzu edirəm. Xankəndidə keçirilən paradı isə qalib Komandan İlham Əliyevin hamımıza bayram töhfəsi hesab edirəm.

**– Bəs orta düşüncəli erməniyə nə deyərdiniz?**

– Deyərdimki, heç olmasa, bundan sonra adam olun.

**– Bütün ölkəmiz, xalqımız zehni xam xəyallarla zəhərlənmiş toplumdan bunu gözləyir.**

*Söhbəti apardı:*
*Tahir AYDINOĞLU*
*XQ*

**İkinci Qarabağ müharibəsi dövründə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev ictimai leksikona bir sıra deyimlər gətirdi. Uşaqdan böyüyə hamının ürəyinə yağ kimi yayılan bu ifadələr deyildiyi andan dillər əzbəri oldu. İnsanlar öz fikrini daha qabarıq çatdırmaq üçün həmin ifadələrdən zərb-məsəl kimi istifadə edirlər: “Noldu, Paşinyan?!”, “Bəs Cəbrayıla yol çəkirdin?”, “İti qovan kimi qovduq”, “Əziz Şuşa, sən azadsan!”, “Cəhənnəmə getdi status”, “Dəmir yumruq yerindədir!”, “Biz bu torpaqlarda əbədi yaşayacağıq!” və sair və ilaxır. Ən çox yayılan və işlənən isə şübhəsiz, bu ifadədir: “Qarabağ Azərbaycandır!”**

# Xalq – Sərkərdə – Ordu həmrəyliyi

(publisistik düşüncələr)



Böyük ruh yüksəkliyi ilə yaşadığımız həmin Zəfər günlərində tarixin gedişi gözlərimiz önündə dəyişdi. Və Qafqazda tam yeni bir reallıq yarandı; regionda söz sahibi qalib Azərbaycan Respublikasıdır!

***

Şanlı Qələbənin üç qəhrəmanı var: Xalq, Sərkərdə və Əsgər.

Azərbaycan əsgəri… O, Vətən çöllərini öz qanı ilə suvardı, torpağı çirkabdan təmizlədi. Son yüzilliklərdə ilk dəfə itirdiyimiz ərazilər geri qaytarıldı. Cəsur ürəyi və milli qeyrəti ilə can-Azərbaycana canını əsirgəməyən əsgər şəhid oldu, qazi oldu, qəhrəman oldu və həyatı bahasına yeni xəritə cızdı doğma Vətəninə.

O xəritə üzərində sənin izin əbədi qalacaq, qalib Əsgər! Adın ulu babaların -Babəkin, Şah İsmayıl Xətainin, Cavad xanın silahdaşı kimi yurdda daim var olacaq! Çünki sən şanlı bayrağımızı müqəddəs Şuşada, işğaldan azad etdiyin Qarabağın hər şəhərində, kəndində, dağlarında ucaldana qədər durmadan, dayanmadan, yoruldum demədən irəli getdin! Qələbə qazanana qədər getdin və Zəfərlə geri döndün...

Ordunun azad etdiyi hər kəndlə, şəhərlə, hər dağla, dərəylə, təpəylə, çayla, meşəylə xalqa elə böyük sevinc bəxş edildi ki, əsarətli yüzillər boyu bu yurdda hələ belə hisslər yaşanmamışdı. Milyonların gözlədiyi o ifadənin müjdəsi “Dəmir yumruq” üstündə gəldi: “Qarabağ Azərbaycandır!”

***

Nəhayət, hamımızı boğaza yığan, ömrümüzü alan üzüntülü “Dağlıq Qarabağ problemi” Azərbaycan xalqının, Azərbaycan Prezidentinin və Azərbaycan Ordusunun sarsılmaz həmrəyliyi sayəsində ləyaqətlə, qürurla, əzəmətlə, mərdliklə öz həllini tapdı. İqtidar-Xalq həmrəyliyindən güc alan şanlı ordunun dalbadal xilas etdiyi məntəqələrdə sancılan Qələbə bayraqları süni problemdən doğan suallara qətiyyətli cavab idi. Üçrəngli bayraqların hərəsi bir nida işarəsi olaraq torpaq üzərində vüqarla ucalırdı: “Qarabağ Azərbaycandır!!!”

Ali Baş Komandan, qəhrəman əsgərlər, zabitlər və generallar mümkün olmayanı mümkün etdilər! Yüzillərlə hörülən kələklər “Dəmir yumruğ”un zərbəsi ilə cəmi 44 günə darmadağın oldu. Təmas xəttində 30 ilə qurulan “təhlükəsizlik səddini” nər igidlər 30 günə aşıb keçdilər. Başının bir gülləsi əskik olan təvərə papaqlı, lopa bığlı xəyanətin nəticəsində vaxtilə düşmənə təhvil verilən müqəddəs Şuşamızı xüsusi təyinatlılar əliyalın dağlara dırmaşaraq, dişləri-dırnaqları ilə qayalara qalxaraq alıb geri qaytardılar... İndi sən azadsan, əziz Şuşa!

***

Bütün bunlar bir möcüzə idi! Ordumuz dünya hərb tarixində görünməmiş hücum strategiyası sərgilədi! Sonu şanlı Zəfərlə bitən, hərbi dərsliklərə düşən ildırım sürətli, uğur effektli strategiya! Ölümün üzərinə şığıyan hər biri bir qəhrəman oğulların qarşısını kimsə ala bilməzdi və ala bilmədi. Vətən sevgisinin qarşısında heç nə duruş gətirə bilməzdi və gətirə bilmədi!

Bədniyyətli insanların daim pislədiyi Azərbaycan əsgəri günlərin gözəl bir günü Ali Baş Komandanın “İrəli!” əmri ilə şahin kimi şığıyıb düşmənin üstünə atılanda qorxaq ermənilər təkcə pərənpərən düşmədi. Uzun illər ərzində Azərbaycanı su yoluna döndərən, növbə ilə gəlib yeyib-içib gedən saxtakar “sülhyaratmazlar” və onların arxasındakı təkəbbürlü güclər də əhəmiyyətsiz bir şeyə çevrildilər. “Cəhənnəmə vasil etdiyimiz “Dağlıq Qarabağ” problemini” bu mənasız adamlarla bir masa ətrafında uzun-uzadı müzakirə etməyə daha ehtiyac qalmadı. Həm tarixi, həm beynəlxalq, həm ilahi ədalətin bərpası üçün işğalçının başa düşdüyü dildə ən səmərəli “danışığı” Azərbaycan Ordusu aparmışdı. “Sülhyaratmazlar”ın menyusu üçün də qüdrətli ordumuz “Qənimətlər Parkı” kimi dəbdəbəli bir “süfrə” açdı...

***

Məharətlə idarə olunan ordunun ildırım sürətli hücumu nəticəsində qazanılan Zəfər həm də bir çox həqiqətləri üzə çıxartdı. Məlum oldu ki, müharibənin odu-alovu içində ölümün üstünə şığıyan pələng igidlər Qarabağda, guya ki, “Öz müqəddəratını təyin edən” bir ovuc “zavallının” illərlə qurduğu saysız-hesabsız maneələri dəf edib, silsilə sədləri keçib, beton çəpərləri dağıdıb, kilometrlərlə uzanan hörülü səngərləri, yeraltı tunelləri, silah dolu lağımları adlayıblar... Məlum oldu ki, özünü həmişə yazıq göstərən o “zavallılara” məxsus minlərlə ölüm saçan tankı, topu, raketi, avtomatı, pulemyotu, minomyotu, qumbaranı, mərmini əsgərlərimiz məhv edir, əzir, dağıdır, ancaq o silahlar bitib-tükənmək bilmir... Məlum oldu ki, o dəmir-beton maneələr, hörülü istehkamlar, yeraltı tunellər, dərin səngərlər mənasız Minsk qrupunun saxta “monitorinq yoxlamaları”, yalançı “sülhyaratma” pərdələri altında qurulurmuş... Və bizi yalnız azərbaycanlı olduğumuz üçün öldürmək, yox etmək üçün yığılan həmin tonlarla silah-sursat, raket, mərmi, tank, top, avtomat, pulemyot, qumbara illər uzunu elə o saxtakar yekələrin gözü qarşısında Qarabağa daşınırmış...

Beynəlxalq səviyyəli dələduzlar utanmadan yalan danışa-danışa təvazökar, mədəni, qonaqpərvər bizləri arxayın salıb münaqişənin həllini uzadır, işğalı möhkəmlətmək üçün “artsaxlara” vaxt qazandırırmışlar...

Əgər dünyada beynəlxalq hüquq deyilən bir anlayış həqiqətən mövcuddursa, o zaman hərbi tribunallarda cinayətkar erməni quldurları ilə yanaşı, öz səlahiyyətlərindən sui-istifadə edən, rəsmi sülhyaratma missiyasına xəyanətlə manipulyativ əməllər, davranışlar, danışıqlar aparan həmin beynəlxalq avantüristlər dəstəsi üçün də oturacaqlar düzülməlidir.

***

...Zəfərdən əvvəl Azərbaycan ölkəsi təkcə siyasi, iqtisadi, hərbi deyil, həm də maddi-mənəvi, mədəni təcavüzə məruz qalmışdı. Torpaqları işğalda saxlayan düşmən Qarabağda təkcə insanları qətlə yetirmirdi, orada olan bütün mədəniyyət abidələrini, müqəddəs ziyarətgah və ibadətgahları, kurqanları, daş heykəlləri, milli kimliyimizə aid qədim nümunələri də dağıdır, türkün izini itirməyə çalışırdı. Azərbaycan insanının özü ilə yanaşı, Azərbaycan insanının yaratdığı dəyərləri, sənət nümunələrini, ədəbi-bədii abidələri də məhv edir, yaxud oğurlayıb “özününküləşdirirdi”. Vandallar Qarabağda imarətləri sökür, evləri dağıdır, ağacları yandırır, bağ-bağatı yolur, çayları, bulaqları qurudurdu. Muzeylər, rəsm qalereyaları, kitabxanalar, incəsənət məktəbləri, mədəniyyət sarayları, dövlət teatrları vəhşicəsinə talan olunurdu. Şuşa, Ağdam, Füzuli, Zəngilan, Cəbrayıl, Laçın, Kəlbəcər rayonlarının ərazilərində min illərlə yaşı olan qalalar, türbələr, məscidlər, karvansaraylar, bulaqlar, kəhrizlər məhv edilirdi. Gözəl Qarabağda gözə dəyən nə varsa darmadağın edilirdi...

Müharibədən sonra dünyanın hər tərəfindən bölgəyə gələn çoxsaylı nümayəndələr acıdan-acı mənzərələrin şahidi olub dəhşətə gəldi: göz işlədikcə uzanan xarabalıqlar, viran qoyulmuş kəndlər, şəhərlər, sökülüb dağıdılmış evlər, şumlanmış məzarlıqlar, yandırılmış zəmilər, doğranmış ağaclar, tapdalanmış güllər, çiçəklər...

Bu idi “forpost” Ermənistan” dövlətinin “mədəniyyət siyasəti”! Bu idi daim özünü “qədim, mədəni xalq” adlandıran quldurların əsl siması! Vəhşilərin Qarabağda törətdiyi barbarlığın özü ən böyük mədəniyyətsizlik əlaməti idi! Həm də təkcə Azərbaycan milli mədəniyyətinə qarşı yox, ümumbəşər mədəniyyətə, insanlığa qarşı cinayət idi!

***

...Artıq tarixə gömülmüş “Dağlıq Qarabağ” məfhumunun, onun “statusunun”, ümumiyyətlə “Qarabağ problemi”nin nədən bu qədər mürəkkəb düyünə düşdüyü, həllinin çətinləşdiyi və Azərbaycanın daxili məsələsinin hansı səbəbdən beynəlxalq müstəviyə çıxdığı barədə düşünəndə, digər amillərlə yanaşı, din amili də ən başlıca səbəb kimi meydana çıxır.

Qarabağın problemi, əslində, ordan başlayıb ki, iki yüz il əvvəl iki imperiyanın ikiyə böldüyü Azərbaycanın şimal torpaqlarına köçürülən erməni tayfasının üzərinə imperiyalar həm də “tarixi” missiya qoyublar: köçürüldükləri ərazini “özəlləşdirib” Türkiyə ilə Turan elləri arasında “paz” kimi durmaq! Türk dünyasına qənim kəsilib, türk izini itirmək!

Qanında xainlik, canında satqınlıq olan sərgərdan tayfa bu öhdəliyi canla-başla icraya qəbul edib, bütün kəndləri, şəhərləri, çayları, dağları, daşları, bütün mədəni dəyərləri və dini abidələri mənimsəməyə başlayıb. Güclü himayə altında olduqlarını görən tayfa həmin məkrli layihənin icrasında əxlaq, şərəf, vicdan normaları tanımadan hər vasitəyə əl atıb. Azərbaycan xalqına qarşı planlı soyqırımı, deportasiya, terror savaşları açıblar.

Öz yalanlarını kütləvi şüura ən təsirli vasitə olan dini inanc üzərində quran saxtakarlar ali məqsədə çatmaq üçün müasir Azərbaycan xalqının soykökündə var olan və Qarabağ daxil ətraf ərazilərdə yaşamış qədim albanların irsini mənimsəməyi ən asan yol görüblər. Dünya xristianlığını aldatmaqdan belə çəkinmədən, sahibsiz qalan alban kilsələrini, monastırları, dini məbəd və abidələri “özəlləşdiriblər”. Xristian xalqlarının rəğbətini, dövlətlərinin dəstəyini qazanmaq üçün “sarsaqlar” özlərini, guya, “Qafqazda xristianlığı ilk yayan tayfa” kimi qələmə veriblər. Halbuki, Qarabağdakı kilsələr, monastırlar, məbədlər, əslində, Qafqazda ilk xristianlığı qəbul edən Azərbaycan Albanlarına məxsusdur. Bu kilsə və monastırları ərəb işğalından qabaq xristian albanlar tikib, orada dini ayinlər icra ediblər. Ermənilər isə yalnız çox sonralar bu ərazilərə köçüb məskunlaşanda xristian azərbaycanlılara məxsus abidələri öz adlarına çıxıblar. Daha doğrusu, torpağımız, musiqimiz, mətbəximiz, adlarımız, sözlərimiz kimi, adətləri üzrə onları da oğurlayıblar.

Məhz dini motivlər səbəbindən “Miatsum” hərəkatı güclü xristian dövlətlərinin hərtərəfli dəstəyini aldı: maddi, mənəvi, hərbi, siyasi, diplomatik, maliyyə və s. Davamlı, mütəmadi, ardıcıl erməni təbliğatı sayəsində xarici güclər belə bir əfsanəyə inandırıldılar ki, sən demə, “Qafqazda ilk xristianlar ermənilər imiş və indi oradakı ilk xristian abidələrini fədakarcasına qoruyurlar.” Bununla da “xristian qardaşlığı” zəminində dini təəssübkeşlik nümayiş etdirməyi, “zavallı erməniləri vəhşi müsəlmanlardan qorumağı” özlərinə borc biliblər.

Bizim xalqın İslamdan öncəki dövrünə aid olan xristian abidələrinin digər ərazilərdə, Qəbələ, Naxçıvan, Mingəçevir, Qazax, Tovuz, Şamaxı bölgələrində də mövcudluğunu nəzərə alsaq, demək olar ki, əgər bu müharibədə “Dəmir yumruq” düşmənin başını əzməsəydi, onların iştahı daha da artacaq, həyasız iddiaları təkcə Qarabağla məhdudlaşmayacaq, digər ərazilərimizin də üzərində bayquş kimi ulaşma quracaqdılar... Tez-tez həyasızcasına səsləndirdikləri “Naxçıvan daxil Gəncəyə, Bərdəyə, Kürə kimi bizimdir” sərsəm iddiaları heç də təsadüfi deyildi.

Amma fələk başqa cür saydı... Uzaq əsrlərdən bəri davam edən uydurma “Dənizdən–dənizə” əfsanəsi 2020-ci ilin payızında “cəhənnəmə vasil oldu”. 44 günlük Vətən müharibəsi zamanı “Dəmir yumruq” o “sehirli açarı” düşmənin əlindən vurub saldı. Yüzillər sonra qazandığımız Zəfər, nəhayət, dini və dünyəvi ədaləti, tarixi həqiqəti bərpa etdi!

***

Biz tarixin dərslərini heç vaxt unutmamalıyıq. Vaxtilə qədim yurd yerlərimizin parçalanıb bölüşdürüldüyünü, yuxarı-aşağı paylandığını, millətimizin zaman-zaman qanlı terrora, vəhşi soyqırımına, əzablı deportasiyalara məruz qaldığını yaddan çıxarmamalıyıq. Bilməliyik ki, əgər əvvəllər olduğu kimi, yenə də keçmişi unudub erməni göz yaşlarına inansaq, “dostluq” şərqiləri oxumağa başlasaq, saxtakar və hiyləgər düşmən öz əməllərinə davam edəcək. Bizi yox etmək, dövlətimizi və xalqımızı məhv etmək üçün arxamızda yenə işlər çevirəcək, əleyhimizə xəlvəti planlar quracaqlar. 50 il, 100 il, 200 il əvvəllərdə olduğu kimi...

Dünyada yaşayan 50 milyonluq Azərbaycan xalqının hər bir qeyrətli üzvü bu həqiqəti unutmamalıdır. Hamı eyni amala tapınmalıdır: “Dəmir yumruq” kimi möhkəm olub, bir olub, birləşib xalqı, Vətəni, dövləti pisliklərdən qorumaq!

***

İndi işğaldan qurtulan Qarabağda böyük quruculuq işləri gedir. Dövlət qurumları əzmlə və sürətlə dağıdılan əraziləri bərpa edir, şəhərləri, kəndləri dirçəldir.

Bu prosesdə ziyalıların da iştirakı, təbii ki, vacibdir. Sənət adamları gözəl Qarabağ haqqında, əsrarəngiz Şuşa haqqında, 44 günlük müharibə haqqında, ordumuz, qələbəmiz, əsgərlərimiz, şəhidlərimiz və qəhrəmanlarımız haqqında dəyərli bədii-sənədli əsərlərlə bu prosesə qatılmalıdırlar. Müasir inkişaf etmiş Azərbaycanın və müzəffər xalqımızın obrazı olduğu kimi təsvir edilməli, milli özəlliklərimiz, mənəvi-mədəni dəyərlərimiz bədii ifadə vasitələri ilə, zövqlü şəkildə dünyaya çatdırılmalıdır. Mədəniyyətin hər sahəsində, o cümlədən, ədəbiyyatda, kinoda, teatrda, rəssamlıqda, musiqidə, mətbuatda, tele-radioda yüksək səviyyəli, istedadlı əsərlərin meydana gəlməsi vacibdir. Müzəffər qəhrəman əsgərlər kimi, əsl yaradıcı sənət adamlarının da aktual mövzularla Vətənin və xalqın xidmətində olması şərəf borcudur.

*Akif ƏLİ,*
*Əməkdar jurnalist, fəlsəfə doktoru, yazıçı-publisist*

# Zəfər fəlsəfəsi haqqında düşünərkən...



## Qələbəyə aparan siyasi iradə

**Prezident İlham Əliyevin uğurlu lider obrazı siyasətdə müdrikliyin miqyasını daha da dolğunlaşdırdığı üçün bir sıra məqamların izahına ehtiyac duyulur. O, qlobal problemləri şərh edərkən, dünyada insan haqlarına olan laqeyd münasibətin, işğalçılıq, separatizm, ayrı-seçkilik və ikili standartların bəşəriyyətin təhlükəsizliyinə təhdid olduğunu bir çox liderlərin dilə gətirmədiyi zamanda bəyan etmişdir. Yaxud multukulturalizm, tolerantlıq ənənələrinin bəşəriyyətdə birgəyaşayış, sülh və əməkdaşlıq üçün alternativsiz seçim olduğunu, sözün əsl mənasında, dünyaya qəbul etdirməklə, əslində, inkişafın yeni model prinsiplərini irəli sürmüşdür. Bu, o zaman idi ki, irqi, dini ayrı-seckiliyi, terrorizmi bəzi dövlətlər dəstəkləyir, ondan kənarda inkişaf modelini görə bilmirdilər. Lakin Azərbaycanın bu sahədə örnək olan addımları və onların nəticələri praktiki nümunə kimi hətta müharibələrin də sülh üçün aparılmalı olduğunu təsdiq etdi.**

Ancaq "geosiyasi realizm" doktrinasını rəhbər tutan, böhranlar yaratmaq ənənəsindən, vərdişindən uzaqlaşa bilməyən bəzi siyasi güclər bir çox stereotiplərdən ayrıla bilmədiklərini də gizlədə bilməmişlər. Prezident İlham Əliyevin siyasi xarizması Azərbaycanın iradəsinin nəyə qadir olduğuna dair bir sıra qüvvələrin yenidən düşünməli olduqları zərurətini anlatdı. İndi demək tam yerinə düşür ki, Azərbaycanın yaratdığı reallıqların hazırkı dünya nizamında sabitlik və inkişaf üçün analoqsuz model olduğunu inkar etmək mümkün deyil. Bu baxımdan istər Vətən müharibəsinədək olan dövrdə, istərsə də postmüharibə dövründə Prezident İlham Əliyevin Azərbaycanın iradəsini ifadə edən yeni reallıqların beynəlxalq aləm üçün əhəmiyyətini şərh edən nəzəri praktiki baxışlar sistemi məsələdə əlavə suala yer qoymamışdır. Deməli, Prezident İlham Əliyevin əməli fəaliyyəti və baxışlar sistemi güclü lider və güclü dövlət anlayışının cəmiyyətin tərəqqisi naminə tam bərqərar edilməsini təmin edən müasir elmi-siyasi nəzəriyyəyə sahibdir.

Daha vacib məsələ bütün təhlükəli tendensiyaları zərərsizləşdirmək üçün aparılan daxili siyasətin legitimliyi və onun ideoloji, milli hədəflərinin düzgün dərkidir. Azərbaycanın sülh strategiyasından irəli gələn Vətən müharibəsi, bir tərəfdən xalqın qəhrəmanlıq əzmini, onun mübarizliyini göstərdisə, digər tərəfdən milli maraqlarımızın ifadəsini həyata keçirən siyasətin xalq tərəfindən aldığı layiqli qiyməti sübut etdi.

Azərbaycan tarixinin bu mərhələsi ardıcıl islahatlarda hədəflərə tam nail olma dövrü kimi ona görə şərtlənməlidir ki, o sosial sferanın bütün tələblərini effektli şəkildə təmin edə bilmiş, vətənçilik anlayışında vahid milli ideologiyadan doğan milli özünündərk prosesinin şüurlu şəkildə tam dərkinə nail olmağın nəticəsini göstərmişdir. Bu isə cəmiyyətin sabitliyinə hədəflənmiş uğurli islahatların ideoloji baxımdan milli effektliliyinin nəticəsində mümkün olan prosesdir.

Təcrübə göstərir ki, milli özünüdərkin ən mühüm elementi kimi yaradılan milli ideologiyanın xalqın milli potensialı ilə vəhdətini daxili siyasətin legitimliyindən kənarda təsəvvür etmək mümkün deyildir. Vətən müharibəsi xalqımızın milli ideologiyaya əsaslanan gücünün ifadəsini ümumxalq iradəsinin ayrılmaz hissəsi kimi göstərməsi də bu siyasətin möhkəm sosial bazasının göstəricisidir.

Dünyaya nəzərən mövcud siyasi situasiyaların təhlili göstərir ki, Prezident İlham Əliyevin ölkədə çevik idarəetmə və praqmatik siyasi sistemin qurulmasındakı fəaliyyəti öz legitimliyini konkret əməli nəticələri ilə təsdiq edib. Cəmiyyətdə proseslərə yanaşmalar müxtəlif ola bilər, lakin milli maraqlarımızın hədəflərində reallığa çevrilən nəticələrin nəinki ölkəmiz üçün, region və dünya üçün əhəmiyyətinin elmi əsaslarla təsdiqini tapması bu siyasətin Azərbaycanı cahanşümul inkişafın avanqardına çevirdiyini tam təsdiq edir və qələbələrin kökündə bu amilin müstəsna rolu vardır.

### Tarixi Zəfər və dialoq

Bütün bunların məntiqi davamı kimi, tarixi Zəfər öz fəlsəfi mahiyyəti ilə cəmiyyətin düşüncə sisteminə güclü təsir imkanları yaratdı. Elə bir prosesin zəruriliyini təmin etdi ki, o, bəzən əsrlərlə formalaşması mümkün olmayan siyasi sistemin vahidlik prinsipinin, cəmiyyətdə dialoqun, ideoloji təfəkkür sisteminin milli iradə və milli gücün təmin olunmasındakı müstəsna rolunu müəyyən və təmin etmiş oldu. Çünki, yeni siyasi konfiqurasiya cəmiyyətin bütün təbəqələrini ortaq fikrə gətirən, məqsəd baxımından mövcud ideyaların ümummilli məsələ olduğunun dəyərləndirilməsini zəruri edən ardıcıl siyasi xətlə müşayiət olunur. Bu reallıq siyasi dialoq zamanı da ölkəmizin inkişafı naminə atılan addımlarda bir sıra xarakterik xüsusiyyətlərin önə çıxması ilə təsdiqlənir.

Məsələn, "Siyasi partiyalar haqqında" Qanunun yeni reallıqları əks etdirməsi kimi müstəsna əhəmiyyəti ilə yanaşı, həm də sübut edir ki, siyasi dialoq ölkənin siyasi partiyalarının, siyasi təsisatlarının qarşıya qoyduğu məqsəd və vəzifələrinin ümummilli mənafe baxımından birləşmələri üçün çox mükəmməl vasitədir. Bu istiqamətdə Azərbaycanın təcrübəsi deməyə əsas verir ki, o, milli iradənin gücünü və tamlığını Zəfər fəlsəfəsində birləşdirmişdir.

Əslində, xalqın, dövlətin, xüsusilə dövlətçiliyin inkişafı üçün partiyaların ortaq ideoloji istiqamətdə birləşmə təşəbbüsləri o zaman baş verir ki, legitim idarəçiliyin və avanqard partiyanın milli gücü ifadə edən nəticələri olsun. Bu nəticələr cəmiyyət tərəfindən tam qəbul edilsin.

Bu nöqtəni axtararkən məlum olur ki, ümumiyyətlə, siyasi dialoqu ulu öndər Heydər Əliyevin dövlətçilik konsepsiyasından kənarda təsəvvür etmək mümkün deyil. Tam əsaslıdır ki, son onilliklərdə siyasi partiyaların qarşıya qoyduğu hədəflər Azərbaycanın inkişafı yolunda vahid milli iradənin tamlığını məhz bu kompleksdə tapıb.

Siyasi dialoq zamanı siyasi partiyalar və birliklər diqqəti o hala yönəltməlidirlər ki, Azərbaycanın dövlətçilik konsepsiyasında irəli sürülən nəzəriyyə artıq praktiki cəhətdən möhkəm strategiyanın effektivlik mərhələsini tətbiq edə bilib, daha böyük hədəflərə qadir olduğu kimi proqramı qarşıya qoyub. O, uzunmüddətli dövlətçilik ideologiyasında milli istəyi, sosial sifarişin xarakterini, dialoq mədəniyyətinin forma və metodlarını bir arada tətbiq edərək güclü sosial bazaya sahibdir. Vətən müharibəsində Lider-Xalq-Ordu birliyinin Zəfər marşı bu düsturun nəticələrinin cəmiyyətimiz üçün tam aydın və şəffaf olduğunu sübut etdi.

Bütün bunlar göstərdi ki, ölkəmizdə Vətən müharibəsinə qədər aparılan islahatlar konsepsiyasında da sağlam münasibətlərin tənzimlənməsinə yönələn təşəbbüslər yeni siyasi mühitin formalaşmasına açılan imkanlar, siyasi partiyaların dövlətçilik, demokratiya, milli təəssübkeşliyin formalaşdırılması yolunda birliyə dəvət edilməsi Qələbə üçün zəmin yaratmışdır. Açıq etiraf edilməlidir ki, siyasi mühitdə indiyədək heç bir siyasi qüvvənin iradəsi bu səviyyədə ümummilli istəyi ifadə edə bilməmişdir. Ona görə də bu siyasət, bütövlükdə, cəmiyyətimizin dialoq tələbatını təmin etdi. Biz hesab edirik ki, siyasi partiyalarla parlament və ekspertlər arasında dialoqun yeni reallıqlar əsasında formalaşması da bu əsaslarla yeni mütərəqqi islahatlara yol açacaqdır.

Bu gün siyasi partiyalar öz qarşılarına qoyduqları vəzifələrdə bir reallığı qəbul etmək məcburiyyətindədirlər ki, hətta, ən kiçik partiyaların anlaşılmaz radikal istiqamətlərə yönəlməsi, ictimai mühitə və digər partiyalara bu əsasda təsir etmək istəkləri dialoq üçün qəbuledilməzdir. Cəmiyyətimizin mövcud sosial-siyasi düşüncələr sistemi də artıq bunu qəbul etmir. Xüsusilə Vətən müharibəsində qazanılan şanlı Qələbədən sonra cəmiyyətimizin bütün təbəqələri vahid milli təfəkkür üzərində cəmləşməni özü sosial sifariş olaraq tələb edir. Anlamaq çətin deyil ki, cəmiyyətimizin istəkləri ona görə əsaslıdır ki, indiyədək qarşıya qoyulan ideyalar artıq nəzəriyyədən reallığa çevrilmişdir. Bu da sosial sifarişin mövcud siyasətdə özünütəsdiqidir. Çünki güclü lider, milli şüura təsir edən güclü ideologiya və siyasi dialoq bir arada tam qələbəyə aparan yoldur.

### Dünya tarixinin gedişinə təsir edən siyasi lider

Məlumdur ki, Azərbaycan xalqının Vətən müharibəsi haqq-ədalət müharibəsi idi və onun milli şüura böyük təsiri vardır. Belə həlledici mərhələ nəinki milli birlik üçün əvəzssiz fürsətlər yaradır, həm də millətin malik olduğu potensialı üzə çıxarır. Vətən müharibəsində Azərbyacanın Qələbəsini təsdiq edən 2020-ci ilin 10 noyabr Bəyannaməsi, əslində, postmüharibə dövründə növbəti uğurlu addımların hüquqi və siyasi bazasını təmin etdi. Məlum oldu ki, bu ümumxalq qələbəsində və ondan sonrakı qələbələrdə Prezident İlham Əliyevin müdrik diplomatik manevrlərinin fəlsəfəsinin dərki prosesi hələ uzun zamanlar təhlil ediləcəkdir.

Beynəlxalq aləmi yuz illərlə aldadan, saxta mifoloji don geydirilmiş erməni güclərinin dağıdılması və ona himayədarllq edən qüvvələrin ifşa olunmasını təmin edən tarixi Qələbədən sonra məlum oldu ki, erməni məkrli niyyətinin millətçi, revanşist və terrorcu xisləti Azərbaycanın qarşısında yeni tarixi missiya qoyub. Bu missiyanı çoxlarının güman etmədiyi, dərk etmədiyi zamanda və şəraitdə Prezident İlham Əliyevin yenilməz iradəsi elə yerinə yetirdi ki, o, xalqımızın yüzilliklər boyu pozulmuş milli haqqını özünə qaytardı. Tarixin ədalət mizanı yerinə qaytarıldı. Onun məntiqi sonluğu Azərbaycan ərazilərinin erməni terrorçularından birdəfəlik təmizlənməsi və Xankəndidə Azərbaycan Bayrağının dalğalanması kimi, möhtəşəm şərəf tariximizin xalqımıza bəxş olunması idi. Qələbənin fəlsəfəsində isə biz növbəti dəfə dünyaya yeni reallıqlar gətirən– humanizm prinsiplərinə yeni baxış bucaqları, yüksək diplomatik bacarıq, sülh və ədalət prinsiplərinə yeni yanaşma və sadiqlik, nəhayət, bəşəriyyəti xəstə təfəkkürlərin təsirindən xilas olmaq çağırışları görürük. Azərbaycan xalqı qarşısında bu mühüm tarixi missiyanı uğurla yerinə yetirməsi ilə Prezident İlham Əliyev şəxsiyyəti dünya tarixinin gedişinə təsir edən siyasi liderlər icərisində örnək olacaq qəhrəmanlığın, müdrikliyin ən yaxşı nümunəsinə çevrilməsi tam təbii və haqlıdır. İndi biz tarixi Qələbənin nəticələri ilə gələcəyə olan baxışların strateji hədəflərini müəyyən etməliyik.

Zəfərin mübarək, Azərbaycan!
Zərəfin mübarək, Ali Baş Komandan!

***İlham MƏMMƏDZADƏ,***
***AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru, fəlsəfə elmləri doktoru, professor***

***Sənan HƏSƏNOV,***
***YAP ərazi təşkilatının sədri, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent***

# Qarabağ Zəfərinin iqtisadi təməlləri

## Düşməni diz çökdürən "Dəmir yumruq" bu özül üzərində yüksəldi

**Qarabağ Zəfərinin əsası 1993-cü ildə Ümummilli lider Heydər Əliyevin xalqın təkidi ilə yenidən Azərbaycan rəhbərliyinə gəlməsi ilə qoyuldu. Dahi şəxsiyyətin Bakıya dönüşü xalqın tələbi idi. Çünki ölkədə siyasi, sosial-iqtisadi böhran yaşanırdı, eyni zamanda, erməni faşizmi torpaqlarımızı addım-addım işğal edirdi.**

Xalq isə bu problemləri aradan qaldıracaq qüvvənin Heydər Əliyev olduğunu yaxşı bilirdi. Başqa sözlə, ölümlə olum arasında çarpışan bir ölkəni reanimasiya etmək, onu düşdüyü dərin böhrandan çıxarmaq gücü yalnız dahi lider Heydər Əliyevə məxsus idi. Ümummilli lider siyasi təcrübəsi, uzaqgörənliyi və sarsılmaz iradəsi sayəsində ölkəni vətəndaş müharibəsi təhlükəsindən və ictimai-siyasi xaosdan qurtardı, Azərbaycan dövlətçiliyini, iqtisadiyyatını dağılmaq, məhv olmaq təhlükəsindən xilas etdi.

1994-cü ildə Heydər Əliyevin neft strategiyasının reallaşdırılmasını gerçəkləşdirən "Əsrin müqaviləsi"nin imzalanması isə xalqımızın öz maddi sərvətlərinin, o cümlədən neftin həqiqi sahibi kimi çıxış etməsinin təntənəsinə çevrildi. Həmin vaxtdan başlayaraq aparılan ardıcıl və məqsədyönlü islahatlar nəticəsində ictimai-siyasi sabitliyin təmin olunması, istehsalda yaranmış geriləmə proseslərinin qarşısının alınması iqtisadi tənəzzülün tədricən aradan qaldırılması ilə nəticələndi. Bununla da Azərbaycanın iqtisadi inkişafının keyfiyyətcə yeni mərhələsinin təməli qoyuldu.

Əldə olunan makroiqtisadi sabitlik, sənayedə və digər sahələrdə iqtisadi göstəricilərin artımı, həyata keçirilən genişmiqyaslı iqtisadi islahatların ilkin nəticələri aparılan siyasətin düzgünlüyünün və bazar iqtisadiyyatı yolunda inamlı addımların təsdiqinə çevrildi.

Beləliklə, Ulu öndər hakimiyyətə qayıdaraq Azərbaycanın parçalanmasının



qarşısını almaqla, siyasi hərc-mərcliyə son qoymaqla, daxili sabitliyi, əmin-amanlığı, təhlükəsizliyi gücləndirməklə ölkəni yeni dinamik inkişaf yoluna çıxardı. Müzəffər Silahlı Qüvvələrin yaradılmasının əsasını yaratdı, Qarabağın xilası konsepsiyasını hazırladı.

Artıq 20 ildir ki, Ümummilli lider Heydər Əliyev siyasi kursunun layiqli davamçısı cənab İlham Əliyevin apardığı uğurlu daxili və xarici siyasət nəticəsində Azərbaycan bu gün dünyada qüdrətli dövlət kimi tanınır. Ötən müddətdə keçid iqtisadiyyatını arxada qoyan Azərbaycanda həyata keçirilən mükəmməl islahatlar konsepsiyasının müəllifi kimi Prezident İlham Əliyev müasir Azərbaycanın iqtisadi inkişaf modelini yaradıb və bu model dövlətimizin ümumi siyasətinin ayrılmaz tərkib hissəsi olmaqla, respublikamızın iqtisadi tərəqqisinə, dünya birliyində mövqeyinin köklü surətdə möhkəmlənməsinə, inkişaf etmiş güclü dövlətlər sırasında yer almasına zəmin yaradıb.

Ölkənin iqtisadi inkişafının davamlı olmasını özünün iqtisadi siyasətinin təməl prinsipi kimi dəyərləndirən Prezident İlham Əliyev güclü iqtisadiyyatın önəmini belə vurğulayıb: "Əgər iqtisadi gücümüz olmasaydı, bu Qələbəni əldə etmək mümkün olmazdı. İlk növbədə, iqtisadi müstəqillik təmin edilməli idi və təmin edildi. Bu gün Azərbaycan iqtisadi cəhətdən heç kimdən asılı deyil, heç bir ölkədən asılı deyil, heç bir beynəlxalq maliyyə qurumundan asılı deyil".

Prezident İlham Əliyevin rəhbərliyi ilə ötən 20 ildə aparılan uğurlu islahatlar nəticəsində Azərbaycan iqtisadiyyatı 4 dəfədən çox böyüyüb, qeyri-neft sektorunda istehsal olunan ümumi daxili məhsulun (ÜDM) nominal həcmi 16 dəfə, dövlət büdcəsinin gəlirləri 30 dəfəyə qədər, Dövlət Neft Fondunun strateji valyuta ehtiyatları isə 67 dəfədən çox artıb. Əgər 2003-cü ildə dövlətimizin xarici borcunun ÜDM-də payı 21,6 faiz idisə, keçən il həmin rəqəm 9,5 faiz təşkil edib. Bu göstərici ilə Azərbaycan dünyanın ən az borclanan ölkələri siyahısında ilk yerlərdə qərarlaşıb. Bütün bunlar Azərbaycan Prezidentinin rəhbərliyi ilə sözügedən dövrdə əldə olunan iqtisadi uğurların ümumi mənzərəsini əks etdirir.

Azərbaycan Qarabağın Zəfər salnaməsini özünün güclü iqtisadi sistemini qurmaqla yaza bildi, 44 günlük müharibədə milli ideyası olan ərazilərinin bütövlüyü uğrunda "dəmir yumruğ"a çevrilərək işğalçıya qalib gəldi, haqq və ədaləti bərpa etdi.

Məhz güclü iqtisadiyyat ölkəmizin dinamik inşafı üçün geniş maliyyə imkanları yaratdı və respublikamızda dünyanın ən güclü ordularından birinin qurulması gerçəkləşdi. Prezident İlham Əliyev ulu öndərin iqtisadi siyasətini və onun tərkib hissəsi olan neft-qaz strategiyasını uğurla davam etdirərək Azərbaycanı Avropanın enerji təminatçısına çevirdi. Bu uğurlar beynəlxalq siyasi müstəvidə respublikamızı söz sahibinə çevirdi.

Azərbaycan işğaldan azad etdiyi Qarabağı və Şərqi Zəngəzuru cəmi 3 il ərzində möcüzələr diyarına çevirib. Cəmi 3 il əvvələ qədər bir həyat nişanəsi belə tapmaq mümkün olmayan bu ərazilər indi meqalayihələrin gerçəkləşdirildiyi, nəhəng layihələrin reallaşdırıldığı unikal məkana çevrilib. 30 illik işğal dövründə mənfur düşmənin xaraba qoyduğu torpaqlarımıza yeni nəfəs verilib, vəhşicəsinə viran olunan təbiət yenidən canlandırılıb.

Bu gün Qarabağ və Şərqi Zəngəzurda müasir infrastruktur layihələri həyata keçirilir, dəmir və avtomobil yolları salınır, tunellər çəkilir, elektrik enerjisi, su təchizatı və digər mühüm layihələr gerçəkləşdirilir, "ağıllı kənd və şəhərlər" salınır. Artıq bu ərazilərdə iki beynəlxalq hava limanı – Füzuli və Zəngilan aeroportları tikilərək istifadəyə verilib. Laçın Beynəlxalq Hava Limanının isə inşası həyata keçirilir.

Tarixi yurdlarımızda həyata keçirilən bütün bu işlərə şəxsən nəzarət edən dövlət başçısı İlham Əliyev mütəmadi olaraq həmin bölgələrə səfərlər edərək yeni təməllər qoyur, açılışlar edir.

***Fikrət YUSİFOV,***
***iqtisad elmləri doktoru, professor***

# Ən gözəl səhər

## *Sübhün alatoranından Şuşaya aparan yol görünürdü...*



**Vətən müharibəsindən əvvəl ön xətdə, səngərlərdə əsgərlərlə müxtəlif vaxtlarda söhbətləşmişik. Günün nizam qaydalarına mane olmamaqla. Döyüş növbətçiliyindən qayıdanlarla da, az sonra döyüş növbətçiliyinə gedəcək əsgərlərlə də söhbətlərimiz “Necəsiniz?”lə başlayardı, ancaq bitməzdi. Hər dəfə növbəti görüşə vədələşərdik. Onda döyüşlərdən, işğala son qoyulmasından danışardıq, növbəti görüşümüzdə qazanılacaq Qələbədən danışacağımıza əminliklə sağollaşardıq.**

Gün yaxa-yaxda da, gecələr hərdən görünən, hərdən buludların daldasına çəkilən Ayın, gah tənhalaşan, gah bir-birinə yaxınlaşan ulduzların o qədər də gur olmayan işığında da əsgərlər qətiyyətlə “Səngərləri sərhədlərə köçürəcəyik!” – deyirdilər. Onda bu qüdrət kəlmələrin gecənin içindən keçib haracan gedəcəyi haqqında zərrəcə düşünmürdük; duru niyyətlər müqəddəslik mərtəbəsinəcən çatır.

Əsgərlərdən biri Birinci Qarabağ müharibəsinin iştirakçısı olmuş babasının bir döyüş təəssüratını xatırlamışdı:

– Döyüşə hazır idik. Niyəsə, döyüş əmri verilmirdi. Gecə uzandıqca uzanırdı. Yaz gecəsinin həlimliyində ləng ötüşən vaxta görə gileylənirdik. Dan yeri söküləndə hazırlıq əmri verildi. Səhər açılar-açılmaz hücum. O səhər gözəl səhər idi. O səhər bizə qələbə vəd edən səhər idi. Əsgərlərin qarşı yaxaya yönələn baxışları bir-birinə sarılmışdı. Bu vəhdətdə güc görmüşdüm, qüdrət görmüşdüm. Bu doğma baxışların diləyini başa düşmək çətin deyildi: Açılan səhərimiz gözəl səhər olsun! Gözəl istək idi və bu gözəl istəyi dan yeri sökülən səhərə niyyət duası bilmişdim...

2020-ci il 27 sentyabrda hücuma keçən düşmənə atılan güllələr, mərmilər hücumu dayandırmaq istəyinin güllələriydi. 28 sentyabr səhəri atılan güllələr, mərmilər işğalı sonlandırmaq üçün başlayan Vətən müharibəsinin güllələriydi, mərmiləriydi; niyyətlərin səhəriydi 28 sentyabr səhəri, döyüş əzminin, qələbə ruhunun səhəriydi, şəhidlərin ruhunun harayına boy göstərən səhəriydi, qorxuya, səksəkəyə dönüb düşmənin canına daraşası qüdrətin səhəriydi, “Bir ovuc torpaq da Vətəndir!”, “Dövlət sərhədlərimizin bu üzündə səngər olmayacaq!”, “Şuşaya aparan yollar görünür!” – deyənlərin səhəriydi...

İşğaldan azad edilmiş ərazidə əsgərlərin əhatəsindəydim. Əsgərlər müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu Elşad Səlimovun döyüş təəssüratlarını neçə dəfə eşidiblər. Bizimlə nəfəs-nəfəsə eşitmək də onlara xoş gəlir. Dinləyirlər, həsəd apardıqları aydınlığıyla hiss olunur. Müqəddəs döyüşlərdə mahiyyətli söhbət indi də könül xoşluğu gətirir.

1992-ci ilin 31 dekabr gecəsi Tərtərdə Pənahla, Fəğanla düşmənin “beş-on addımlığında” postda dayanan əsgələrlə könül söhbəti edirdik. “Gecənin içindən keçib ermənilərin postunu darmadağın edərik. Səhərə yaxın dayaq mıntəqələrini. Yəni bir gecədə bir döyüşlük yolu yarılayarıq. Döyüş əmri olsa gecəni gündüz bilib döyüşərik, döyüş əmri olsa səhərimiz qələbəylə açılar...”, – əsgərlərdən biri belə demişdi. Göy üzünə baxmışdıq. Sonra qarşı tərəfə. Qarşı tərəfdə üzücü səssizlik vardı.

Mənə elə gəlmişdi ki, burada xırdaca bir tərpəniş olsa, orada kimsə qalmayacaq; düşmənin səksəkəylə xidmət edən əsgərləri gecələrin səhərini səksəkəylə açırdı. O əsgərlər Vətən müharibəsində xidmət edənlərin atalarına belə gecələrin necə uzandığını, necə keçdiyini, belə gecələrin səhərlərinin necə açıldığını danışıblar. Bunları eşidənlər, düşüncələrinə hopduranlar əsgər olanda ön xətdə xidmət edirdisə, günlərinin aya döndüyünə, aylarının il qədər uzandığına zərrəcə şübhəm yoxdu.

2020-ci ilin sentyabrın 27-də hücuma keçəndə də, Azərbaycan ordusunun bölmələrinin ciddi müqaviməti ilə üzləşəndə də, az sonra gücündən çəkindiyi ordu əks-hücuma keçəndə də düşmənin əsgərlərinin, zabitlərinin barmağı tətik sıxanda titrəyib. Belə titrəyişlər onun müdafiəolunma instiktini, hərbi bacarığını üyüşdürüb. Geri çəkilə-çəkilə döyüşüb (döyüşməsə güllələnmə qorxusu yaşayıb). Azərbaycan ordusu qətiyyətli hücumla düşmənin müdafiə sədlərini darmadağın etdi. İlkin qələbələr düşmənin əsgərlərinin olan-qalan müdafiəolunma istəyini əzirdi. Düşmənin özü də etiraf edirdi ki, əsəgərləri bəzən döyüşdən yayınır. Bu yayınma döyüşdən imtina səviyyəsində yayınma idi.

Səhərin açılması məfhumu mənə ötən il döyüşçülərdən eşitdiyim bir döyüşü xatırlatdı.

Şükürbəylinin yaxınlığındaydılar. Səhərin açılmasını gözləyirdilər. Orxan Qədirovun rəhbərlik etdiyi bölmə böyürtkən kollarının arxasındaydı. Bu, döyüşçülərin hərəkətini bir qədər məhdudlaşdırırdı. Orxan ratsiya ilə sol cinahda olan Sirac Siracovun manqasına bildirdi ki, atəşi öz üzərinizə çəkin, biz manevr etməyə məcburuq. Belə də etdilər. Orxangilin bölməsi manevr etdiyi anlarda düşmən snayperi Rahili vurdu. Orxan bunu duyunca özünü yaralı döyüşçüyə yetirdi. Ülfət Qasımov ordaydı. Rahilə ilk tibbi yardım göstərirdi. Dövran yaralını kürəyində döyüşün içindən çıxardı. Kolluqdan çıxdıqları anda düşmən snayperi Dövranı sinəsindən vurdu. Dövran döyüşçü yoldaşını təhlükəsiz yerə çatana kimi kürəyindən yerə qoymadı. Oraya çatanda yıxıldı...

Düşmən bütün silahlarından atəş açırdı. Tank əleyhinə reaktiv qumbaraatandan da. Ramiq Dövranın köməyinə tələsdi. Mövqedən çıxdığı anda ayağına güllə dəydi...

Orxanın əmri ilə birinci manqa mövqedə qalıb döyüşü davam etdirməli, digər manqa yaralıları təxliyə etməliydi. Ziyagil manqa ilə sağdan, Orxangil qarşıdan, Siracgil isə soldan yaxın məsafədən atışırdı. Snayperlər yüksəklikdə döyüşçülərimizin mühafizəsinə cəlb olunmuşdu. Sirac da, Zakir də yaralanmışdı. Vüsal onlara ilk tibbi yardım göstərirdi. Düşmən döyüşçülərimizin döyüş əzmini, qələbə ruhunu sarsıda bilməzdi. Döyüşü az sayda döyüşçüylə davam etdirdilər – üç yaralı, yaralıları təxliyə edənlər döyüşə bilmirdi. Qarşı tərəfə atılan güllələr sanki bir mətləbin carçısıydı: Mərə yağı, sən Azərbaycan əsgərinin qüdrəti qarşısında diz çökəcəksən!

**Tab gətirə bilməyən düşmən qaçdı... Gözəl bir səhər açıldı…**

Belə səhərlər Azərbaycan əsgərinin döyüş əzmini də kükrədirdi, qələbə ruhunu da. Belə səhərlərin xoş ovqatı məmləkətə ən gözəl səhər vəd edirdi. O səhəri Azərbaycan əsgəri yetirəcəkdi. Onda hamımız döyüşçülərə ünvanlanan bir alqış eşidəcəkdik: Surunuz yerisin! Bu alğış Dədə Qorqudun alğışı olacaqdı. Bu alğış 16 əsrdi dövlətçilik yolunda, torpaq yolunda möhtəşəm Zəfər qazananlara ünvanlanıb.

Şuşanın yaxınlığında kiçik qruplarla döyüşür, döyüş-döyüş Şuşaya – Qələbəyə yaxınlaşırdılar. Səlim Rəhimdən bir qədər qabaqda, sağ tərəfdə döyüşürdü. Düşmən inadla müdafiə olunurdu. Səlim Rəhimin atışının seyrəldiyini hiss edəndə gümanları onu arxaya – Rəhimin yanına çəkirdi. Atışa-atışa geriyə süründü. Rəhimin sağ çiynindən qan axırdı. Tələsik yaralı döyüşçünü bir qədər arxaya çəkdi, dəsmallarıyla yarasını sıxdı. Qanı belə dayandıra bilməyəcəkdi. Onu döyüşün işindən çıxarmaq üçün sağ qolunu boynunun altına saldı, sol əliylə dəsmalı döyüşçünün bədəninə sıxdı. Bir-iki addım çəkilməmişdilər ki, səntirlədi, sol döşünə güllə dəymişdi...

Səlimin sağ qolu Rəhimin boynunun altındaydı, Rəhimin sol qolu Səlimin boynuna toxunurdu. Səlimin son nəfəsi Rəhimin son nəfəsinə kəfən olmuşdu...

Dünən gözəl bir səhər yaşamışdılar – düşməni əhəmiyyətli bir yüksəklikdən sıxışdırıb çıxarmışdılar. Üç gündən sonra ən gözəl səhəri ruhları salamlayacaqdı...

Elvin Şükürlü vardı. Baş leytenantıydı. Xidmət etdiyi hərbi hissə Murovdağ istiqamətində döyüşürdü. Əsgər Samir Qasımovun döyüşdən əvvəl dedikləri hamısının döyüş əzmini, qələbə ruhunu coşdurmuşdu: "Şəhid olsam, qisasımı alsanız, ruhum sizə alqışçı olar..."

Elvin əsgərin qisasını alacağına and içmişdi. Qisas günü çatıbmış...

Dan yeri sökülməkdəydi. Səssizcə düşmənin mövqeyinə düşdü. Qarşısına çıxan düşməni səssizcə boğdu, sonra yaxınlaşan başqa düşməni boğdu, sonra üçüncünü, dördüncünü ... Boğduğu beşinci düşmən avtomatın tətiyini sıxmağa macal tapdı...

Azərbaycan ordusu 2020-ci il noyabrın 8-də tarix yazdı. Onda bir məqalə yazmışdım: ”Yazdığınız tarixin işığında yazıram, Azərbaycan əsgəri!” O işıq açılan səhərin işığıydı. O işıq noyabrın 9-u səhərinin işığıydı...

Noyabrın 8-də Şuşa işğaldan azad edildi. 9 noyabr səhəri dünyanı heyrətə gətirdi–milli-xəlqi ruhun qüdrəti ilə, möcüzəsiz möcüzəsiylə, azərbaycançılığın dönməzliyiylə, vətənpərvərliyin nəhayətsizliyiylə. Bizə ən gözəl olan səhər dünyaya heyrət səhəri oldu; bəşəri dövlətlər 9 noyabr səhərinə dünyəviliyə döğan səhər dedilər...

Ruhumuzun şəhərini işğaldan Azərbaycan əsgəri qurtardı. Sonralar Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan deyəcəkdi: “Azərbaycan torpaqları illərdi həsrət qaldığı Tərtər çayının sularına qovuşmuşdur. Şuşanın dağlarının başındakı duman artıq dərdli deyil. Girov qalmış Xarı Bülbül artıq azaddır və daha gözəl açacaqdır. Köndələnçay artıq daha coşqun axacaq. Araz nəğməsini daha güclü oxuyacaq. Qarabağ şikəstəsini oxuyan nəfəslər daha yüksək, daha güclü olacaqdır”. Bu kəlmələr ən gözəl səhərin nurunda könlümüzü incə-incə telləndirir.

Zəfər – səhər qafiyəsinin könüləyatımlığı ən gözəl səhərin ecazkarlığındadı...

İşğaldan azad edilmiş ərazilərdə əsgərlərlə söhbətlərimizdə bu haqda da danışmışıq. Həm də dan yeri sökülləndə...

***Rəşid FAXRALI,***
***şair-publisist***

**ŞƏHİDLƏRİMİZ**

# Şəhid qardaşların qeyrət nağılı

**Qarabağ uğrunda gedən müharibələrdə nə qədər ana-bacı gözüyaşlı qaldı, çox sayda arzu çiliкləndi, neçə-neçə ümid puç oldu. Amma onlar dərdə mərdliklə sinə gərdilər, dərdlə yaşayıb ona alışdılar, yaşlandılar. Müsahibimiz belə analardan biri – I Qarabağ müharibəsində 2 oğlunu Vətənə qurban vermiş Lətafət Novruzovadır. 30 il əvvəlki yaralarına böyük Zəfərimizin öyüncünü məlhəm toxdaqlıqla, təsəlli duyğusu ilə danışdı:**



– Böyük oğlum Natiq 1973-cü ildə Gürcüstanın Marneuli rayonunda doğulmuşdu. 6 ay sonra Bakıya köçdüyümüzdən Azər 1975-ci ildə Bakıda anadan olmuşdu. Natiq təhsilə 1981-ci ildə Nərimanov rayonu 258 nömrəli məktəbdə başladı. Orta məktəbi bitirdikdən sonra rabitəçi ixtisasına yiyələndi. Sovet dövrünün son vaxtlarında hərbi xidmətə çağırıldı. Azər isə hələ orta məktəbdə oxuyurdu.

Kalininqradda hərbi xidmətə olan Natiq ermənilərin Qarabağa irimiqyaslı ıhücumlarını eşidib bu xəbərlərdən dəhşətə gəlmişdi, Vətənin harayına yetişmək üçün fürsət axtarmışdı. O, xoş bir təsadüfdən qərargahın seyfindən 3 əsgər yoldaşının da hərbi biletlərini ələ keçirib onlarla birlikdə çətinlikləri aşıb Azərbaycana gəlmişdi. Natiqi hərbi komissarlıqdan cəbhə xəttinə göndərmişdilər. Beləliklə o, Qubadlının müdafiəsinə qoşulmuşdu. Bir müddət Əliyar Əliyevin dəstəsində döyüşmüşdü. Onu yoldaşları “Papanin Natiq” adlandırmışdılar.

Qubadlının işğalından sonra 1 həftə ondan xəbər çıxmadı. Bir gün toz-tortaq içində gəlib çıxdı. Başına gələnlərdən söz açıb dedi ki, bir xəstə uşaq köməksiz qalmışdı, onu od-alovun içindən çıxardım, bir də yaralı erməninin qoyub qaçdığı içi silahla dolu “KamAZ”ı sürüb Beyləqana gətirdim.

Həmin vaxt Lətifə ananın ikinci oğlu Azər də hərbi xidmətə çağırılıb. Qardaşların ikisi də eyni yerdə döyüşmək istədiklərini nəzərə alıb Nəsimi rayonunda təşkil edilən batalyonun tərkibində Kəlbəcər istiqamətinə göndəriliblər. Hər iki qardaş döyüş tapşırıqlarını cəsarətlə, bacarıqla yerinə yetirirmiş. Komandirləri Qulu Quliyev hər ikisindən çox razı imiş. Bir gün döyüşqabağı Natiq komandirə deyib ki, mən kəşfiyyatçıyam, gedib hər tərəfə baxıb qayıtmışam. Yuxarıda muzdlu xarici snayperlər qarşımızı kəsib. Komandir isə deyib ki, əmrə tabeyik, bu gün Yanşaq kəndi alınmalıdır.

**Lətafət ana deyir ki, həmin gün komandirlə birgə 21 nəfər döyüşə girib. Güllə yuxarıdan yağış kimi yağırmış:**

– Gecə yuxuda gördüm ki, qabaq dişimin biri sındı. Yuxumu heç kəsə deməsəm də, canıma qorxu doldu. Azəri bir neçə günlüyə evə göndərmişdilər. O xəbər gətirdi ki, bu gecə Nəsimi batalyonunu qırıblar. Azər tələsik geri qayıtdı. Onu yola salan günün gecəsi yuxuda ikinci dişim də düşdü. Yenə kimsəyə yuxumu danışmadım. Sən demə, 21 nəfərin hamısı Kəlbəcərin Yanşaq kəndində gedən döyüşlərdə qəhrəmancasına döyüşüb və yanvarın 1-də Qanlı göl deyilən yerdə şəhid olub.

Azər batalyon komandirinin yanına gedib deyib ki, icazə verin, şəhidlərimizin meyitlərini çıxaraq. Komandir deyir ki, yeni qüvvə gələnədək gözləməliyik. Yanvarın 16-da batalyon kəndə girəndə Azər kəsə yolla gedib, meyitləri bir yerə yığıb. Sən demə, bu dəfə də pusquya düşübmüşlər. Qardaşının cəsədini görəndə Azər dözə bilməyib hönkürüb. Bunu eşidən düşmən atəş açıb və o, qardaşının meyitinin üstünə yıxılıb. Mühasirə də yalnız yanvarın 21-də yarılıb, meyitləri götürmək mümkün olub. Natiqi və Azəri yanvarın 22-də Bakıya gətirib II Fəxri xiyabanda dəfn etdilər. Anladım ki, 2 dişimin dalbadal düşməyi nə imiş...

**Şəhid anası Respublika Sarayındakı görüşdə Ulu öndər Heydər Əliyevlə görüşün ona gətirdiyi hədsiz təsəllidən də söz açdı:**



– Toplantıdan sonra Heydər Əliyev yanımıza gəldi. Hərənin əlində bir şəkil, mən isə iki balamın şəkli ilə dayanmışdım. Ulu öndər dedi: “Sənin uşaqlarındı?” Dedim: “Bəli”. Dedi: “Bilirsənmi, sənin qırmızı işıqda keçmək haqqın var?” Dedim: “Cənab Prezident, Vətənə borclarını yerinə yetiriblər”. 1994-cü il oktyabrın 9-da böyük oğlum Natiq Novruzov “Azərbaycan bayrağı ordeni” ilə təltif edildi.

**Lətafət ananın həyat yoldaşı 2008-ci ildə dünyasını dəyişib. O, kiçik oğlu Samirin ailəsi ilə yaşayır. Nəvələrindən – şəhid əmisinin adını daşıyan Natiqdən və Samirədən danışır:**

– Natiq eynilə əmisi görünüşdə, o xasiyyətdədir. 9-cu sinfdə oxuyur, güləşlə məşğul olur, çoxlu medalları var. Samirə isə BDU-nun 3-cü kurs tələbəsidir. Dövlətimizdən, onun başçısından çox razıyam. 1994-cü ildə Nərimanov rayonundakı 36 nömrəli tam orta məktəbə şəhid oğullarımın – Novruzov qardaşlarının adı verilib, 1995-ci ildə məktəbin həyətində büstləri qoyulub. Adlarına küçə var. Bizə təqaüd verilir.

Əvvəllər qəbir üstə gedəndə “qanınız yerdə qaldı, balalarım” – deyirdim. İnanın qələbədən az əvvəl ziyarətlərinə gedəndə ürəyimə dammış kimi dedim: “Natiq, Azər, az qalıb”. Qələbə xəbərini eşidəndən dinclik tapmışam. Başı – dik, alnı – açıq, üzü – ağ gəzirəm. Bütün şəhidlərimizlə birlikdə uşaqlarımın da qisası alınıb, ruhları şaddır. Düşünürəm ki, düşmənin murdar ayağının izini torpaqlarımızdan yalnız igid övladlarımızın qanı yuya bilərmiş. Vətənin şərəfini qeyrət və namusumuza vurulmuş bu ləkənin yuyulması özünə qaytardı.

***Zərifə BƏŞİRQIZI***
***XQ***

# Vətən sevgisi – yenilməzlik ruhu

**Qarabağdakı vəziyyət müharibəni yaratdı, müharibə isə qəhrəmanlar yetişdirdi. Onlar vətənin ərazi bütövlüyü uğrunda döyüşdülər. Kimisi qazi oldu, kimisi şəhid...**

44 günlük Vətən müharibəsində xüsusı xidməti olan qəhrəmanlarımızdan biri də şəhid, tabor komandiri Elçin Ağaqulu oğlu Tağıyevdir.

Elçin Tağıyev 1989-cu il iyulun 1-də Biləsuvar rayonunun Zəhmətabad kəndində dünyaya gəlib. Həmin kənd orta məktəbinin 9-cu sinfini bitirərək Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olub, 2007-ci ildə təhsilini başa çatdırıb. Sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil alıb.

2011-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində gənc leytenant kimi xidmət etməyə başlayan Elçin Tağıyev nümunəvi zabit olub, hərbi tapşırıqları layiqincə yerinə yetirib.

Əziz dostu, sirdaşı, baş leytenant Ziya Həsənov 2016-cı il Aprel döyüşlərində şəhid olduqdan sonra Elçin Tağıyev Müdafiə Nazirliyinə müraciət edərək cəbhə bölgəsinə göndərilməsini istəyib. Onun arzusu nəzərə alınıb. Beləliklə, Elçin Tağıyev hərbi xidmətə döyüş bölgəsində, “Mübariz postu” ərazisində davam etməyə başlayıb. Çox keçmədən kapitan rütbəsi alıb.



Vətən müharibəsi başlayanda Elçin Tağıyevin rəhbərlik etdiyi həmlə taboru Goranboy istiqamətindən düşmən üzərinə hücuma keçir. Döyüşün ilk günlərindən onlar düşmənə ağır zərbələr vurur, keçilməz sədləri, istehkamları darmadağın edirlər. Silahdaşlarının sözlərinə görə, sentyabrın 29-da Murovdağda "Ömər" aşırımı uğurunda gedən döyüşdə mühasirəyə düşən taborunu Elçin təkbaşına mühasirədən çıxarır.

Sentyabrdan 30-dan oktyabrın 1-ə keçən gecə Tərtər rayonunun Murovdağ yüksəkliyi, Suqovuşan, Talış kəndi istiqamətlərində gedən döyüşlərdə iştirak edir. Ağır yaralanmasına baxmayaraq, cəbhə xəttini tərk etmir, qələbə naminə əlindən gələni edir. Tərtər rayonunun Talış kəndindəki "Ağ uçuq" adlanan ərazidə isə qəhrəmancasına şəhid olur.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə görə Elçin Tağıyev ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda" medalı və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

**Şəhidin bacısı Kamilənin dedikləri:**

– Qardaşım haqqında keçmiş zamanda danışmaq ağır da olsa, qürurvericidir. Zəhmli görkəmi ilk baxışda onu çox sərt insana bənzədirdi. Amma Elçin kövrək qəlbli, mehriban, həssas bir insan idi.

Əsgərləri Elçini qayğıkeş komandir kimi xatırlayırlar. O, hər bir əsgərinə xüsusi diqqət göstərib. Onun “İnstagram” səhifəsini mən işlədirəm. Əsgərləri onun barəsində çox gözəl, xoş sözlər yazırlar.

Ən yaxın dostu Ziya Həsənov idi. Onun şəhid olmasından çox təsirlənmişdi. Dostunun qisasını düşməndən alacağına and içmişdi. Andına sadiq qaldı qardaşım!

**– Elçinin müharibəyə getdiyi günü necə xatırlayırsınız?**

– Qardaşım müharibə başlamamışdan iki həftə öncə bizimlə görüşmək üçün rayona gəlmişdi.

15 sentyabrda qızı Dəryanuru 1-ci sinfə özü apardı. Ertəsi gün hərbi hissəyə qayıtdı. Oradan da müharibəyə yollandı.

**– Elçinlə bərabər, onunla eyni istiqamətdə digər qardaşınız – hərbi həkim Yalçın Tağıyev də müharibədə döyüşüb. Onun da qəhrəmanlığı haqqında çox eşitmişik. Canını təhlükəyə ataraq yaralı əsgərləri odun, alovun içərisindən çıxarır, xilas edirmiş. Onlar cəbhədə olarkən hansı hissləri keçirirdiniz?**

– Qardaşlarım – Elçin və Yalçın döyüşdə olarkən mənim nə hisslər keçirdiyimi bir Allah bilir! Həyəcan, qorxu, vahimə... Tez-tez zəng edib danışmaq, sağ-salamat olduqlarından əmin olmaq istəyirdik, amma döyüş zamanı danışmaq mümkün olmurdu. Allaha yalvarıb sağ qalmaları üçün dualar edirdik!

28 sentyabr 2020-ci il tarixidə telefonla hər iki qardaşımla danşdım. Sən demə, Elçinin səsini axırıncı dəfə eşidirmişəm.

**– "Vətən–ana torpaq sevgisi sevgilərin ən alisidir", – dedi Elçin. Vətən uğrunda son damla qanınadək döyüşərək ali məqama – şəhidlik zirvəsinə ucaldı. Bu barədə sizə kim xəbər verdi?**

– Oktyabır ayının 1-də Elçinə zəng vurdum, cavab vermədi. Yalçının nömrəsini yığdım və ondan Elçinin şəhid olmasını öyrəndim. Bircə "Kaş bu xəbər yalan olaydı", – deyib yerə çökdüm! Amma xəbər doğru çıxdı.

Çox şükür, Yalçın sağ-salamat evimizə döndü! Tək təsəllim Elçindən bizə yadigar qalan üç övladı – qızı Dəryanur, oğlanları – Tağı və Məhəmmədir. Onları bağrıma basanda qardaşımın ətrini alıram. O, Vətən qarşısındakı borcunu şərəflə yerinə yetirdi, Zəfər gününü görmədi, amma zəfərə gedən yolu nişan verib getdi.

**– Kəmalə xanım, bəlkə, azacıq da olsa, qaysaq bağlamağa başlamış qəlb yaranız suallarımla qopub sızladısa, məni bağışlayın!**

– Yox, mənim qəlbimdəki qardaş yarası əbədidir, heç zaman qaysaq bağlamayacaq! Suallarınız qəlbimi sızlatmadı, əksinə, şəhid qardaşım haqqında verdiyim müsahibə yaralı qəlbimi şad etdi. Sağ olun ki, Elçini yada saldınız! Şəhid bacısı kimi tək istəyim odur ki, Vətən fədailəri heç zaman unudulmasın!

***Zülfiyyə ZİYA***
***XQ***




# Tariximizi şərəfləndirən zəfər

**"Heydər Əliyev İli" çərçivəsində Lənkəranda "Tarixi zəfərimiz Heydər Əliyev siyasətinin təntənəsidir", "Ata vəsiyyəti və inamlı zəfər" mövzularınında konfrans keçirilib.**



Giriş nitqi ilə çıxış edən icra hakimiyyətinin başçısı, Taleh Qaraşov bildirib ki, ümummilli lider Heydər Əliyevin müstəsna xidmətləri sayəsində formalaşan və yüksəliş yoluna qədəm qoyan Azərbaycan Silahlı Qüvvələri bu gün Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında öz xalqına Böyük Qələbəni bəxş etmiş müzəffər Orduya çevrilib. Bu Zəfərin qazanılmasında Ulu öndərin əsasını qoyduğu xalq–hakimiyyət, xalq–ordu və xalq–dövlət birliyi dayanır: "Vətən müharibəsində etnik və dini mənsubiyyətindən asılı olmayaraq, ölkəmizin bütün vətəndaşları görünməmiş həmrəylik nümayiş etdirdilər, ön və arxa cəbhədə sarsılmaz birlik yarandı.

Şəhər rəhbəri qeyd edib ki, bu gün Azərbaycan dünyada ən sürətlə və dinamik inkişaf edən dövlətlərdən biridir. Ölkənin iqtisadi qüdrətinin artması müstəqil siyasət yeridilməsinə, əhalinin rifah halının ildən-ilə yüksəlməsinə imkan yaradır. Ulu öndərin müəyyənləşdirdiyi inkişaf strategiyasına uyğun olaraq, Prezident İlham Əliyevin rəhbərliyi ilə nəhəng transmilli nəqliyyat və enerji layihələrinin həyata keçirildiyi Azərbaycanın təşəbbüsləri dünyanın aparıcı dövlətləri tərəfindən dəstəklənir, ölkəmizə iqtisadi-siyasi dividentlər qazandırır.

Sonra Lənkəran Dövlət Universitetinin kafedra müdiri, dosent Kamal Mahmudov "Zəfər qələbəsi Heydər Əliyev siyasətinin təntənəsidir" mövzusunda, tarix üzrə fəlsəfə doktoru Mais Cəfərov "44 günlük Zəfər yolu" mövzusunda və Lənkəran rayon Çay Fabriki qəsəbə tam orta məktəbinin direktoru Sadiq Quliyev "Heydər Əliyevin Zəfər yolu" mövzusunda çıxış ediblər.

Bildirilib ki, İkinci Qarabağ müharibəsində qazanılmış parlaq Qələbə güclü dövlət–güclü ordu konsepsiyasının təntənəsidir. 30 il işğal altında qalan torpaqlarımız məhz bu konsepsiyanın nəticəsində hərbi-siyasi yolla azad olunub və ərazi bütövlüyümüz təmin edilib. Regionun gündəliyini bu gün Azərbaycanın diktə etdiyi vurğulanıb. Azad olunmuş torpaqlarımızda genişmiqyaslı bərpa-quruculuq işləri heç kəsdən yardım alınmadan Azərbaycanın öz imkanları hesabına sürətlə davam etdirilir, Böyük Qayıdış Proqramı çərçivəsində uğurlu addımlar atılır. Ulu öndərin siyasi kursunun layiqli davamçısı olan Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Azərbaycanı bu böyük uğurlara çatdırmaqla ata vəsiyyətini layiqincə yerinə yetirir.

**Ə.ƏLİYEV**
**XQ**

# Günəş boyda sevinc...

## (esse)

**...Adı Alparslan, soyadı Cavanşirdir. Mənim uşaqlıq dostum. Bu hekayəti mənə danışanda 14 yaşı vardı. Onun ağıllı oğlan olduğunu bilirdim, fəqət bu qədər yurdsevər, cəsur olduğundan xəbərim yox idi. Bütün bunları öz dilindən eşitdiyim hekayətində duydum. Alparslanın hekayətindən siz də agah olun.**

***

"Həyətimizdəki söyüd ağacının altında ovcumu açıb dayanmışdım. Söyüdün salxımlarından ovcuma parıldayan yaşıl dənələr tökülürdü. Dənələr getdikcə çoxalırdı. Ovcum dolanda isti barmaqlarımdan bədənimə yayılırdı. Sonra parıltı böyüyüb Günəşə çevrildi. Günəş gözlərimi qamaşdıranda ...yuxudan ayıldım. Üzüm və əllərim hələ də isti idi. Yuxumu nənəmə danışdım. Nənəm gülümsəyib dedi ki, söyüdün salxımından düşən dənələr dərslərindən aldığın "beş"lərdi, Günəşin parıltısı isə sənin sevincindi.

Mən, doğrudan da, bütün fənlərdən beş alıram. Məqsədim böyüyəndə polis olmaqdır. İnsanları oğrulardan, quldurlardan qoruyacağam. Eynən atam kimi. Atam polis zabitidir, özü də Türkiyədə oxuyub. İndi bizim rahatlığımızı qoruyur. İşi çoxdu, çox vaxt evə biz yatandan sonra gəlir. Axı o, tək bizim yox, bütün azərbaycanlı uşaqların keşiyini çəkir. Onun polis mundirindən çox xoşum gəlir. Düşünürəm ki, səngərdə Vətənin keşiyini çəkən əsgərlərlə polislərimiz eyni işi görürlər. Çünki onların biri Azərbaycanı xarici, o biri isə daxili düşmənlərdən qoruyur. Bu fikrimi atama deyəndə, mənimlə razılaşdı. Amma onu da dedi ki, sən hələ tələsmə, hansı peşəni seçəcəyinə böyüyəndə qərar verərsən.

...Atamla bu söhbəti yay tətilində etmişdik. Payızda Vətən müharibəsi başlandı. Düşmənin Qarabağı, baba yurdum Füzulini işğal etdiyini bilirdim. Bunu bizə məktəbdə müəllimimiz, evdə atam danışmışdı. Axı, ermənilər niyə bizim Qarabağımızı ələ keçiriblər? Məgər onların öz torpaqları yoxdur? Nəyə görə Şuşada ermənilər yaşamalıdır? Bu sualları atama tez-tez verirdim. O isə cavab verirdi ki, tezliklə Qarabağı düşməndən azad edib, oraya qayıdacağıq.

Məktəbimizdə "Hərbi vətənpərvərlik nədir?" mövzusunda sinif saatı keçirilirdi. Müəllimimiz bizə Milli Qəhrəmanımız Mübariz İbrahimov haqqında danışırdı. Deyirdi ki, Mübariz bu gün Qarabağı işğalçılardan azad edən əsgər və zabitlər üçün bir örnəkdir. Evdə atamla da bu mövzuda söhbət elədik. O, mənə vətənpərvərlik, fədakarlıq, qəhrəmanlıq, şəhidlik barədə maraqlı hekayətlər danışdı. Həmin sözlər beynimə birdəfəlik həkk olundu. Bunları əyani şəkildə hər gün televizorda verilən cəbhə xəbərlərindən də eşidirdim. Düşməni məhv edən igid əsgərlərin, cəsur komandirlərin adları çəkilirdi. Onlar Qarabağı qarış-qarış işğalçılardan geri alırdılar. Yaşım orduda xidmət etməyə çatmasa da, özümü Vətənin keşiyində duran əsgər kimi hiss edirdim və bundan qürur duyurdum. Qurtuluş savaşımızda qardaş Türkiyənin Azərbaycanı tək buraxmaması məni lap sevindirirdi. Həmin anlarda hamıdan çox türkiyəli dostum Mehmet yadıma düşürdü.

Hə, onu da deyim ki, sosial şəbəkədə Türkiyədən xeyli dostum var. Ərzurumlu Mehmet Fatehlə bir-birimizi elə gözəl başa düşürük ki... O da mənim kimi şeiri, musiqini çox sevir. Bu yaxınlarda Mehmet mənə bir şeir göndərib. Onu Ərzurumlu şair Kabakçı Esed yazıb, üstəlik mahnı da bəstələnib. Şeir belədir:

**Gün gedəndə, Ay gələndə gəl, oğlum,**
**Cahan yanar sən güləndə gül, oğlum.**
**Bir yol vardır haqq yoludur, bul, oğlum,**
**Yeri bilmək, göyü bilmək, bil, oğlum,**
**Bil, oğlum!**
**Səndən gedər sonsuzluğa yol, oğlum,**
**Dörd bir yana salmalısan kol, oğlum.**
**Əkməyini ac olanla böl, oğlum,**
**Haram yemə, haqq yolunda öl, oğlum,**
**Öl, oğlum!**
**Vətəninə göz dikəni əz, oğlum,**
**Dostun kimdi, düşmənin kim, sez, oğlum.**
**Tarixini şərəfinlə yaz, oğlum,**
**Yaz oğlum!**

...Şeirə görə Mehmetə təşəkkür elədim, cavabında ona bu fotoşəkli göndərdim.



Bu şəkil noyabrın 8-də Bakıda çəkilib, Şuşanın azad edildiyi gün. Qələbə xəbərini Ali Baş Komandanımızın elan etdiyi həmin o tarixi gün. Heç unutmayacam: şəhər yuxudan ayılanda hər yandan atəşfəşanlıq səsləri eşitdim. Nənəm eyvanda kimlərəsə əlini yelləyirdi. Küçəboyu piyadalar, maşınlardakı adamlar əllərində iki bayraq tutmuşdu. Azərbaycanın və Türkiyənin bayraqlarını! Hilallı, ulduzlu əkiz bayraqları! Nənəm sevincindən ağlayırdı. Mən də özümü saxlaya bilmədim...

O axşam Mehmetə göndərdiyim şəklin altında bu sözləri yazdım: "Mən o qız qardaşımı tanımıram. Amma əlindəki bayraq mənim üçün çox əzizdir. Sən də mənim üçün doğmasan. Böyüyəndə dost və qardaş olaraq qalacağıq".

...Həmin axşam nənəm bayram süfrəsi açmışdı. Hamımız əyləşib atamı gözləyirdik. Nəhayət, gecə yarısı atam gəldi. Onsuz da sevincdən gözümüzə yuxu getmirdi. Bir də ki, bütün Bakı ayaq üstə idi. Hər tərəfdən atəşfəşanlıq səsləri gəlirdi. Atam hamımızı bir-bir qucaqlayıb bağrına basdı. Mənim alnımdan öpüb dedi ki, bu günü yadında saxla, indi gördüklərini gələcəkdə övladlarına, nəvə-nəticənə danışarsan. Onu sakitcə dinləyən nənəmin gözləri parıldayırdı. Bu parıltı mənə yayda gördüyüm yuxunu xatırlatdı. O an nənəm sanki ürəyimi oxudu, başımı sığallaya-sığallaya belə dedi:



– Alparslan! Yayda gördüyün o yuxunun əsl mənası indi bəlli oldu. Söyüdün salxımından ovcuna tökülən parıltılı yaşıl dənələr düşməndən azad edilən kəndlərimiz, şəhərlərimiz, səni yuxudan oyadan həmin Günəş isə Zəfər sorağı imiş. Yəni, bizim salxım söyüdümüz Vətən Müharibəsində Zəfərimizin müjdəsini yuxunda sənə Günəş şəklində çatdırıb.

Nənəmin bu sözlərindən sonra atam onu əlindən öpüb alnına sıxdı. Dönüb bizə baxdı. Mən, bacım, anam da eyni hərəkəti etdik. Axı, Vətənə Ana deyirik. Hər ikisini bax beləcə öpüb gözümüzün üstündə saxlamalıyıq.

...Atam düz deyir, bu günləri heç vaxt unutmamalıyam. Xoşbəxtəm ki, doğma yurdum, Vətənim işğaldan azad oldu. Onu yağılardan qoruyan güclü ordumuz var.

Bu günlər bir suala cavab tapa bilmirəm: böyüyəndə polis olum, yoxsa hərbçi? Hələ vaxtım var. Qərarımı hərbi xidmətə çağırılanda verəcəyəm..."

**P.S.** Alparslan hekayətini danışıb qurtaranda onu bağrıma basmaqdan özümü saxlaya bilmədim. Və düşündüm ki, indi artıq 17 yaşının içində olan yeniyetmənin danışdığı, vətənpərvərlik ruhuna bələnmiş real hekayəti sizinlə bölüşməyim yerinə düşər...

***İ.HƏSƏNQALA***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 246 (30362) 9 noyabr 2023-cü il, cümə axşamı

# Zəfər nəğmələri





## Azərbaycan Bayrağı

Şənini vəsf etməyə yetər, qüdrətim yetər,
Ulduzunu, ayını göydə mələklər öpər,
Hər rəngində "ya qazi, ya şəhid" bir mən bitər,
Sən ey İstiqlalımın əbədiyyət sancağı, –
Azərbaycan bayrağı !

* * *

Yağının min hiyləsi küydən, kələkdən keçər,
Sən sancılan ucalıq min-min ürəkdən keçər,
Dağlar yerindən oynar, daşlar ələkdən keçər,
Göylərin nur yağmuru, yerlərin göy qurşağı,-
Azərbaycan bayrağı !

* * *

Sən Arazın, Samurun umuduna bələndin,
Çəni ağlar Göyçənin buluduna bələndin,
Dərbəndin dərd hıçqıran sükutuna bələndin
O tayımda Savalan, bu tayımda Şah dağı,
Azərbaycan bayrağı !

* * *

Cəngidə cövlan yerim, cövlanda can yerimsən,
Barışda gül çələngim, savaşda qan yerimsən,
Sən mənim and yerimsən, mənim iman yerimsən,
Dalğalı ləngərlərin yelpiklənən yarpağı,-
Azərbaycan bayrağı !

* * *

Sənsən Azadlıq eşqim, sənsən Hürr,- deyəcəyəm,
Ən son nəfəsimdə də sənə şeir deyəcəyəm,
Şuşada sən qonduğun daşa pir deyəcəyəm,
Çəkəcəyəm gözümə kölgən düşən torpağı
Azərbaycan bayrağı! Azərbaycan bayrağı!

**Ramiz QUSARÇAYLI**

## Qələbə köynəyi

Bu yüksələn bayrağım –
Qəlbimə qürur mənim!
Ana Vətən eşqiylə,
Ürəyim vurur mənim!

Mavi – mənim göyümdür,
Al – zəfər köynəyimdir.
Yaşıl – cənnət torpağım,
Uca sərvi boyumdur!

Yola çıxdıq, uğura,
Qəhrəmanlar doğula!
Qələbəyə çağıran,
Əslim, köküm, soyumdur!

Dalğalan, uca bayraq!
Min yaşa, Ana torpaq!
Uğrunda şəhid olmaq
Büsatımdır, toyumdur.

"Vətən" – dedim ünlədim,
Zərəngizi dinlədim.
Tarix yazıb yaşamaq,
Bir ilahi duyumdur.

**Zərəngiz Dəmirçi QAYALI**

## Şükür olsun bu günə

Gör necə də vüqarla başım üstə durmusan,
Yenilməz bir ulusa, yurda tən, uca bayraq!
Bəs eləyir vəsfinə bircə qızılı misra,
Bu torpaq uca bayraq, bu Vətən uca bayraq!

Əbədi dalğalanmaq həvəsini duyuram,
Ürəyini oxuyur və səsini duyuram,
Nəbzini dinləyirəm, nəfəsini duyuram,
Məni-mən eyləyənsən, məni-mən, uca bayraq!

O sənin şəhid oğlun, bu sənin şəhid bacın,
Mənim sinəmə gəlsin, nə ki, var, ağrın-acın,
Dalğalanır Murovun yelində qıvrım saçın,
Ətəyi coşqun dəniz, başı çən, uca bayraq!

O zəfərdən anamız Təbrizə də dilərsən,
Qanlı göz yaşlarını ətəyinlə silərsən,
Kefin harda istəsə dalğalana bilərsən,
Qazanmısan bu haqqı, sən ey, sən, uca bayraq!

Qoruyub yaşatmışıq səni qan bahasına,
Min-min oğul, min-min ər, min-min can bahasına,
Daha nə yazım axı, nə yazım dahasına,
Bayraq deyirəm sənə, bayraq, ən uca bayraq!

**Ayaz ARABAÇI**

## Карабах

***Rus dilində yazılmış bu şeiri redaksiyamıza Qazaxıstanın Astana şəhərində yaşayan tarixçi, şair-jurnalist Daniyar Qasımov göndərib.***

Враги уго сильно избили,
Он еле стоял на ногах.
А потом его допросили:
«Скажи нам, чей теперь Арцах?»

Ответил им отважный воин,
Сущая правда в его словах:
«Здесь каждый тюрок жить достоин!
Он всегда наш, Карабах!»

Такой ответ врагов смутил,
Они считали, что бойца сломили,
Ложь он чистой правдой отразил
И этого ему, конечно, не простили.

В злобе, что запугать не смогли,
Враги его бензином облили.
Горел в ту ночь город Ходжалы,
И пленного аскера тоже спалили.

Смешался прах его с землей родной,
Нет чести для аскера большей.
Карабах сейчас возвращается домой
Он стал для тюрков святыней общей!

***P.S: Şübhəsiz şairlərimiz bu şeiri dilimizə çevirib redaksiyamıza təqdim edəcəklər.***

## Zəfər yolumuz

Üfüqdə bir ümid işığı yandı,
Başlandı zəfərə səfər yolumuz...
Bəsdir ana yurdum yandı, talandı,
Ürəkdə qövr etdi qəhər yolumuz...
Çatdı qələbəyə zəfər yolumuz!

Bir vaxt silahsızdıq, əli yalındıq...
Bəlkə ona görə kənd-kənd alındıq...
Bəzən yağmalandıq, bəzən talandıq,
Babalardan qalmış səngər yolumuz...
Çatdı qələbəyə zəfər yolumuz!

Milyon əl birləşib – bir yumruq oldu,
Ürəklər hünərlə, qürurla doldu.
Düşmənin bağrına yaralar vurdu
Misri qılınc kimi dəmir qolumuz,
Çatdı qələbəyə zəfər yolumuz!

Üzü qələbəyə yol getdi onlar,
Keçilməz qayalar qət etdi onlar,
Bir ümid sədası eşitdi onlar,
Vətənin sehrindən keçər yolumuz...
Çatdı qələbəyə zəfər yolumuz!

Bu yolda şəhidlik ən uca məqam!
Candan əziz Vətən, Vətən – əziz can...
Şəhid anaları – ruhu qəhrəman!
Cəngi lay-layımız, hünər yolumuz...
Çatdı qələbəyə zəfər yolumuz!

Yurdun daş yaddaşı – bir qan yaddaşı!
Unutmaq olarmı axan qan-yaşı?!
Bizə əmanətdir hər dağı, daşı, –
Müqəddəs ünvandır əsgər yolumuz,
Çatdı qələbəyə zəfər yolumuz!

**Elman İSKƏNDƏR**

**İdman**

## II Türk Dövlətləri Universiadasında 7 medal

**Qazaxıstanda keçirilən II Türk Dövlətləri Universiadasında Azərbaycan idmançıları 7 medal qazanıblar.**



Cüdo üzrə komandamızın üzvləri Ramilə Əliyeva (48 kiloqram) qızıl, Eltac Yusifli (66 kq) gümüş və Elcan Şəfiyev (81 kq) bürünc medala yiyələniblər.

Sərbəst güləşçilərimizdən isə Camal Abbasov (61 kq) və Sabir Cəfərov (70 kq) hamıdan güclü olublar. Aydın Əhmədov (125 kq) ikinci, Sahib Dadaşov (79 kq) üçüncü pillələrdə qərarlaşıblar.

Azərbaycanın 4 idman növündə 38 idmançı ilə təmsil olunduğu yarış noyabrın 10-dək davam edəcək.

***Leyla SABİQIZI***
***XQ***

## Türkiyədən Azərbaycana təbrik mesajı

**Türkiyənin Milli Müdafiə Nazirliyi Azərbaycanın Zəfər Günü ilə bağlı paylaşım edib.**

Təbrik mesajı nazirliyin rəsmi sosial media hesablarında yayımlanıb.




Azərbaycanın Dövlət Himninin sözlərinin yer aldığı paylaşımda deyilir:

***"Sən olasan gülüstan,***
***Sənə hər an can qurban!***
***Sənə min bir məhəbbət,***
***Sinəmdə tutmuş məkan!***
***Üçrəngli bayrağınla məsud yaşa Azərbaycan!***

Azərbaycan Türkü qardaşlarımızın 8 Noyabr - Zəfər Gününü təbrik edir, qardaşlarımızı ən səmimi hisslərimizlə salamlayırıq".

**XQ**

**Hava**




**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən noyabrın 9-da Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Lakin səhər bəzi şəhərətrafı ərazilərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Cənub küləyi əsəcək, arabir güclənəcək.Gecə 13-17°, gündüz 18-23° isti olacaq. Atmosfer təzyiqi 766 mm civə sütunundan 758 mm civə sütununa enəcək, nisbi rütubət gecə 70-80, gündüz 50-60 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Mülayim qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 9-14°, gündüz 22-27°, dağlarda 0-5°, gündüz 8-13° isti olacaq.

***Q. QASIMOV***
***XQ***

## Bir qazinin Zəfər nəğməsi

**O, 1963-cü il noyabrın 9-da, 57 il sonra Dövlət Bayrağı Günü kimi qeyd edəcəyimiz bir tarixdə Ağdərənin Xatınbəyli kəndində anadan olmuşdu. Birinci Qarabağ müharibəsinin ilk veteran-jurnalisti, II qrup əlil Xaqani Ədəb oğlu Rzaquliyev könüllü döyüşçü, qazi, böyük fədai, Turan sevdalısı idi. Bu il noyabrın 9-da cəbhə yoldaşları, məsləkdaşları, dostları toplaşıb 60 illiyini qeyd edəcəkdilər. Ömür vəfasız çıxdı, zalım fələk bir il əvvəl Xaqanimizi sıralarımızdan apardı. X.Rzaquliyev jurnalist, publisist, araşdırmaçısı kimi çoxsaylı əsərlərin müəllifi idi. Böyük Zəfərimizə hamıdan çox sevinirdi. Zəfər günündə mərhum qazimizin ilyarım əvvəl qələmə aldığı məqaləsini oxucuların diqqətinə çatdırırıq.**



### UNUTMA: 30 il öncə Şuşanı yağı işğal etmişdi…

2019-cu ilin may ayında yazdığım bir yazıda deyilirdi: "Şuşanın işğaldan azad edə bilməsək Qafqazda Azərbaycan adlı bir ölkənin var olacağı mümkün deyil. İmperialistlərin mənfur planında ən çirkin və iyrənc işləri görmək üçün Roma imperiyasının (hazırda Vatikanın) yaratdığı bu hay yığnağı, sadəcə, bir vasitədir və bu axmaq toplumu "Böyük Ermənistan" adlı xəyali bir yalanla otarırlar.

Biz isə bu ləkə ilə yaşayırıq. Əlbəttə, dayısı haylar üçün bu, bir fəxarət yeridir, amma qanı təmiz olanlar bu ləkəli həyatda nəfəs almağa da çətinlik çəkirlər. Torpağımıza, bayrağımıza vaxtında sahib çıxsaydıq, kimlərdənsə mərhəmət gözləməzdik, ədalət axtarmazdıq. Dünya güclü olanındır. Dünyada var olmağın başlıca prinsipi budur! Gəlin son dəfə düşünün…

"Naşa Armeniya"nın Şuşanın işğalı ilə bağlı yayınladığı bir yazıda deyilir: "8 may 1992-ci ildə erməni xalqının həyatında mühüm hadisə baş vermişdir. "Böyük Ermənistanın" "qədim erməni əyalətinin mədəniyyət paytaxtı Şuşa" şəhəri azad olundu. Təşkilatçılardan biri - görkəmli hərbi lider Arkady Ter-Tatevosyan - "Dağlarda toy" adlı məşhur əməliyyat və Qarabağ müharibəsində qələbələrin əhəmiyyəti barədə danışır".

2022-ci ilin may ayında isə yazıram: "Prezident, Silahlı Qüvvələrin müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Ermənistanın işğalı altında olan torpaqlarımızı azad etmək üçün rəşadətli ordumuzun sentyabrın 27-də Qarabağda başladığı genişmiqyaslı və uğurlu əks-hücum əməliyyatları nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda isə Bartaz, Sığırt, Şükürataz yüksəklikləri və daha 5 adsız yüksəklik azad olundu.

Böyük qələbəmizin reallaşdığı gün, 8 mayda itirdiyimizi geri aldığımız gün – 8 noyabr 2020-ci il tariximizə şanlı bir gün kimi yazıldı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz Azərbaycanın tarixi, mədəni və strateji əhəmiyyətə malik, Qarabağın tacı olan Şuşanı işğaldan azad etdi.

Şuşa şəhəri 2023-cü ildə Türk Dünyasının Mədəniyyət Paytaxtı elan olunub. Bununla bağlı TÜRKSOY Daimi Şurasının Bursa şəhərində keçirilən növbədənkənar iclasında qərar qəbul edilib. Xatırladım ki, bu il Türk Dünyasının Mədəniyyət Paytaxtı Bursa şəhəridir.

"Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

İlham ƏLİYEV, Azərbaycan Respublikasının Prezidenti.

Əlavə etməyə söz varmı?

**Xaqani ƏDƏBOĞLU,**

**8 may 2022-ci il**

## Dağıntı və ya xəsarət barədə məlumat daxil olmayıb



**Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzindən Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinə daxil olmuş məlumata əsasən, noyabrın 8-də yerli vaxtla saat 09:18 dəqiqədə ilkin məlumatlara əsasən Azərbaycanla İran sərhədində 5,1 maqnituda zəlzələ qeydə alınıb.**

Zəlzələ nəticəsində hər hansı dağıntı və ya xəsarət barədə nazirliyə məlumat daxil olmayıb. Zəlzələ Azərbaycanın bir sıra cənub rayonlarında hiss olunub.

**XQ**

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4790
SİFARİŞ 2846
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV

Çapa imzalanmışdır
00:00